Xalqın qəzeti!

# Xalq qəzeti

№ 91 (31060) 23 may 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan paytaxtında qlobal məskunlaşma müzakirələri önəmli nəticələrlə başa çatdı




**Azərbaycan Avropa ilə Asiya arasında yerləşir və hər zaman Şərqin Qərb ilə qovuşduğu məkan olub. Bu, ölkəmizin memarlığında da əks olunub. Bakıda qədimliklə yenilik, tarixi irsimizin qorunması ilə şəhərsalmanın planlaşdırılması və müasirləşdirilməsi zəruriliyi arasında təbii vəhdət mövcuddur.**

**...Şəhərsalma nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox şəhərləri üçün gündəlik əsaslarla işlədiyimiz məsələdir. BMT-nin qlobal şəhərsalma forumu kimi mühüm toplantı bizə daha çox öyrənmək, müsbət təcrübə ilə tanışlıq üçün və səhvlərimiz haqqında danışmaqda yardımçı olacaq.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Lev Qumilyov adına Avrasiya Milli Universitetinin İdarə heyətinin sədri-rektoru cənab Yerlan Sıdıkova

**Hörmətli cənab Sıdıkov!**

Sizi və rəhbərlik etdiyiniz kollektivi əlamətdar yubiley – Lev Qumilyov adına Avrasiya Milli Universitetinin (AMU) yaranmasının 30 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Yarandığı gündən etibarən AMU şərəfli yol keçərək mühüm uğurlara imza atmış, Qazaxıstanın aparıcı ali təhsil müəssisələrindən biri, regionda mötəbər elm və təhsil mərkəzinə çevrilmişdir.

Professor-müəllim heyətinin peşəkarlığı və tədris prosesinin təşkilinə innovativ yanaşma sayəsində AMU bu gün yüksək keyfiyyətli təhsilin simvolu, qlobal əhəmiyyətli təhsil müəssisələrindən biri hesab olunur. Universitetin bir çox məzunları müstəqil Qazaxıstanın inkişafına və rifahına öz töhfələrini verirlər.

22 il ərzində bu şanlı elm ocağının fəxri professoru adını daşıdığım üçün böyük fərəh hissi duyuram.

Əminəm ki, AMU bundan sonra da dünyanın nüfuzlu universitetləri sırasındakı mövqeyini daha da möhkəmləndirəcək, fundamental elmin inkişafı və dövrün tələblərinə cavab verən yüksəkixtisaslı kadrların hazırlanması kimi ali missiyasına sədaqətlə xidmət edəcəkdir.

Bu əlamətdar yubiley günündə Sizə, Universitetin bütün professor-müəllim heyətinə və tələbələrinə möhkəm cansağlığı, tükənməz enerji, fəaliyyətinizdə yeni zirvələr və uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## 2024-cü il mayın 24-də Qazaxın 4 kəndi Azərbaycana qaytarıldı



Səhifə ⇨ 5

## Azərbaycanın neft ixracının şah damarı



Səhifə ⇨ 8

## Körfəz müharibəsi: neft, yoxsa su?



Səhifə ⇨ 15

## Ermənistan üçün ən sərfəli təbii qaz bazarı ölkəmizdir

Səhifə ⇨ 8

## “Hantavirus” uşaqlardan və yaşlılardan yan keçir



Səhifə ⇨ 13

## Ümumdünya Şəhərsalma Forumunun bağlanış mərasimi



Səhifə ⇨ 4

## WUF13 də COP29 kimi ölkəmizi möhtəşəmlik zirvəsinə yüksəltdi




Səhifə ⇨ 4

## 103 ölkədən 569 QHT-nin Bakı Bəyannaməsi



Səhifə ⇨ 5

## Seçki, yoxsa söyüş kampaniyası?




Səhifə ⇨ 5

## Gələcəyin şəhərsalma modeli: “yaşıl və ağıllı” məskənlər



Səhifə ⇨ 6

## BMT Məskunlaşma Proqramının Bakı Forumunun qlobal uğur düsturu

Səhifə ⇨ 6

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı, səadət, Azərbaycan Hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Məhəmməd bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

*

**Zatı-aliləri cənab Prezident!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizi təbrik edirəm.

Bu bayram münasibətilə Azərbaycan xalqına firavanlıq diləyir və ən xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

***Villem-ALEKSANDR,***
***Niderlandın Kralı***

*

**Zati-aliləri!**

Dost ölkənizin Müstəqillik Günü münasibətilə Bəhreyn Krallığının xalqı və hökuməti adından, şəxsən öz adımdan Zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

Zati-alinizə məmnuniyyətlə ən yüksək ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Həməd bin İsa Al XƏLİFƏ,***
***Bəhreynin Kralı***

*

**Cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Paraqvay xalqı və hökuməti adından, şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan məmnunluğumu bildirirəm.

Bu əlamətdar bayram münasibətilə qardaş Azərbaycan xalqına sülh, rifah və firavanlıq arzulayıram.

Paraqvay Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmlənməsini diləyirəm.

Fürsətdən istifadə edərək Zati-alinizə ən yüksək ehtiramımı və dərin hörmətimi bir daha ifadə edirəm.

***Santyaqo PENYA,***
***Paraqvay Respublikasının Prezidenti***

*

**Möhtərəm cənab Prezident!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizi səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu bildirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan Hökumətinə və dost Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzu edirəm.

Sizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Məhəmməd bin Raşid Al MAKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri***

*

**Möhtərəm cənab Prezident!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu ifadə edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan Hökumətinə və dost Azərbaycan xalqına tərəqqi və rifah arzulayıram.

Zati-alinizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Mansur bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident Administrasiyasının rəhbəri***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə ölkənizin hökumətinə və xalqına təbriklərimi çatdırıram.

Ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasında dostluq münasibətləri qarşılıqlı maraqlara uyğun olaraq gələcəkdə də möhkəmlənəcək və inkişaf edəcək.

**Hörmətlə,**

***Kim Çen IN,***
***Koreya Xalq Demokratik Respublikasının Dövlət İşlərinin Sədri***

*

**Zati-aliləri!**

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) adından və şəxsən öz adımdan 28 May – Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu əlamətdar gün böyük ölkənizin tarixində və Azərbaycan xalqının yaddaşında özünəməxsus yer tutur.

ICESCO Azərbaycanı özünün ən güclü tərəfdaşları arasında görməkdən şərəf duyur. Zati-alinizin illər ərzində təşkilatımıza göstərdiyi davamlı dəstək və həyata keçirilən konstruktiv əməkdaşlıq bütün İslam dünyasında xüsusi rəğbətlə qarşılanır.

Bu bayram münasibətlə Zati-alinizə cansağlığı, tükənməz enerji, Azərbaycan xalqına isə firavanlıq və əldə olunan böyük nailiyyətlərlə hər zaman qürur duymağı arzulayıram.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Səlim bin Məhəmməd ƏL-MALİK,***
***ICESCO-nun Baş direktoru***

*

**Möhtərəm cənab Prezident!**

İcazə verin, Sizi 28 May - Müstəqillik Günü və müqəddəs Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edim.

Azərbaycan xalqının müsəlman aləmində ilk demokratik respublikanı yaratması bütün Türk dünyasının fəxridir.

Ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının "Regional sülh və təhlükəsizlik" mövzusunda keçirilən 12-ci Zirvə Görüşü ilə başlayan Azərbaycanın sədrliyi dövründə təşkilatımızın nüfuzu qlobal miqyasda daha da artmış, çoxşaxəli əməkdaşlığımız keyfiyyətcə yeni müstəviyə qədəm qoymuşdur.

Türk Dövlətləri Təşkilatının gücləndirilməsinə və dünya arenasında nüfuzunun artırılmasına verdiyiniz töhfələrə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Əminəm ki, Sizin rəhbərliyinizlə yüksələn xətlə inkişaf edən Azərbaycan Respublikası daha da güclənəcək.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə dərin ehtiramımı bildirir, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

*

**Zati-aliləri!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və dost Azərbaycan xalqına səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

İqtisadi Əməkdaşlıq Təşkilatı regional iqtisadi əməkdaşlığın və daha geniş inteqrasiyanın inkişafında Azərbaycanın fəal və konstruktiv roluna böyük əhəmiyyət verir. Təşkilatımızın əsas üzvü kimi Azərbaycan üzv dövlətlər arasında əlaqələrin, xüsusilə ticarət, enerji sahələrində əməkdaşlığın və davamlı inkişafın təşviqinə dəyərli töhfələr verir.

Əminəm ki, kollektiv səylərimiz, ortaq baxışımız, həmçinin Zati-alinizin himayəsi və dəstəyi ilə İqtisadi Əməkdaşlıq Təşkilatı regionda sülh, sabitlik, firavanlıq naminə daha da inkişaf edəcək.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Əsəd Məcid XAN,***
***İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi***

*

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar bayram Azərbaycan Respublikasının suverenliyini, dövlətçiliyini möhkəmləndirmək, davamlı inkişafını sürətləndirmək, vətəndaşlarının rifahını daha da yaxşılaşdırmaq istiqamətində görülən mühüm işləri təcəssüm etdirir.

Qoy, bu bayram respublika vətəndaşlarının qəlbini ölkələrinə görə qürur, onun daha xoşbəxt gələcəyinə inam və qazanılan uğurlarla bağlı tükənməz sevinc hissi ilə doldursun!

Sizə möhkəm cansağlığı, firavanlıq və Azərbaycan Respublikasının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

**Hörmətlə,**

***Bakıtcan SAQİNTAYEV,***
***Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri***

# Azərbaycan Baş nazirinin Türkmənistan Prezidenti ilə görüşü



**Aşqabad şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 22-də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb.**

Bu barədə Nazirlər Kabinetindən məlumat verilib.

Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Türkmənistanın dövlət başçısına çatdırıb.

Sərdar Berdiməhəmmədov Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

Görüş zamanı Azərbaycan ilə Türkmənistan arasında qarşılıqlı etimada əsaslanan siyasi dialoqun dinamik inkişaf etdiyi vurğulanıb, ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətlər üzrə genişləndirilməsi imkanları müzakirə olunub.

***XQ***

# Əli Əsədov Aşqabadda MDB Hökumət Başçıları Şurasının iclasında

**Mayın 22-də Türkmənistanın paytaxtı Aşqabadda Müstəqil Dövlətlər Birliyi (MDB) Hökumət Başçıları Şurasının növbəti iclası keçirilib. Azərbaycanın Baş naziri Əli Əsədov iclasda iştirak edib.**



Baş nazir məhdud tərkibdə keçirilən iclasda çıxışı zamanı humanitar əməkdaşlığın əhəmiyyətini vurğulayaraq bildirib ki, bu sahə Birliyə üzv dövlətlər arasında qarşılıqlı fəaliyyətin əsas istiqamətlərindən biri olaraq qalır. Qeyd olunub ki, məhz humanitar layihələr və təşəbbüslər xalqlar arasında qarşılıqlı anlaşmanın, ənənəvi dostluq münasibətlərinin və etimadın möhkəmləndirilməsi üçün mühüm potensiala malikdir.

Bu kontekstdə Ə.Əsədov 2027-ci ildə Minsk şəhərinin, 2028-ci ildə isə Karaqanda şəhərinin MDB-nin Gənclər Paytaxtı elan olunması ilə bağlı qərarı alqışlayıb.

Azərbaycan Hökumətinin başçısı, həmçinin qeyd edib ki, bu günlərdə Bakıda dayanıqlı inkişaf, urbanizasiya və həyat keyfiyyətinin yüksəldilməsi məsələlərinə həsr olunan ən böyük beynəlxalq platformalardan biri – Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) başa çatır. BMT-nin himayəsi altında keçirilən WUF13-ün dünyanın 182 ölkəsindən 40 mindən çox nümayəndəni bir araya gətirdiyi vurğulanıb.

Baş nazirin sözlərinə görə, 13-cü Sessiya çərçivəsində qlobal mənzil böhranı, şəhərlərin dayanıqlı inkişafı, iqlim davamlılığı və böhrandan sonrakı bərpa məsələləri də daxil olmaqla aktual qlobal çağırışlar müzakirə edilib.

Ə.Əsədov Azərbaycanın MDB ölkələri ilə iqtisadi-ticari əməkdaşlığının inkişafına xüsusi diqqət yetirib. Bildirilib ki, bu sahədə münasibətlər ardıcıl şəkildə möhkəmlənir və müsbət dinamika nümayiş etdirir. Xüsusilə qeyd olunub ki, 2025-ci ildə Azərbaycan ilə MDB-yə üzv dövlətlər arasında ticarət dövriyyəsinin həcmi 10 faizdən çox artıb.

Baş nazir, eyni zamanda, qarşılıqlı ticarətin, investisiya əməkdaşlığının daha da genişləndirilməsi və müxtəlif sahələrdə birgə layihələrin həyata keçirilməsi üçün böyük potensialın mövcud olduğunu da vurğulayıb.

Ə.Əsədov Azərbaycanın sosial-iqtisadi inkişaf prioritetlərindən danışarkən qeyd edib ki, hazırda ölkədə sənaye, kənd təsərrüfatı, nəqliyyat-logistika sahəsi və iqtisadiyyatın yüksək texnologiyalar sektorları ardıcıl şəkildə inkişaf edir.

Yaşıl energetikanın inkişafının prioritet istiqamət olduğu ayrıca vurğulanıb. Baş nazirin sözlərinə görə, ölkədə bərpaolunan enerji mənbələri sahəsində həyata keçirilən irimiqyaslı layihələr təkcə ekoloji dayanıqlığın möhkəmləndirilməsinə deyil, həm də Azərbaycanın investisiya və ixrac potensialının genişlənməsinə xidmət edir.

Ə.Əsədovun sözlərinə görə, Qarabağ bölgəsinin bərpasına xüsusi diqqət yetirilir. Burada yaşıl enerji zonalarının yaradılması, müasir infrastruktur həllərinin, innovativ texnologiyaların, həmçinin "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının tətbiqi ilə keyfiyyətli yeni dayanıqlı inkişaf modeli həyata keçirilir. Baş nazir bildirib ki, artıq bu gün Qarabağ bölgəsi iqtisadi fəallıq, investisiya və dayanıqlı inkişaf üçün mühüm məkana çevrilir.

Çıxış zamanı Azərbaycanın Avropa ilə Asiyanı birləşdirən etibarlı nəqliyyat-logistika qovşağı kimi rolunu ardıcıl şəkildə gücləndirdiyi də qeyd olunub.

Bundan başqa, Ə.Əsədov iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı artımın təmin olunmasına yönəlmiş genişmiqyaslı iqtisadi təşəbbüslərin həyata keçirilməsinin fəallaşdığını qeyd edib. Bununla əlaqədar bildirilib ki, 2025-ci ilin dekabrında texnologiya sektorunun, innovasiyaların və rəqəmsal transformasiyanın sürətlə inkişafını nəzərdə tutan Azərbaycanın 2026-2029-cu illər üzrə Rəqəmsal İqtisadiyyatın İnkişaf Strategiyası təsdiqlənib.

Ə.Əsədov çıxışının yekununda vurğulayıb ki, Azərbaycan Respublikası MDB çərçivəsində daim mehriban qonşuluq, qarşılıqlı hörmət və konstruktiv tərəfdaşlıq prinsiplərinə sadiq qalır.

Daha sonra hökumət başçıları iclası geniş tərkibdə davam etdiriblər. İclasın yekununda bir sıra sənədlər imzalanıb.

# Mediamız WUF13-ün gedişini yüksək peşəkarlıqla işıqlandırdı

## *Hikmət Hacıyev "Xalq qəzeti"nin sualını cavablandırarkən belə dedi*



**Artıq öz işini başa çatdıran BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası – WUF13 hələ də yerli və dünya mediasının gündəmindən düşməyən mövzulardandır. Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Bakı Forumunda yerli media subyektlərinin fəaliyyəti ilə bağlı sualımızı cavablandırdı.**

Forum çərçivəsində həyata keçirilən bütün tədbirlərin, istər çap, istərsə də elektron mediamızın cəmiyyəti operativ və dolğun məlumatlarla təmin edilməsi yönündə fəaliyyətini yüksək qiymətləndirdiyini bildirən H.Hacıyev bu zaman heç bir ayrı-seçkiliyə yol vermədiyini nəzərə çatdırdı: "Azərbaycan mediasının bütün seqmentləri – istər çap mediası, informasiya agentlikləri, radio və televiziya kanalları, istərsə də onlayn media platformaları və bloqerlər hər biri informasiya məkanının formalaşmasında və cəmiyyətin düzgün, operativ məlumatlandırılmasında mühüm rol oynayır. Xüsusilə müasir dövrdə operativlik, obyektivlik və peşəkarlıq media üçün əsas meyarlardır və sevindirici haldır ki, bizim media subyektləri bu istiqamətdə böyük fəallıq nümayiş etdirirlər".

Prezidentin köməkçisi onu da vurğuladı ki, ümumiyyətlə, müasir medianın, demək olar ki, bütün istiqamətləri üzrə çalışan insanların fəaliyyəti həm cəmiyyətin maariflənməsinə, həm də dövlət və ictimai maraqların qorunmasına ciddi töhfə verir: "Çətin və məsuliyyətli fəaliyyət sahəsi olmasına baxmayaraq, media nümayəndələri WUF13 çərçivəsində də öz işlərini böyük əzmkarlıq və peşəkar yanaşma ilə həyata keçirirlər. Bütün bunlara görə media nümayəndələrinin əməyini yüksək qiymətləndirir, hər birinizə təşəkkürümü bildirirəm. Göstərdiyiniz fəaliyyət, cəmiyyət qarşısında daşıdığınız məsuliyyət və peşənizə olan sadiqliyiniz, həqiqətən, təqdirəlayiqdir".

***Nəzrin ELDARQIZI***
***XQ***

# Rəqəmsal və iqlimə dayanıqlı mənzil modelləri müzakirəsi

**BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Gələcək üçün binalar - rəqəmsal innovasiya vasitəsilə iqlim-mənzil əlaqəsinin inkişafı" mövzusunda panel sessiya keçirilib.**

Tədbirdə dayanıqlı şəhər inkişafı, rəqəmsal texnologiyaların şəhərsalma və mənzil sektorunda tətbiqi, "ağıllı şəhər" idarəçiliyi, yaşıl və aşağıkarbonlu binalar, süni intellektəsaslı şəhər həlləri, inklüziv urbanizasiya modelləri və rəqəmsal idarəetmə məsələləri müzakirə olunub.

Sessiyada UN-Habitat-ın Asiya və Sakit okean regionu üzrə regional ofisinin insan məskunlaşmaları üzrə mütəxəssisi Roi Çiti, UN-Habitat-ın Çin Ofisinin baş müşaviri Canq Çjenşan, Tonci Universitetinin vitse-prezidenti Li Syanin və UNITAC-ın rəhbəri, proqram idarəçiliyi üzrə baş mütəxəssis Alina Matta çıxış ediblər.

Tədbir çərçivəsində "ağıllı bina" texnologiyaları, rəqəmsal xəritələşdirmə sistemləri, şəhər məlumat platformaları və insan mərkəzli "Ağıllı şəhər" layihələri təqdim edilib.

***XQ***

# Ümumdünya Şəhərsalma Forumunun 6-cı günündə sessiya və təqdimatlar







**Ümumdünya Şəhərsalma Forumunun son günü müxtəlif mövzuları əhatə edən panel müzakirə, dəyirmi masa və konfranslarla başladı. Burada dayanıqlı, ədalətli, rahat şəhərlərin salınması üçün bir çox maraqlı müzakirələr və fikir mübadilələri aparıldı.**

## “Aborigen xalqlar üçün adekvat mənzil”

Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası çərçivəsində “Aborigen xalqlar üçün adekvat mənzil” mövzusunda dəyirmi masa təşkil olundu. Məclisdə ilk dəfə Aborigen Xalqlar Qrupu yaradıldı.

Yerli və beynəlxalq ekspertlər, şəhərsalma mütəxəssisləri, BMT nümayəndələri və yerli xalqların təmsilçiləri aborigen icmaların mənzil hüquqları ilə bağlı ənənəvi münasibətləri və inklüziv şəhərsalma məsələlərini müzakirə etdilər.

***Florensia Soto Nino-Martinez, Beynəlxalq Təbiəti Mühafizə İttifaqının yerli xalqlar və yerli icmalar üzrə işçi qrupunun həmsədri:***

– Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizaminin birgəyaşayış, sülh, təhlükəsizlik və mənəvi dəyərlərlə bağlı ideyaları müasir dünyanın çağırışları fonunda da əhəmiyyətini saxlayır. XII əsrdə yaşamış Nizami Gəncəvi insanların tarix boyu müxtəlif böhranlarla üzləşdiyini göstərib, eyni zamanda, bu problemlərin həlli yollarının da mövcud olduğunu vurğulayıb. Dahi şairin dünyaca məşhur “Leyli və Məcnun” əsəri Hindistanın Manipur bölgəsində də tanınır. 2026-cı ildə yaşamağımıza baxmayaraq, Nizaminin XII əsrdə irəli sürdüyü fəlsəfə bu gün də aktuallığını qoruyur. Biz bu gün Nizaminin vətənində onun bərabərli çağırışına günümüzün cavabını formalaşdırırıq.

***Omar Siddiqi, BMT-nin Məskunlaşma Proqramının Kanada ofisinin rəhbəri:***

– Aborigen xalqların mənzillə təminat sahəsində üzləşdikləri problemlərin kökündə tarixi ədalətsizliklər, müstəmləkəçilik və torpaqların sistemli şəkildə əllərindən alınması dayanır. Evsizlik, məcburi köçürülmə, torpaqların zəbt olunması və zorla çıxarılma halları dünyanın bir çox ölkəsində aborigen icmalar üçün ciddi problemdir. Odur ki, sessiyada hazırlanacaq tövsiyələr WUF13-ün yekun sənədi olan “Bakı Fəaliyyətə Çağırışı”a (Baku Call to Action) daxil ediləcək və Yeni Şəhər Gündəliyinin icrasına dair gələcək müzakirələrdə nəzərə alınacaq.

***Mariana Posada Lombana, Meksika Xarici İşlər Nazirliyinin QHT-lərlə əlaqə üzrə baş direktoru:***

– Meksika çoxmədəniyyətli ölkədir və burada yerli xalqlar, metislər və digər etnik qruplar birgə yaşayırlar. Yerli xalqlar haqqında vahid və homogen bir qrup kimi danışmaq mümkün deyil. Onlar fərqli etnik mənsubiyyətlərə, dillərə, yaşayış məkanlarına və özünəməxsus adət-ənənələrə malikdirlər. Buna görə də bütün icmalar üçün eyni siyasətin tətbiqi mümkün deyil.

Hər bir etnik qrupun xüsusiyyətləri nəzərə alınmalıdır. Meksikada özünü yerli xalqın nümayəndəsi kimi tanıdan insanların sayı ölkə əhalisinin, təxminən, 15 faizini təşkil edir. Bununla yanaşı, təxminən, 3,1 milyon nəfər özünü afro-meksikalı və ya Afrika mənşəli icmaların nümayəndəsi hesab edir ki, bu da əhalinin 2,4 faizinə bərabərdir.

***Endorois, Yerli Qadınların Gücləndirilməsi Şəbəkəsinin icraçı direktoru:***

– 90 ölkə və ərazidə yaşayan 500 milyon nəfərlik yerli xalq nümayəndəsi fərdi və kollektiv hüquqlarının sistemli şəkildə pozulmasına məruz qalır. Buraya kriminalizasiya, yerli hüquq müdafiəçilərinə qarşı hücumlar və qətllər daxildir. Bu səbəbdən Yerli Xalqlar Qrupu builki foruma dərin narahatlıq və sürətlə dəyişən dünyada həll yolları təqdim etmək əzmi ilə qatılıb.

Hazırda dünyada, təxminən,132 münaqişə 200 milyon insanın məcburi köçkün düşməsinə səbəb olub. Münaqişələrin 80 faizi yerli xalqların yaşadığı biomüxtəliflik baxımından həssas ərazilərdə baş verir. Buna görə də biz sülh quruculuğu və “azad, əvvəlcədən verilmiş və məlumatlı razılıq” prinsipinin hər hansı şəhərsalma planının əsas şərti olmasını təklif edirik.

## “Gender bərabərliyi və qadınların gücləndirilməsi üçün adekvat mənzil təminatı”

***Anaklaudia Rossbax, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru:***

– Dünyada qadınların 60 faizini öz partnyorları qətlə yetirirlər. Bir çox yerlərdə qadınların təhlükəsizliyi, sağlamlığı, haqq və hüquqları nəzərə alınmır.

Mənzil təminatının zəif olması qadınların təhsil haqlarını da əllərindən alır. Onlar torpaq sahibi olmaq haqqından da məhrum olurlar. Bütün bu hüquqsuzluq onları zəif göstərir və başqalarına qadın cinayətləri törətməyə cəsarət verir.

Təhlükəsiz mənzilin olmaması gender əsaslı zorakılığın başlanğıcıdır. Əgər qadınların təhlükəsiz mənzillə təminatı yoxdursa, o ya zorakılıq mühitində qalır, ya da yoxsulluq və evsizlik səbəbindən başqa bir həyatı seçir. Bu, bir daha göstərir ki, mənzil siyasəti təkcə yaşayış sahəsinin təmin olunması deyil, həm də insan təhlükəsizliyi, sosial müdafiə məsələsidir.






Biz bütün qadınların qərarvermə prosesinin iştirakçısı olmalarına çalışırıq. Qadınlar anadır, qadınlar liderdir. Bu yanaşma Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinin 5-ci hədəfi ilə də uyğunluq təşkil edir. Gender bərabərliyinin təmin olunması olduqca vacibdir.

***Bahar Muradova, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri:***

– Ölkəmizdə şəhərlər və yaşayış məskənləri salınarkən təhlükəsizlik məsələləri xüsusilə diqqətdə saxlanılır. Azərbaycan dövləti qadınların şəhərsalma və iqlim məsələlərində iştirakına dəstək verməyə hazırdır. Əlbəttə ki, beynəlxalq əməkdaşlıq da çox önəmlidir. Qadınlar üçün bərabərliyin təmin olunması istiqamətində çoxsaylı layihələr hazırlana bilər. Bu məsələlərdə əməkdaşlığa hazırıq.

***Amina J.Mohammed, Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibinin müavini və BMT-nin Dayanıqlı İnkişaf Qrupunun sədri:***

– WUF13 çərçivəsində qadınların təhlükəsiz mənzillərlə təmin olunması, gender bərabərliyinin nəzərə alınması barədə sənədlərin qəbul olunması planlaşdırılır. Şəhər həyatının formalaşdırmasında böhranlar və qadınlara təsirləri nəzərə alınmalıdır.

Dayanıqlı şəhərlər olmadan qadınların hüquqlarını təmin etmək olmaz. Buna görə də yaşayış yerlərini qadınlar üçün əlçatan etmək lazımdır. Bu mövzu WUF13-də də geniş müzakirə olundu və problemin həlli istiqamətində sənədlərin qəbulu nəzərdə tutulub.

## “Münaqişədən sonra şəhər yenidənqurması: Humanitar mina təmizlənməsinin məskunlaşmada rolu”

***Vüqar Süleymanov, ANAMA İdarə heyətinin sədri:***



– Minatəmizləmə insanların həyatını xilas edən humanitar fəaliyyət, eyni zamanda, bərpa və yenidənqurmanın əsas təməlidir. Evlərin yenidən inşası, infrastrukturun bərpası, kənd təsərrüfatının dirçəldilməsi, nəqliyyat şəbəkələrinin inkişafı və iqtisadi fəaliyyətin canlandırılması üçün zəruri şəraiti formalaşdırır.

“Böyük Qayıdış” proqramı çərçivəsində minatəmizləmə fəaliyyəti şəhərsalma, yenidənqurma və inkişaf proseslərinə tam şəkildə inteqrasiya edilib. 2020-ci ilin noyabr ayından etibarən azad olunmuş ərazilərdə 270 min hektardan çox sahə minalardan təmizlənib. 250 mindən artıq mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

Mina təhlükəsi dünyanın bir sıra ölkələrində bərpa prosesini ləngidir, inkişaf imkanlarını məhdudlaşdırır və əhalini təhlükə altında saxlayır.

Məhz buna görə də bugünkü platforma xüsusi əhəmiyyət daşıyır. Mina probleminin aradan qaldırılması yalnız milli səylərlə məhdudlaşmır, davamlı beynəlxalq dəstək, tərəfdaşlıq, innovativ yanaşmalar və qabaqcıl təcrübələrin paylaşılmasını da zəruri edir.

***Samir Poladov, ANAMA İdarə Heyəti sədrinin müavini:***



– Ölkəmizdə 1991-ci ildən bəri 3 min 500-dən çox insan mina qurbanı olub. Onlardan 362 nəfəri azyaşlı və gənc, 38 nəfəri qadındır. Təkcə 2020-ci ildən bəri mina hadisələrində 73 nəfər ölüb, 352 nəfər xəsarət alıb.

***Ramil Cahangirov, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin azad olunmuş ərazilərdə layihə idarəedilməsi şöbəsinin müdiri:***



– Azad edilmiş ərazilərdə aparılan yenidənqurma prosesi tam şəkildə əvvəldən hazırlanmış planlara uyğun qaydada həyata keçirilir. Bütün infrastruktur və tikintilərin şəhərsalma norma və standartları əsasında aparılması zəruridir.

Lakin hər bir layihənin əsas üstünlüyü təhlükəsizlikdir. Buna görə də sistem elə qurulub ki, ilk növbədə, ərazi təhlükəsiz elan olunsun və yalnız bundan sonra tikinti və digər işlərə başlanılsın. Bu proses olduqca mürəkkəbdir.

Həftə ərzində keçirilən müxtəlif panel və sessiyalarda da vurğulandığı kimi, koordinasiya xüsusilə şəhərsalma və minatəmizləmə fəaliyyətində vacib amillərdəndir. Çünki növbəti mərhələyə keçmək üçün ərazinin tam şəkildə minalardan təmizləndiyinə əmin olmaq lazımdır. Bundan əvvəl isə hansı ərazilərin daha çox, hansılarının isə daha az çirkləndiyini müəyyən etmək üçün davamlı məsləhətləşmələr aparılır.

***Mariyana Kuyundziç, Avropa İttifaqının Azərbaycandakı səfiri:***



– Avropa İttifaqı Azərbaycanda minaların təmizlənməsi sahəsi üzrə bir sıra layihələr həyata keçirir. Mina təhlükəsinə qarşı mübarizədə gender yanaşmasının tətbiqinə də xüsusi önəm verilir və Azərbaycanda ilk qadın minatəmizləmə qrupunun yaradılmasına dəstək göstərib.

Hazırda Sloveniya mənşəli "International Trust Fund for Enhancing Human Security" ilə genişmiqyaslı layihə üzrə danışıqlar davam edir. Bu layihə ANAMA-nın institusional və əməliyyat potensialının gücləndirilməsinə yönəlib.

Layihə çərçivəsində mina aşkarlayan itlərin xüsusi təlimi, vacib əməliyyat avadanlıqlarının təmin edilməsi, mina qurbanlarına yardım, həmçinin xüsusi təyinatlı ambulansların təqdim olunması nəzərdə tutulur. Bu sənədlərin yaxın zamanda imzalanması və icraya başlanması planlaşdırılır.

Aİ minadan çirklənmiş ərazilərin yenidən təhlükəsiz torpaqlara çevrilməsinə hər zaman dəstək göstərir. Heç kim belə yerlərdə addım atarkən qorxu hiss etməməlidir. Mən 2 gün əvvəl Qarabağa səfər etdim və orada müharibənin dəhşətli nəticələrini gördüm. Amma eyni zamanda imkanları, aparılan quruculuq işlərini və həyatın necə geri qayıtdığını da müşahidə etdim.

Məsələn, Xorvatiya minatəmizləmə prosesini yalnız bu il - müharibədən 31 il sonra tamamlaya bildi. Halbuki Azərbaycan əraziləri daha geniş şəkildə mina ilə çirkləndirilib. Bu proses çox uzun və çətin olsa da, mütləq həyata keçirilməlidir. Avropa Birliyi bu istiqamətdə dəstək göstərmək üçün buradadır.

## “Dayanıqlı inkişaf məqsədlərindən mənzillərə”

***Jose Çonq, BMT-nin Məskunlaşma Proqramının nümayəndəsi:***

– Hazırda Yeni Şəhər Gündəliyinin icrasının aralıq qiymətləndirmə mərhələsi həyata keçirilir. Bu, 10 illik beynəlxalq gündəlikdir və onun icrasının orta mərhələsindəyik. Memarlar və şəhərsalma mütəxəssisləri çox vaxt bu gündəlikdəki proseslərdən tam xəbərdar olmurlar. Halbuki şəhərsalma və memarlıq layihələrinin hazırlanması zamanı bu prinsiplər nəzərə alınmalıdır.

Məskunlaşma Proqramının 2026-2029-cu illəri əhatə edən yeni strateji planında əsas diqqət mənzil, torpaq və baza xidmətlərinə yönəldiləcək. Bu plan inklüziv rifahın artırılması, ekoloji və iqlim tədbirlərinin gücləndirilməsi, həmçinin böhranlara hazırlıq, cavabvermə və bərpa proseslərini dəstəkləməyə xidmət edir.

Hazırda dünyada şəhər inkişafına yanaşmada parçalanmış modellər üstünlük təşkil edir. Bu problem yalnız qlobal cənub ölkələrində deyil, digər regionlarda da müşahidə olunur. Biz daha dayanıqlı, inteqrasiya olunmuş şəhər və ərazi planlaşdırılmasını təşviq edirik.

Yerli hökumətlərin mənzil və baza xidmətlərini planlaşdırmaq, maliyyələşdirmək və həyata keçirmək üçün daha effektiv alətlərə malik olması vacibdir.

***Elisabet Cirici Amiell, İspaniyanın Kataloniya Hökumətinin ərazi, mənzil və ekoloji keçid departamentində şəhərsalma və memarlıq üzrə baş direktoru:***

– Əsas məqsədimiz yalnız şəhər gündəliyinin qəbul edilməsi deyil, həm də icranı təmin etməkdir. Hazırda bu istiqamətdə irəliləyirik. Gələn həftə hökumət səviyyəsində şəhər gündəliyi ilə bağlı fəaliyyətlərimizi gücləndirəcək yeni təsdiqin alınması planlaşdırılır. Torpaq və mənzil inkişafı ilə bağlı bütün layihələrin vahid strateji çərçivə altında həyata keçirilməsi əsas prioritetlərdəndir. Bu, həyata keçirdiyimiz bütün layihələrin eyni yanaşma və prinsiplər əsasında inkişaf etdirilməsinə imkan verəcək.

Şəhərlərlə bağlı ibtidai və orta təhsil səviyyəsində həyata keçirilən təşəbbüslərdə bu alətlərdən istifadə Dayanıqlı İnkişaf Məqsədlərinin və prinsiplərinin daha praktik izahına imkan yarada bilər.

Beynəlxalq Memarlar İttifaqının hazırladığı model peşəkarlar arasında ortaq yanaşmanın formalaşdırılmasına və layihələrin daha dayanıqlı hazırlanmasına kömək edir. Bu, kommunikasiya və təşviqat baxımından çox faydalıdır. Eyni zamanda, layihələrin hazırlanması prosesində onların keyfiyyətinin yaxşılaşdırılmasına imkan yaradır. İstifadəçilər alətlə interaktiv formada işləyərək müxtəlif parametrləri dəyişə və layihələrin nəticələrini qiymətləndirə bilirlər.

Layihələrin hazırlanması zamanı müəyyən kompromislər olur. Lakin bu model həmin prosesdə qərarların daha balanslı verilməsinə kömək edir.

***Rui Leao, Portuqaldilli Ölkələrin Beynəlxalq Memarlar Şurasının prezidenti, memarlıq üzrə fəlsəfə doktoru:***

– Beynəlxalq Memarlar İttifaqının hazırladığı və Bakıda təqdim olunan yanaşmalar İspaniyanın Barselona şəhərində keçiriləcək Memarların Dünya Konqresində nümayiş etdiriləcək. Həmin yanaşmalar Dayanıqlı İnkişaf Məqsədlərinin şəhərsalma və memarlıq layihələrində daha səmərəli tətbiqinə xidmət edir.

Konqres 28 iyun–1 iyulda olacaq. Məclisdə keçid dövründə olan dünyanın əsas urbanizasiya çağırışları müzakirə olunacaq.

***Vity Nsalambi, Anqola Memarlar Ordeninin prezidenti:***

– Dünyada ən sürətlə böyüyən 10 şəhərdən, ən azı, 4-5-i Afrikadadır. Lakin gözəl görüntülərin arxasında böyük problemlər dayanır. Luandada qeyri-rəsmi yaşayış məntəqələri şəhər ərazilərinin, təxminən, 70-75 faizini təşkil edir. Bu vəziyyət infrastrukturun idarə olunmasına, mənzil təminatına və şəhər sakinlərinin həyat keyfiyyətinə ciddi təzyiq göstərir.

Bir çox hallarda problemlərə "yuxarıdan aşağı" baxılır, idxal olunan və yüksək karbon emissiyası yaradan texnologiya tətbiq edilir. İnsanları dinləməli, onların ehtiyaclarını anlamalı və qərarvermə prosesinə cəlb etməliyik. Heç kəs bütün cəmiyyət adından düşünə bilməz.

Təbiət əsaslı çıxış yolları və yerli materiallardan istifadə etmək şəhərlərin inkişafında mühüm rol oynaya bilər. Lakin bəzi icmalar yerli həllərdən daha çox xarici modellərə üstünlük verir. Memarlar və şəhərsalma üzrə mütəxəssislər insanların yerli və dayanıqlı materialların əsl dəyərini anlaması üçün maarifləndirmə istiqamətində çalışmalıdırlar.

Bir çox Afrika şəhərində idarəetmə strukturları yetərincə formalaşmayıb və icmaların potensialının artırılmasına ehtiyac var. İştirakçı planlaşdırma modeli tətbiq olunarsa, kiçikmiqyaslı təşəbbüslər böyük nəticələr verə bilər.

***Hazırladılar:***
***Ləman TƏHMƏZ,***
***Fidan ƏLİYEVA***
***XQ***

# Ümumdünya Şəhərsalma Forumunun bağlanış mərasimi

**Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) rəsmi bağlanış mərasimi keçirilib.**

Əvvəlcə WUF13-ün bağlanışına həsr olunan videoçarx nümayiş etdirilib və mədəni proqram təqdim olunub.

Tədbirdə çıxış edən Birləşmiş Millətlər Təşkilatının Baş katibinin müavini Amina Mohammed Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) ev sahibliyində göstərdikləri qonaqpərvərliyə və liderliyə görə Azərbaycan Hökumətinə, xalqına ən dərin minnətdarlığını bildirərək deyib: "Azərbaycan 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan edərək, yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaları inkişaf etdirərək, həmçinin çoxəsrlik ənənələrə hörmətlə yanaşaraq, urbanizmi qlobal müstəviyə qaldırıb".

WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev WUF13-ün təcrübəsini WUF14-ə hazırlıq prosesində bölüşməyə hazır olduqlarını qeyd edib. "WUF14-ə gedən yolda şəhərsalma gündəliyini irəli aparmaq və mənzil problemlərini işıqlandırmaq üçün əlimizdə daha bir mühüm platforma olacaq. Bu da Türkiyədə keçiriləcək olan COP31-dir", - deyə milli koordinator əlavə edib.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax WUF13-ün rekord sayda iştirakçını bir araya gətirdiyini və güclü, vahid bir mesaj verdiyini qeyd edib. "Biz mənzil təminatının gələcəyi üçün həlledici bir məqamdayıq. Artıq hərəkət vaxtıdır. Dünya cüzi tərəqqidən sistemli transformasiyaya doğru addımlamalıdır.

Bakıda verilən mesaj aydındır. Növbəti onillik sürətləndirilmiş icra, genişmiqyaslı fəaliyyət və insanların həyatında ölçülə bilən müsbət təsirlərlə xarakterizə olunmalıdır", - deyə A.Rossbax vurğulayıb.





Qambiyanın Banjul şəhərinin meri və "REFELA" Afrika şirkətinin prezidenti Rohey Malick Lowe deyib: "Bakıdan açıq şəkildə bəyan edirik ki, mənzil təminatı insan hüququdur. Bu, demokratik bir vəzifədir. Universal, əlçatan və ədalətli ictimai xidmətlər olmadan ləyaqətli mənzil şəraiti mövcud ola bilməz. Yerli və regional hakimiyyətlərin hər gün daşıdıqları nəhəng məsuliyyətə uyğun gücə, maliyyəyə və siyasi tanınmaya ehtiyacı var".

Argentinanın Kordoba Milli Universitetinin professoru, Latın Amerikası Qadınlar və Mənzil Şəbəkəsinin həmtəsisçisi Ana Falu qadınların siyasət subyekti kimi nəzərə alınmamasının bərabərsizliyi daha da pisləşdirdiyini qeyd edərək deyib: "Bu, xüsusilə qadınlara və onlardan asılı olanların həyatına təsir edən gərginliklər və ziddiyyətlər dünyasıdır. Buna görə də bu siyasəti təşviq etmək, dünyanın genişlənməsini nəzərə alaraq hərtərəfli bir sistem qurmaq lazımdır".

UN-Habitat Gənclər Məsləhət Şurasının üzvü Jonathan Oriki Some bildirib ki, "Bakı Fəaliyyətə Çağırış" sənədi ehtiyac duyduğumuz transformativ dəyişikliyə yol göstərə biləcək praktik, əlçatan və aydın bir yol xəritəsi təqdim edir. Bu, bizə xatırladır ki, fəaliyyətsiz baxışlar nə ev, nə şəhər, nə də gələcək qura bilər.

"LUMANTI" Sığınacaq Dəstək Qrupunun və Asiya Mənzil Hüquqları Koalisiyasının icraçı direktoru Lajana Manandhar Azərbaycan Hökumətinə və xalqına göstərdiyi sevgi, qayğı və çox səmimi qonaqpərvərliyə görə təşəkkür edərək WUF13 çərçivəsində dünyanın gözəl şəhərlərindən biri olan Bakıda dünyanı təhlükəsiz və dözümlü şəhərlər, icmalarla təmin etmək mövzusunun müzakirə edildiyini vurğulayıb.

ADA Universitetinin dosenti Anar Vəliyev mənzil təminatı ilə bağlı qlobal çağırışın miqyasının qətiyyətli, birgə və təxirəsalınmaz cavab tədbirləri tələb etdiyini deyib. O, bu fəaliyyətə çağırışın mərkəzində mənzil təminatının yenidən prioritetləşdirilməsinin dayandığını qeyd edib.

Mexiko şəhərinin beynəlxalq əlaqələr üzrə baş koordinatoru Maria del Rosario Lombera Gonzalez şəhər hökuməti və Meksika nümayəndə heyəti adından, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasını təşkil etdiklərinə görə Azərbaycan xalqına və hökumətinə ən səmimi təbriklərini çatdıraraq, Bakının qonaqları böyük səxavət, istilik, əzəmət və heyranedici qətiyyətlə qarşıladığını bildirib.

Göstərilən səylərin xüsusi təşəkkürə layiq olduğunu vurğulayan baş koordinator bu işin asan olmadığını, lakin Azərbaycan Hökumətinin buna baxmayaraq, onu nümunəvi şəkildə həyata keçirdiyini qeyd edib.

Daha sonra Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun növbəti Sessiyasına sədrlik Azərbaycandan Meksikaya təhvil verilib.

Sonda BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasını bağlı elan edib.

# Polşalı qonaqlar Lənkəranda



**BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak edən Polşa Respublikasının Lublin şəhər meriyasının strategiya və investorlarla əlaqələr departamentinin direktoru Maius Şaqan, Uniyov şəhərinin təmsilçiləri Damian Kaczmarek, İreneuz Szczesin və Polşa–Azərbaycan Assosiasiyasının nümayəndəsi Aleksandra Tomaşevska Lənkəranda olublar.**

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov qonaqları qəbul edərək ölkələrimiz arasında dostluq, əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu bildirib. Lənkəranın tarixi, coğrafi mövqeyi, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı barədə polşalı qonaqlara ətraflı məlumat verib.

Görüşdə Lənkəran ilə Lublin şəhərləri arasında qardaşlaşma əlaqələrinin təsis edilməsi haqqında məsələ müzakirə olunub. Lublin şəhər meriyasının strategiya və investorlarla əlaqələr departamentinin direktoru Maius Şaqan bildirib ki, Lublin və Lənkəran arasında kənd təsərrüfatı, təhsil, turizm sahəsində qarşılıqlı əlaqələrin qurulmasında maraqlıdırlar. Bu sahədə əməkdaşlığın qurulması, əlaqələrin inkişaf etdirilməsi olduqca əhəmiyyətlidir.

Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürlərini bildirən qonaqlar Prezident İlham Əliyevin müdrikliklə həyata keçirdiyi uğurlu daxili və xarici siyasəti yüksək dəyərləndiriblər, həmçinin ölkələrimiz arasındakı dostluq, mədəni əlaqələrin qarşılıqlı şəhərlər səviyyəsində qurulmasına önəm verdiklərini vurğulayıblar.

Görüşdə qarşılıqlı maraq doğuran suallar cavablandırılıb. Səfər çərçivəsində qonaqlar Lənkəran rayonunun gəzməli, görməli yerləri, zəngin təbiəti, tarixi abidələri ilə tanış olublar.

Qeyd edək ki, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov forumun "UNESCO-nun Yaradıcı şəhərləri və dayanıqlı şəhərsalma" adlı panel sessiyasında iştirak edib. Panel sessiyada şəhər mühitində mədəni və yaradıcı sənayelərin rolu, urban transformasiya prosesləri, sosial inklüzivlik və mədəni irsin müasir şəhərlərin inkişafına verdiyi töhfələr müzakirə olunub. Yaradıcı şəhərlər şəbəkəsinə daxil olan Lənkəran şəhərinin qastronomiya tematikası barədə filmin təqdimatını iştirakçılar maraqla qarşılayıblar.

*Əlisəfa HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

# WUF13 də COP29 kimi ölkəmizi möhtəşəmlik zirvəsinə yüksəltdi

**Müasir dünyada dövlətlərin beynəlxalq nüfuzu yalnız iqtisadi güc və siyasi imkanlarla müəyyən olunmur. Qlobal proseslərdə fəal iştirak, beynəlxalq əməkdaşlığa töhfə vermək, nüfuzlu tədbirlərə ev sahibliyi etmək və dünyada etibarlı tərəfdaş kimi qəbul olunmaq da dövlətlərin güc göstəricilərindən hesab edilir. Azərbaycan son illər mühüm uğurlara imza ataraq beynəlxalq arenada öz mövqeyini daha da möhkəmləndirib. Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası – WUF13 bunun növbəti parlaq nümunəsidir.**




WUF13 kimi mötəbər mərasimin Azərbaycanda keçirilməsi ölkəmizin dünya miqyasında artan nüfuzunun, sabitlik və inkişaf modelinin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyinin bariz göstəricisidir. Dünyanın müxtəlif ölkələrindən dövlət nümayəndələrinin, beynəlxalq təşkilatların, şəhərsalma və urbanizasiya üzrə mütəxəssislərin Bakıya toplaşması Azərbaycanın artıq regional çərçivələri aşaraq qlobal əməkdaşlıq və dialoq məkanına çevrildiyini təsdiqləyir.

Bu uğurların əsasında isə Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və uzaqgörən siyasəti dayanır.

WUF13-ün açılış mərasimindəki çıxışında dövlət başçımız demişdir: "Biz yəqin ki, qeydiyyatdan keçmiş iştirakçıların rekord sayına nail olduq".

Son illər uğurla ev sahibliyi etdiyi humanitar forumlar, beynəlxalq idman yarışları, enerji və nəqliyyat layihələri, mədəniyyətlərarası dialoq platformaları Azərbaycanın dünya birliyindəki rolunu daha da artırmışdır. WUF13 isə bu uğurlu siyasətin davamı olmaqla Azərbaycanın dayanıqlı inkişaf və müasir şəhərsalma sahəsində də beynəlxalq gündəliyə töhfə vermək imkanlarını nümayiş etdirir.

Bakının sürətlə yenilənməsi, müasir infrastruktur layihələrinin həyata keçirilməsi, ekoloji yanaşmaların tətbiqi və şəhərsalma sahəsində aparılan islahatlar paytaxtımızı regionun ən müasir şəhərlərindən birinə çevirmişdir. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları Azərbaycanın gələcəyə hesablanmış inkişaf strategiyasının mühüm göstəricisidir. Bu layihələr dünya miqyasında da maraqla izlənilir və beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirilir.

WUF13 yalnız şəhərsalma forumu deyil, eyni zamanda Azərbaycanın beynəlxalq nüfuzunun, diplomatik uğurlarının və müasir inkişaf modelinin dünyaya təqdimatıdır.

Bu gün Bakı yalnız Azərbaycanın paytaxtı deyil, həm də beynəlxalq əməkdaşlığın, sivilizasiyalararası dialoqun və qlobal inkişaf ideyalarının müzakirə olunduğu mühüm mərkəzlərdən biridir. WUF13 isə Azərbaycanın müstəqillik yolu ilə qazandığı uğurların, beynəlxalq etimadın və güclü dövlətçilik ənənələrinin növbəti təntənəsi kimi tarixə düşür.

*Ələkbər HƏSƏNOV,*
*BDU-nun humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi*

# Bakıda milli geyimlər paradı

**BMT-nin Şəhərsalma Forumunda müxtəlif ölkələrdən gələn iştirakçılar milli geyimləri ilə həm mədəniyyətlərini nümayiş etdirir, həm də foruma əlavə multikultural ahəng gətirdilər.**

***Mələk Əlizadə, Azərbaycan:***



– Forum çərçivəsində nümayiş olunan milli geyimlər arasında al-əlvan rənglərlə bəzədilmiş, incə naxışlarla işlənmiş geyimlərimiz forum iştirakçılarının marağına səbəb oldu. Xarici qonaqlar geyimlərimizin fərqliliyini, rəng harmoniyasını və qədim ənənələri özündə əks etdirməsini böyük maraqla izlədilər.

Xüsusilə, uzun hörüklərimiz və milli bər-bəzəklər diqqəti daha çox cəlb etdi. Bir çox xarici iştirakçı bunun çox zərif və yaraşıqlı olduğunu dedi, bizimlə şəkillər çəkdirdi, milli geyimlərimiz haqqında suallar verdi. Bu maraq isə bir daha göstərir ki, Azərbaycan mədəniyyəti və milli irsi dünyanın müxtəlif xalqları tərəfindən rəğbətlə qarşılanır.

Belə beynəlxalq tədbirlərdə milli dəyərlərimizi nümayiş etdirmək, mədəniyyətimizi tanıtmaq və insanların marağını görmək isə bizim üçün olduqca qürurverici hiss idi.

***Jacop Engiose, Kamerun:***



– Üzərimdəki geyim Bamenda otlaqlarında yaşayan xalqın ənənəvi libasıdır və bu, ölkənin əsas mədəni nişanələrindən biri hesab olunur. Dünyanın harasında olursa olsun, insanlar bu geyimi görəndə onun Kamerundan gəldiyini anlayırlar. Bu isə milli geyimin ölkənin kimliyini və mədəniyyətini necə güclü şəkildə ifadə etdiyini göstərir.

Geyimin üzərindəki naxışlar, rəng harmoniyası və xüsusilə papaq tamamilə əl işidir. Hər bir detalı xüsusi zəhmətlə hazırlanan mədəniyyət nümunəsidir. İnsanlar gündəlik həyatda və beynəlxalq tədbirlərdə bu geyimlərdən istifadə etməklə həm öz köklərinə bağlı olduqlarını bildirir, həm də milli mədəniyyətlərini dünyaya tanıdırlar. Bu baxımdan, milli geyimlər keçmişlə bu günü birləşdirən mühüm mədəni körpü rolunu oynayır.

***Danae Cihangie, Pakistan:***



– İnsanlar milli geyimlərini gündəlik şəkildə istifadə etməklə öz mədəniyyətlərini yaşadır və onu gələcək nəsillərə ötürməyə çalışırlar.

Pakistanda istər rəsmi tədbirlərdə, istər küçələrdə, istərsə də adi məkanlarda milli libaslarla qarşılaşmaq tamamilə normal haldır. Bu isə ölkədə milli kimliyə və ənənələrə olan bağlılığın göstəricisi sayılır. Milli geyimlər insanlara öz köklərini unutdurmur və cəmiyyətin mədəni yaddaşını qoruyub saxlayır.

Bundan əlavə, Azərbaycanın milli geyimlərinə də böyük maraq göstərirəm. Azərbaycan geyimlərinin rəngarəngliyi, naxışları və estetik görünüşü xüsusilə cəlbedicidir, bu geyimləri də böyük qürurla üzərimdə daşıya bilərəm. Milli geyimlər xalqları bir-birinə daha da yaxınlaşdırır və mədəniyyətlər arasında qarşılıqlı hörmətin formalaşmasına töhfə verir.

*Ləman TƏHMƏZ,*
*Rauf İBRAHİMLİ (foto)*
*XQ*

# Şəhərsalmada strateji ekoloji yanaşma

**Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının (BMT) Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) birgə təşkilatçılığı ilə "Strateji ekoloji qiymətləndirmə şəhərsalma planlaşdırmasında iqlim hədəflərinə nail olmaq üçün vasitə kimi" mövzusunda tədbir keçirilib.**



Tədbirdə ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibinin müavini Dmitri Mariyasin, iqtisadiyyat nazirinin müşaviri Hüseyn Hüseynov, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Maimuna Mohd Şərif, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Qlobal Həllər Bölməsinin direktoru Rafael Tuts çıxış ediblər.

Panel müzakirələrində Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Türkiyə Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyi, Sloveniya Ətraf Mühit, İqlim və Enerji Nazirliyi, Niderland Ekoloji Qiymətləndirmə Komissiyasının (hibrid) nümayəndələri və ETSN yanında İctimai Şuranın üzvləri iştirak ediblər.

*XQ*

# 103 ölkədən 569 QHT-nin Bakı Bəyannaməsi

**"Global South NGO Platform"un təşəbbüsü və təşkilatçılığı ilə WUF13-lə bağlı "Bakı Bəyannaməsi" hazırlanıb. Sənəd WUF13-də iştirak edən xarici QHT təmsilçilərinə imza üçün açıq olub. "Bakı Bəyannaməsi"ni 103 ölkədən 569 QHT təmsilçisi imzalayıb.**



Sənəddə deyilir:

"Biz - WUF13 çərçivəsində Bakıda toplaşan vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri olaraq aşağıdakıları bəyan edirik:

– Azərbaycanı WUF13-ün uğurlu təşkilinə, beynəlxalq şəhər dialoquna və əməkdaşlığa verdiyi mühüm töhfə münasibətilə təbrik edirik. Forumun tarixində ilk dəfə keçirilən Liderlər Sammiti şəhər inkişafını yeni siyasi müstəviyə qaldıraraq beynəlxalq gündəliyin prioritetləri sırasına daxil etdi;

– dünyanın müxtəlif yerlərində urbisid, kultursid və ekosidin təzahür etdiyi bir dövrdə Azərbaycanın postmünaqişə dövründəki bərpa və yenidənqurma təcrübəsi beynəlxalq ictimaiyyət üçün vacib metodoloji nümunədir. Bu xüsusda biz "Azərbaycan təcrübəsi"nin dünyanın postmünaqişə bölgələrinin yenidən qurulmasında beynəlxalq etalon və bu sahədə forumlarda əsas istinad kimi qəbul olunmasını təklif edirik;

– WUF tarixində ilk dəfə Bakıda keçirilmiş QHT Forumu WUF prosesində vətəndaş cəmiyyətinin iştirakı üçün yeni bir mərhələdir;

– müxtəlif ölkələrdən 1000-dən çox QHT-ni özündə birləşdirən Qlobal Cənub QHT Platformasının (GSNP-nin) ilk Baş Assambleyasının çağırılması və rəhbərliyinin formalaşdırılması qlobal vətəndaş cəmiyyətinin institusional cəmləşməsində tarixi mərhələdir. GSNP şəbəkəsi vasitəsilə qəbul edilən bu Bəyannamə əlçatan mənzil imkanlarını və inklüziv şəhər inkişafını dəstəkləmək naminə qlobal həmrəylik aktı kimi çıxış edir. Biz "UN Habitat"ı bu təşəbbüsü dəstəkləməyə davam etməyə, GSNP-ni WUF-un rəsmi vətəndaş cəmiyyəti tərəfdaşı kimi tanımağa və bu modeli gələcək forumların daimi komponenti etməyə çağırırıq. Uğurlu şəhər inkişafı təcrübələrini sistemləşdirmək və bölüşmək üçün Qlobal Cənub Şəhərləri üzrə Bilik Mərkəzinin yaradılmasını təklif edirik;

– Bakıdan bütün beynəlxalq tərəfdaşlara üz tutaraq onları insan mərkəzli şəhər siyasətlərini dəstəkləməyə və şəhər dayanıqlığı, davamlı inkişaf və inklüziv cəmiyyətlər naminə daha əlaqələndirilmiş qlobal fəaliyyət göstərməyə çağırırıq;

– Qarşıdakı WUF sessiyalarının WUF13 təcrübəsinə əsaslanan birgə əməliyyat qaydalarının hazırlanması ilə bağlı Niyyət Məktubundan irəli gələrək, "Bakı Standartı"na uyğun təşkil olunmasını təşviq edirik".

**22 may 2026-cı il, Bakı, Azərbaycan.**

Qeyd edək ki, "Bakı Bəyannaməsi" "Global South NGO Platform"un (GSNP) tərəfdaşlığı və Azərbaycanın QHT Agentliyinin təşkilatçılığı ilə cari il mayın 19-da WUF tarixində ilk dəfə keçirilmiş "WUF13 NGO Forum"dan üç gün sonra qəbul edilib. 800-ə yaxın xarici və yerli QHT təmsilçilərinin iştirakı ilə baş tutmuş "WUF13 NGO Forum"dakı müzakirələrdə WUF13-də təmsil olunan yerli və xarici QHT-lərin GSNP-nin Urban qanadını formalaşdırması təklif olunub. "WUF13 NGO Forum"un açılış mərasimində BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax bəyan edib ki, bu forum WUF üçün tarixi hadisədir. BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin direktoru Dima Al-Katib "Global South NGO Platform"u fantastik layihə adlandırıb və bu platformanın Bakıda təsis olunmasına görə Azərbaycanı təbrik edib. "UN-Habitat"ın İdarə Heyətinin sabiq katibi Kristian Mensah GSNP-ni WUF13-də yerli və xarici QHT-lər üçün vətəndaş cəmiyyəti habı yaratması münasibətilə təbrik edib. O bildirib ki, hazırkı mürəkkəb beynəlxalq şəraitdə "Bandunq prinsipləri" yenidən aktuallıq qazanır və bu tədbir həmin prinsiplərin əməkdaşlıq və çoxtərəfli tərəfdaşlıq müstəvisində tətbiqinin real təzahürüdür.

# Böhran və münaqişə şəraitində mənzil hüquqları və yenidənqurma çağırışları

**WUF13 çərçivəsində keçirilən "Yenidənqurma kontekstində mənzil hüquqları – humanitar yardım və bərpa arasında körpü" adlı sessiyada böhran və münaqişə şəraitində mənzil hüquqları, köçkünlük, şəhər toxumasının dəyişməsi və yenidənqurma prosesləri ilə bağlı aktual məsələlər müzakirə edilib.**

Sessiyada çıxış edən Norveç Qaçqınlar Şurasının (NRC) Qlobal Sığınacaq və Məskunlaşma üzrə müşaviri Lana Barreto bildirib ki, qeyri-rəsmi məskunlaşmalar və şəhər toxumasının deformasiyası şəhərlərin strukturuna təsir göstərir və bu səbəbdən mənzil məsələsinə təkbaşına yanaşma deyil, mənzil, torpaq və mülkiyyət (HLP) hüquqlarını əhatə edən inteqrasiya olunmuş yanaşma zəruri hesab edilir.

"Habitat for Humanity International" təşkilatının Mənzil, Fəlakətlərə Dayanıqlılıq və Bərpa üzrə Sahə Əməliyyatları direktoru Mario Flores isə qeyd edib ki, böhran və fəlakətlər zamanı mənzil sahəsində təmin edilən təhlükəsizlik mexanizmləri ailələrin yenidənqurma mərhələsində təkrar köçürülməsinin qarşısını almaqda mühüm rol oynayır. Onun sözlərinə görə, "geri qayıdış hüququ"nun tanınması və təhlükəsiz məskunlaşmanın qorunması vacibdir.

Sessiyada çıxış edən London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin (LSE) Coğrafiya və Ətraf Mühit üzrə elmi əməkdaşı Deen Sharp münaqişə zonalarında dağıntıların miqyasının görünməmiş səviyyəyə çatdığını bildirib. O qeyd edib ki, dağıntıların təmizlənməsi uzunmüddətli prosesdir və bu, yenidənqurma fəaliyyətlərini ciddi şəkildə ləngidir.

Sonda vurğulanıb ki, yenidənqurma prosesləri humanitar yardım, inkişaf və şəhərsalma yanaşmalarının inteqrasiyasını tələb edir və dayanıqlı bərpa üçün hüquqlara əsaslanan yanaşma mühüm əhəmiyyət daşıyır.

***XQ***

# Seçki, yoxsa söyüş kampaniyası?

## *Ermənistanda artan gərginliyin rəzaləti*

**Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca, siyasi həyatda gərginlik artır. İlk baxışdan elə təsəvvür yaranır ki, Baş nazir Nikol Paşinyan və ətrafı seçkiqabağı kampaniyanı açıq siyasi intiqam predmetinə çevirməkdədir. Məsələ ondadır ki, ölkənin Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları "Hayastan" blokundan deputatlığa namizədlərin mənzillərinə və ofislərinə basqın edirlər.**

Deməli, Nikolun iki gün əvvəlki anonsu, belə demək mümkünsə, əməli iş müstəvisinə keçib. Yada salaq ki, Baş nazirin həmin həbs anonsundan sonra deputatlığa namizəd, müxalif Andranik Tevanyana qarşı ittiham irəli sürülüb və bu gün maskalılar artıq onun kabinetində axtarış aparıblar. Onlar, həmçinin "Hayastan" blokundan deputatlığa namizəd Martun Qriqoryanın evinə də daxil olublar.




Ümumən, müxalifət nümayəndələri bildirirlər ki, təmsil olunduqları cinahın bir neçə gün əvvəl Gümrüdə keçirdikləri izdihamlı mitinqlərdən sonra hakimiyyət siyasi sarsıntı vəziyyətinə düşüb. Onların fikrincə, bunun ən yaxşı sübutu Paşinyanın davranışıdır və Baş nazir səhər tezdən yarıyuxulu vəziyyətdə mətbuat konfransı keçirərək narahatedici bəyanatlar səsləndirib. Müxalif düşərgənin nümayəndələri onu da vurğulayırlar ki, Nikolun yalnız əsassız ittihamlar və şəxsi təhqirlərlə müşayiət olunan qeyri-taraz davranışı hakimiyyətin panik duruma düşdüyünün göstəricisidir.

Azərbaycanda bir misal var: imam üçün ağlayanda yezid üçün də ağlamaq lazımdır. Amma məsələyə sırf mövcud kontekstdən yanaşmırıq. Çünki indiki durumda yezidlər Ermənistandakı müxalifət nümayəndələridir. Yəni Paşinyan üçün obrazlı desək, ağlamaq lazımdır. Baş nazir və komandası, sanki, sərsəmlər və ağıldankəmlər əhatəsindədir. Əlbəttə, Ermənistandakı müxalif cəbhənin dəlilərdən ibarət olduğunu demirik. Onlar daha çox xəstədirlər. O xəstələr ki, mərəzlərinin ən böyük mənbəyi Qarabağ avantürasıdır. Ermənistanda indiyədək Qarabağ ritorikası olmayan seçki keçirilməyib və bu baxımdan qarşıdan gələn parlament seçkilərinin də istisnaya çevrilməyəcəyi indidən aydındır. Aydın olan bir məqam da var: Ermənistanda ilk dəfə bir siyasi qurum seçkiyə Qarabağ avantürasını bayrağa çevirmədən gedir ki, bu da Paşinyanın rəhbərlik etdiyi "Mülki müqavilə"dir.

Bəli, Nikol və komandası avantüradan uzaq olduqları üçün tənələrlə üzləşirlər. Yeri gəlmişkən, təhqir və aşağılamaq dilini işə salan da məhz haqqında söz açdığımız "xəstələr" olub. Yəni Paşinyanın müxalif cəbhənin təmsilçilərini, eləcə də ölkəsinin eks rəhbərlərini aşağılayıcı ifadələrə "qonaq etməsi" yalnız cavab xarakteri daşıyır. Məsələn, müxalifət kimisə öyrədib "Mülki müqavilə"nin seçki kampaniyası çərçivəsində keçirdiyi aksiyalara göndərir və təxribat yaradır. Bunu hakim komanda üzvləri yaxşı bilirlər. Paşinyan da bilir, ancaq bəzən hislərinə hakim kəsilməkdə çətinlik çəkir və sərt ifadələri işə salmaqla dillənir: "Ay fərarilər, sizin ümumiyyətlə burada nə işiniz var, burada nə edirsiniz? Bunlar kimdir axı, gəlib mənə barmaq silkələyirlər? Qarabağın qondarma elitası, hamınız buradan rədd olun".

Yaxud "Koçaryan, Sarkisyan, Karapetyan və Sarukyanın rəhbərlik etdiyi qondarma Qarabağ elitasına deyirəm: kökünüzü kəsəcəyəm. Alçaqlar, niyə yaşayırsınız? Hələ də yaşadığınızın səbəbini açıqlayın. Hələ üstümə gəlib 5 min qurbandan danışırsınız. O 5 min qurban niyə oldu? Siz niyə onların içində deyilsiniz?"

Hələ Paşinyanın dilindən çıxan bu fikir də var: "Talançı heyvanlar. Siz Qarabağ ermənilərini də girov götürmüşdünüz! Bəli, girov götürmüşdünüz! İndi gəlib Qarabağ məsələsini qaldırırsınız. Əgər belə Qarabağ istəyirdinizsə, gedib ölərdiniz də. Niyə yaşayırsınız? Bax, siz, sən niyə yaşayırsan? İndi də gəlib mənimlə beş min nəfər qurban barədə danışırsan! Ay alçaq, niyə yaşayırsan? Bəs Şahramanyan niyə yaşayır? Hələ o biriləri demirəm. İndi sizin "parlament"də "deputat" hesab olanlar nə üçün yaşayırlar? Niyə ölməyiblər? İndi gəlib deyirlər ki, 5 min qurban gedib. Bəs siz niyə ölmədiniz? Sizi kim qoruyub-saxlayır, ay şərəfsizlər?".

Heç şübhəsiz, qarşıdakı günlərdə Ermənistanda gərginliyin indikindən qat-qat çox olacağını söyləmək mümkündür. Hətta toqquşmaların və qanlı qarşıdurmaların baş verəcəyini də istisna etmək olmaz. Kənardan isə son dərəcə rəzil və miskin durum müşahidə edilməkdədir ki, bu, Ermənistan adına böyük qəbahətdir. Əlbəttə, ölkədə bunu düşünmək və adekvat davranmaq mədəniyyəti olmadığından, rəzilliyin və miskinliyin fərqinə varan da yoxdur.

***R.ƏVƏZ***
***XQ***

# 2024-cü il mayın 24-də Qazaxın 4 kəndi Azərbaycana qaytarıldı

## *Daha 4 ərazinin taleyi isə...*

**Bu məsələ Ermənistanda parlament seçkilərinin nəticəsi və sülh sazişinin imzalanmasından birbaşa asılıdır.**

Ermənistan Baş naziri Nikol Paşinyan bir müddət öncə jurnalistlərə açıqlamasında ölkəsi ilə Azərbaycan arasında şimaldan cənuba doğru delimitasiyanın davam etdirilməsi ilə bağlı razılaşmanın mövcud olduğunu bildirmişdi. Qeyd etmişdi ki, delimitasiya prosesinin aparılması üçün hüquqi əsaslar formalaşıb: "2024-cü ilin avqustunda imzalanmış və oktyabrda ratifikasiya edilmiş delimitasiya komissiyalarının birgə fəaliyyəti haqqında əsasnaməyə uyğun olaraq, Alma-Ata Bəyannaməsi iki ölkə arasında delimitasiyanın əsas prinsipi kimi qəbul edilib. Bu o deməkdir ki, Ermənistan və Azərbaycan Sovet Ermənistanı ilə Sovet Azərbaycanı arasında mövcud olmuş sərhədin iki ölkə arasında dövlət sərhədi kimi yenidən rəsmiləşdirilməsi ilə razılaşıblar".

Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov isə bu günlərdə iki ölkə arasında münasibətlərin normallaşdırılması prosesində təkcə sərhədlərin müəyyənləşdirilməsinin deyil, anklavların taleyinin də əhəmiyyət kəsb etdiyini bildirib. Deyib ki, delimitasiya və demarkasiya işləri çox böyük prosesdir: "Burada bir çox texniki məsələlər var. Qısa müddət ərzində həyata keçirilə bilən proses deyil. Bu istiqamətdə işlər gedir".

Qeyd edək ki, 2024-cü il aprelin 19-da Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın 8-ci görüşündə Qazax rayonun erməni işğalı altında olan 4 kəndinin – Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılının (ümumilikdə 6,5 kvadratkilometr ərazi) ölkəmizə qaytarılması barədə razılıq əldə edilib. Delimitasiya işləri nəticəsində 12,7 km uzunluğunda sərhəd xətti müəyyən olunub. 2024-cü il mayın 24-də isə 4 kənd rəsmən Azərbaycana geri qaytarılıb. Həmin kəndlərin əraziləri Azərbaycan Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülüb.

İndi isə işğal altında qalan daha 4 kəndin (Qazaxın Sofulu, Barxudarlı, Yuxarı Əskipara və Naxçıvan Muxtar respublikasının Sədərək rayonunun Kərki kəndinin) qaytarılması məsələsi gündəmdədir. Bir neçə gün öncə bu istiqamətdə Ermənistanın "Hetq" qəzetinin yaydığı məqalədə əksini tapan fikirlər diqqəti cəlb edir. Qeyd edilib ki, 2026-cı il aprelin 29-da Ağverəndə iki ölkə arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın 13-cü iclasında tərəflər delimitasiya işlərinin həyata keçirilməsi qaydalarına dair 3 təlimat layihəsinin mətnini razılaşdıraraq qarşılıqlı şəkildə mübadilə edib.



Nəşrə görə, tərəflər təlimatların təsdiqlənməsi üçün öz hökumətlərinə müraciət etmək barədə razılığa gəliblər. "Bu isə o deməkdir ki, Ermənistan və Azərbaycan hökumətləri müvafiq qərarlarla həmin təlimatları təsdiqləməlidir. Beləliklə, Ermənistanın hüquqi akt layihələrinin dərc olunduğu "e-draft.am" saytında mayın 15-dən 31-dək həmin 3 təlimatın təsdiqi ilə bağlı hökumət qərarı layihəsi ictimai müzakirəyə çıxarılıb. Layihə Ədliyyə Nazirliyi tərəfindən hazırlanıb", – deyə qəzet bildirib.

Razılaşdırılmış təlimatlara əsasən delimitasiya üzrə ekspert qrupları yaradılacaq. Bununla belə, qeyd olunur ki, oxşar qrup ən azı Ermənistan tərəfində 2 il əvvəl də mövcud olub: "2024-cü il aprelin 22-də N.Paşinyan Ermənistan komissiyasının nəzdində işçi qrupunun yaradılması barədə qərar qəbul edib". Nəşr bildirib ki, həmin qrup geodeziya ölçmələri nəticəsində ərazidə koordinatları dəqiqləşdirməli və delimitasiya ilə demarkasiya da məhz bu koordinatlar əsasında aparılmalı idi: "Qrupa Milli Təhlükəsizlik Xidməti, Müdafiə Nazirliyi, Ərazi İdarəetmə və İnfrastruktur Nazirliyi, Kadastr Komitəsinin rəsmiləri, həmçinin geodeziya və kartoqrafiya üzrə mütəxəssislər daxil edilib. Yaxın vaxtlarda formalaşdırılacaq ekspert qrupları komissiyalara tabe olacaq. Ekspertlər bütün aidiyyəti xəritə sənədləri, normativ-hüquqi aktlar və hüquqi əsaslandırılmış digər sənədlərlə işləyəcəklər. Buradan belə nəticə çıxır ki, xəritələr və hüquqi sənədlərin istifadəsinə dair məhdudiyyət yoxdur. Qruplar həmçinin yer səthinin məsafədən zondlanması, yəni sərhəd xəttinin kosmik çəkilişi və ya pilotsuz uçuş aparatlarından aparılan aerofoto çəkiliş materiallarının əldə olunması və işlənməsi istiqamətində texniki işlər görəcəklər. Bundan əlavə, delimitasiya işləri dövründə ümumi, yəni dövlət sirri təşkil etməyən geodeziya bazası yaradılmalı, topoqrafik və geodeziya işləri aparılmalıdır. Xüsusilə sərhəd xəttinin bütün uzunluğu boyunca əraziyə baxış keçirilməli, sərhəd xətti razılaşdırılmalı, delimitasiya xəritəsinin layihəsi hazırlanmalı, dövlət sərhədinin təsviri layihəsi tərtib edilməlidir".

Qeyd edilib ki, delimitasiya xəritəsində razılaşdırılmış dövlət sərhədi qalın qırmızı xətlə göstəriləcək. Xəritə sərhədin bütün uzunluğunu və hər iki tərəfdən 3 kilometr enində ərazi zolağını əhatə etməlidir. Xəritənin bütün vərəqləri albom formasında hazırlanacaq. Müəllif yazıb ki, vərəqlərin nömrələnməsi Ermənistan–Azərbaycan sərhədinin şimal hissəsindən, qərbdən şərq istiqamətində başlayacaq: "Başqa sözlə, albomda əvvəl Tavuş, sonra Göyçə, Dərələyəz və sonda Zəngəzur istiqamətində delimitasiya edilmiş sahələrin xəritələri yer alacaq".

*

Hazırda Ermənistanda parlament seçkiləri kampaniyasının qızğın çağıdır. Bu səbəbdən ölkədə bütün siyasi qüvvələrin diqqəti daha çox daxili gündəmə, seçici rəğbətinin qazanılmasına və rəqiblərə qarşı üstünlük əldə etməyə yönəlib. Belə bir şəraitdə hakimiyyətin sərhədlərin müəyyənləşdirilməsi kimi həssas və cəmiyyət üçün ciddi rezonans doğuran məsələlərdə tələsik addımlar atması ehtimalı zəif görünür. Müxalifət də delimitasiya mövzusundan siyasi alət kimi istifadə etməyə çalışdığı üçün hökumət əlavə risklərdən yayınmağa üstünlük verir. Bu baxımdan güman etmək olar ki, delimitasiya məsələsinə seçkilər başa çatdıqdan sonra qayıdılacaq. Çünki seçkilərdən sonra yaranacaq yeni siyasi mühit tərəflərə daha praqmatik və nisbi sabit şəraitdə danışıqları davam etdirmək imkanı verə bilər.

**Siyasi şərhçi Rizvan Hüseynov mövzu ilə bağlı XQ-yə** açıqlamasında bildirdi ki, hazırda iki ölkə arasında aparılan danışıqlarda əsas müzakirə mövzularından biri delimitasiya prosesi və anklavlar məsələsidir. Onun sözlərinə görə, delimitasiya prosesinin bir hissəsi olaraq anklavlar məsələsi sülh sazişi ilə bilavasitə əlaqəli deyil: "Ancaq sözsüz ki, sülh sazişinin imzalanması bu prosesə müsbət təsir göstərə bilər. İki prosesin birlikdə həllinin mümkün olacağını düşünənlər də var. Çünki bu məsələ yalnız texniki sərhəd xəttinin müəyyənləşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda təhlükəsizlik, kommunikasiya və qarşılıqlı hüquqi təminatlar kimi mürəkkəb komponentləri də əhatə edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, anklav kəndlərlə bağlı ayrıca ekspert qrupları fəaliyyət göstərir və bu kəndlərin qaytarılması prinsipial məsələdir. Bu isə göstərir ki, rəsmi Bakı məsələni uzunmüddətli siyasi gündəmin mühüm hissəsi kimi qiymətləndirir və onun beynəlxalq hüquq çərçivəsində həllində israrlıdır".



Bununla yanaşı, R.Hüseynov bildirdi ki, prosesin ləngiməsinin əsas səbəbi kimi daha çox Ermənistanın hüquqi-siyasi mövqeyini göstərmək olar: "Sülh sazişinə maneçiliyi anklavlar yaratmır, maneçilik Ermənistan Konstitusiyası ilə bağlıdır. Çünki Ermənistanın əsas qanununda Azərbaycana qarşı ərazi iddialarına əsas verən müddəalar qalmaqda davam edir. Rəsmi Bakı məhz bu amilin gələcəkdə sülh müqaviləsinin dayanıqlılığı üçün risk yaratdığını bildirir. Buna görə də tərəflər arasında yekun razılaşmanın əldə olunması üçün yalnız sərhəd məsələlərinin deyil, həm də hüquqi və siyasi ziddiyyətlərin aradan qaldırılması vacib hesab olunur".

***Səxavət HƏMİD***
***XQ***

# BMT Məskunlaşma Proqramının Bakı Forumunun qlobal uğur düsturu

## 6 gün davam edən beynəlxalq müzakirələr Azərbaycanı dünyaya bir daha strateji məkan kimi tanıtdı

**Bu yol 23 il bundan əvvəl başlasa da, yeni nəfəs, yeni sürət və yeni miqyası Böyük Zəfərdən sonra qazandı. Söhbət ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanın dünyanın aparıcı dövlətlərinin üzvü və iştirakçısı olduğu çoxsaylı platformalarda söz sahibinə çevrilməsi, Bakının ən qlobal və nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, XXI əsrin çağırışlarının səsləndiyi tribunaya çevrilməsi prosesindən gedir. Bəli, dünyanın siyasi düzəninin dəyişdiyi, qlobal problemlərin birgə səylərlə həllinin vacibliyinin gündəmə çevrildiyi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının – WUF13-un davam etdiyi beş 5 ərzində Azərbaycan paytaxtı beynəlxalq dialoq platformalarının, qlobal idman və mədəniyyət layihələrinin müzakirə tribunası olmaqla yanaşı, həm də müasir urbanizasiya tendensiyalarının müəyyənləşdiyi strateji məkan rolunu oynadı.**

dövlət və hökumət nümayəndələrinin qəbulu, ikitərəfli görüşlər, istirahət sahəsi və qidalanma xidməti üçün xüsusi xidmət məkanları qurulmuş, böyük tədbir zalı – açılış və bağlanış mərasimlərinin keçiriləcəyi əsas zal eyni vaxtda 6 min nəfərə qədər iştirakçını qəbul etmək imkanına malik idi. Sessiyanın əsas müzakirələrin aparıldığı və paralel tədbirlərin keçirildiyi xüsusi zona 3,55 hektar sahəni əhatə edirdi. İclas zalları, tematik sessiyalar, BMT tədbirləri, paralel görüşlər və ikitərəfli danışıqlar üçün nəzərdə tutulan zonada müxtəlif formatlı rəsmi və işgüzar görüşlərin eyni vaxtda keçirilməsi üçün mükəmməl şərait yaradılmışdı. Tədbir çərçivəsində gündə








### Rekordlar, ilklər və nəticələr

Bakının ev sahibliyi etdiyi bu beynəlxalq tədbir WUF tarixində həm də rekordlarla yadda qalacaq. Tədbirdə iştirak etmək üçün 182 ölkədən 40 mindən artıq şəxs qeydiyyatdan keçmişdi ki, bu da forumun tarixində rekord göstəricidir. Həmçinin WUF13 qlobal şəhərsalma forumları tarixində ilk dəfə olaraq proqrama Liderlər Sammiti seqmentinin daxil edilməsi baxımından da müstəsna əhəmiyyətə malikdir. Bakı forumunun beynəlxalq əhəmiyyəti barədə iki iştirakçının fikirlərini diqqətinizə çatdırırıq. "Bakıda aparılan qlobal müzakirələr, formalaşan tərəfdaşlıqlar gələcəkdə şəhər böhranlarının qarşısının alınması və şəhərlərin daha dayanıqlı qurulması üçün mühüm yol xəritəsi rolunu oynayacaq". Bunu Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak edən BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Nayrobidəki baş qərargahının assosiasiyalı eksperti Karolina Kinast fon Aynem deyib. "Bu, mənim iştirak etdiyim ilk Ümumdünya Şəhərsalma Forumudur. Bakıda son dərəcə səmərəli və məhsuldar görüşlərim oldu". Bu sözləri isə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak edən Maldiv adaları təmsilçisi Hüseyn Ziyat ifadə edib.

### Böyük Qayıdış və erməni vandalizmi

Hesab edirik ki, WUF13-ü Azərbaycan üçün əhəmiyyətli edən amillərdən biri də dünyanın 182 ölkəsinin təmsilçisinin işğal dövründə Ermənistanın Qarabağda, Şərqi Zəngəzurda törətdiyi vandalizm aktları ilə əyani surətdə tanış olmalarıdır. İlham Əliyevin forumun açılış mərasimində dediyi sözlər qonaqlarda dəqiq və aydın təsəvvürün yaranmasına xidmət edirdi: "İndi hökumətimizin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır. Bu ərazi 30 il müddətində erməni işğalı altında idi və tamamilə dağıdılaraq məhv edilmişdir. Beynəlxalq müşahidəçilər və ziyarətçilər Ağdamı Xirosima ilə müqayisə edirdilər, onlar Ağdamı "Qafqazın Xirosiması" adlandırırdılar. Çünki şəhər, sadəcə, mövcud deyildi. Tamamilə yerlə-yeksan edilmiş və o, Xirosimadan fərqli olaraq, atom bombasının atılması nəticəsində bu vəziyyətə düşməmişdir. Bu, 30 illik işğal ərzində edilmişdir və bu zaman tarixi və ictimai binalar, evlər tamamilə sökülərək dağıdılmışdır. Hazırda Böyük Qayıdış Proqramı həyata keçirilir, şəhər və kəndlərin Baş planları hazırlanır. Mən, əlbəttə ki, çox rəqəm gətirə bilərəm, lakin yalnız ikisini qeyd edim: artıq 5 il ərzində çəkdiyimiz tunellərin uzunluğu 70 kilometrdir. Digər beşi də tikiləcək. 500 körpüdən 435-i inşa olunub".

Beləliklə, dünən öz işini yekunlaşdıran WUF13 sessiyasının Bakı forumunun rekordları, ilkləri və müasir Azərbaycan reallığının dünyaya təqdimatı ilə tarixin yaddaşında qalacağı şübhəsizdir. BMT-nin bu nüfuzlu platformasının siyasi tərəfinə gəldikdə isə Azərbaycan 5 gün ərzində dünya miqyaslı problemlərin həllində aparıcı aktor olduğunu, təhlükəsiz, dayanıqlı və inklüziv gələcəyin qurulmasına verdiyi qlobal töhfəni bir daha bütün bəşəriyyətə nümayiş etdirdi.

### Forumun coğrafiyası və əzəməti

Bakı Forumunun iştirakçı sayı, coğrafiyası və əzəməti ilə BMT-nin ən nüfuzlu tədbirlərinin tarixində xüsusi iz buraxacağı öncədən məlum idi. Bunu WUF13-ün hazırlıq mərhələsində Təşkilat Komitəsi tərəfindən verilən rəsmi məlumatlardan başqa, Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimində dediyi sözlər də təsdiqləyirdi: "Azərbaycan uğurlu təcrübələrini bölüşərək, digər ölkələrə nümunə göstərir. Eyni zamanda, müxtəlif sahələrdə beynəlxalq təcrübədən öyrənmək və fikir mübadiləsi aparmaq da çox vacibdir. Müasir dövrdə şəhərlərin qarşısında duran çağırışlar dayanıqlı inkişaf məsələsini daha da aktual edir. Bu kimi beynəlxalq tədbirlər ölkələr və şəhərlər arasında bilik və təcrübə mübadiləsi baxımından mühüm platformadır".

Dövlət və hökumət başçılarının, dünyanın aparıcı beyin mərkəzlərinin, tanınmış ekspertlərin çıxışlarının yer aldığı yüzlərlə sessiya, konfrans, debat və panel müzakirələri Bakı forumunun uğur düsturunu və əzəmətini şərtləndirən əsas amillər sırasındadır. Azərbaycanın uğurla ev sahibliyi etdiyi WUF tədbirinin əsas leytmotivi Bakının şarmı və qonaqpərvərliyi ilə sintez təşkil edirdi: müasir dünyada dayanıqlı inkişaf, ekoloji balans və innovativ idarəetmə, düzgün planlaşdırılmış şəhərsalma siyasəti.

### Təcrübə, axtarış və miqyas

Paytaxtın ən nəhəng arenasında – Bakı Olimpiya Stadionunun ərazisində 5 gün davam edən və "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan WUF13-ün əhatə dairəsi, ərazisi, iştirakçı sayı, qonaqlara yaradılan şərait, eləcə də siyasi coğrafiyasına görə planetar tədbir kimi tarixə düşəcəyini əminliklə söyləmək olar. BMT-nin COP-dan sonra ikinci ən böyük, irimiqyaslı, qlobal əhəmiyyətli tədbirinin – WUF13-ün yüksək səviyyədə, qüsursuz və təhlükəsiz keçirilməsinin təmin edilməsi ölkəmiz üçün təkcə imic və nüfuz məsələsi deyildi. Burada beynəlxalq miqyaslı məclislərin təşkilində qazanılan təcrübənin, peşəkarlıq və səriştənin xüsusu rol oynadığını qeyd etməmək mümkün deyil. Təşkilat Komitəsi Forumun hazırlıq mərhələsindən başlayaraq ərazidə zəruti infrastrukturun qurulmasına, humanitar və logistik fəaliyyətin harmoniyasına qədər hər şeyi zərgər dəqiqliyi ilə nəzərə almış, görülən işlər daim ciddi nəzarətdə saxlanılmışdı. Həyata keçirilən əməliyyatların sinxronlaşdırılması, dövlət qurumları ilə beynəlxalq tərəfdaşlar arasında səmərəli koordinasiyanın qurulması məhz təcrübənin və səriştənin bəhrəsi idi.

Forumun mövzusu ilə bağlı qeyd etməliyik ki, ölkəmizdə memarlıq ənənələrinin qorunması, eyni zamanda, müasir urbanizasiya çağırışlarına cavab verən ekosistemlərin qurulması dövlət siyasətinin ana xəttini təşkil edir. Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi bu sahəyə dövlət səviyyəsində göstərilən ali diqqətin, verilən böyük əhəmiyyətin bariz ifadəsidir.

### Sessiyalar, konfranslar və nəqliyyat

WUF13-ün keçirildiyi məkan – Bakı Olimpiya Stadionu və onun ətrafında formalaşdırılan ümumi əməliyyat əhatə dairəsi 53 hektar sahəni təşkil edirdi. Forumun logistik və infrastruktur bölgüsü beynəlxalq standartlara uyğun olaraq xırdalıqlarına qədər planlaşdırılmışdı. 53 hektarlıq sahənin 43 hektarı əsas tədbir məkanı, 10 hektarı nəqliyyat terminalı və parklanma-transfer zonası kimi ayrılmış, vahid əməliyyat sistemi – qeydiyyat, sessiya, sərgi, media, nəqliyyat, texniki təminat, könüllülər və məkan xidmətləri tam inteqrasiya olunmuşdu. Yüksəksəviyyəli qonaqlar üçün xüsusi zonalar – təxminən 300-ə yaxın paralel sessiya, görüş və müzakirələr keçirildi. İştirakçı axınının səmərəli idarə edilməsi məqsədilə ərazisi üzrə məkanlarda və açıq hava zonalarında 35-dən çox iaşə məntəqəsi yerləşdirilmişdi ki, bu da qonaqların xidmətlərə əlçatanlığını maksimum dərəcədə təmin edirdi.

### "WUF13 bulvarı" və ən böyük sərgi

Forumun təşkili prosesində iştirakçı kontingentinin maraq dairəsinin nəzərə alınması da diqqətdən yayınmadı. İştirakçıların Bakının gözəl mühitindən zövq almaları üçün 2,5 hektar ərazidə, açıq havada "WUF13 bulvarı"-nın yaradılmasında mədsəd bu əsrarəngiz məkanda iştirakçıların sərbəst hərəkəti, istirahəti, iaşə xidmətlərindən rahat istifadəsi və tədbir məkanında real şəhər mühiti ab-havasını hiss etmələri idi. Tədbirin ən maraqlı, vizual baxımdan yaddaqalan hissələrindən biri də 3,5 hektar sahəni əhatə edən "Urban Expo" zonası oldu. "Urban Expo" özünün miqyasına və tərtibatına görə WUF tarixinin ən böyük sərgisi sayıldı. Bu ərazidə milli pavilyonlar, beynəlxalq təşkilatlar, dövlət qurumları, yerli və regional hakimiyyət orqanları, özəl sektor, QHT-lər, fondlar, təhsil və tədqiqat qurumları öz layihələrini nümayiş etdirdilər. "Urban Expo"nu dünyanın müxtəlif ölkələrindən 210-dan çox təşkilatı ziyarət etdi, 66 ölkə isə milli pavilyonlarla təmsil olundu.

Bakı Forumunun işıqlandırılması üçün 2 hektar ərazidə qurulmuş "Media mərkəzi" ayrıca qeyd olunmalıdır. Burada "Dəyirmi masa", "Xüsusi sessiya" və "Dialoq zalları" yerləşirdi. Ümumi tutumu 600 nəfər olan müasir "Media mərkəzi"ndə eyni vaxtda 400 jurnalistin sərbəst işləməsi üçün iş sahəsi, canlı yayım və müsahibə otaqları, mətbuat konfransı zalı, TV studiyaları və media istirahət sahəsi fəaliyyət göstərirdi.

*XQ-nin Analitik Mərkəzi*

# Gələcəyin şəhərsalma modeli: "yaşıl və ağıllı" məskənlər

**BMT-nin məlumatına görə, yaxın onilliklərdə dünya əhalisinin böyük hissəsi şəhərlərdə yaşayacaq. Bu isə urbanizasiya prosesinin daha planlı, dayanıqlı və innovativ şəkildə idarə olunmasını zəruri edir. Məhz buna görə "yaşıl şəhər" və "ağıllı şəhər" konsepsiyaları XXI əsrin əsas inkişaf modeli hesab olunur.**

"Yaşıl şəhərlər"də karbon emissiyalarının azaldılması, ictimai nəqliyyatın inkişafı, tullantıların təkrar emalı və yaşıllıq zonalarının genişləndirilməsi əsas prioritetlər hesab olunur. "Ağıllı şəhər" modeli isə rəqəmsal texnologiyalar vasitəsilə şəhər idarəçiliyinin daha effektiv və təhlükəsiz təşkilini nəzərdə tutur. Süni intellekt, böyük məlumat analitikası, sensor sistemləri və rəqəmsal xidmətlər bu modelin əsas elementləri sayılır.

Hazırda dünyanın bir çox şəhərləri hər iki yanaşmanı birləşdirərək "yaşıl və ağıllı şəhər" modelinə keçid etməyə çalışır. Sinqapur, Kopenhagen və Amsterdam bu istiqamətdə qabaqcıl nümunələr hesab olunur. Xüsusilə Amsterdamda "smart mobility" layihələri, elektrik nəqliyyatı, enerjiyə qənaət edən işıqlandırma sistemləri və rəqəmsal idarəetmə geniş tətbiq edilir. Şəhər sakinlərinin qərarvermə prosesinə cəlb olunması isə "ağıllı şəhər" modelinin yalnız texnologiyaya deyil, sosial iştirakçılığa da əsaslandığını göstərir.

Birləşmiş Ərəb Əmirliklərində yerləşən "Masdar City" isə "yaşıl şəhər" konsepsiyasının diqqətçəkən nümunələrindən biridir. Şəhərin əsas məqsədi karbon emissiyasını minimuma endirmək və alternativ enerji əsasında fəaliyyət göstərən urban model formalaşdırmaqdır. Burada günəş enerjisindən geniş istifadə edilir, enerji səmərəli binalar tikilir və ekoloji nəqliyyat sistemləri tətbiq olunur.

Bu modellərin qlobal əhəmiyyəti BMT səviyyəsində xüsusi diqqət mərkəzindədir. Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası bu istiqamətdə beynəlxalq əməkdaşlığın əsas platformalarından birinə çevrildi. "Dünyanı məskunlaşdırmaq: təhlükəsiz və dayanıqlı



şəhərlər və icmalar" mövzusuna həsr olunan forumda urbanizasiya, mənzil böhranı, iqlim dəyişiklikləri, dayanıqlı infrastruktur və ağıllı şəhər həlləri geniş müzakirə edildi.

WUF13-də çıxış edən mütəxəssislər "ağıllı şəhər" texnologiyalarının artıq lüks deyil, zərurətə çevrildiyini bildirdilər. Forumda "yaşıl şəhər" konsepsiyası əsas müzakirə mövzularından biri oldu. İştirakçılar yaşıl zonaların artırılması, ictimai nəqliyyatın inkişafı və bərpaolunan enerji mənbələrinin istifadəsinin iqlim dəyişikliklərinə qarşı mübarizədə mühüm rol oynadığını vurğuladılar. Xüsusilə "15 dəqiqəlik şəhər" modeli geniş maraq doğurdu. Bu konsepsiya insanların gündəlik ehtiyaclarını yaşadıqları əraziyə yaxın məsafədə təmin etməyə imkan verir və nəticədə həm nəqliyyat sıxlığını, həm də zərərli emissiyaları azaldır.

Forum çərçivəsində sosial inklüzivlik məsələləri də gündəmə gətirildi. BMT nümayəndələri bildirdilər ki, gələcəyin şəhərləri bütün sosial qruplar üçün əlçatan olmalıdır. Mənzil təminatı, təhlükəsiz ictimai məkanlar, əlillər üçün uyğun infrastruktur və rəqəmsal xidmətlərə bərabər çıxış dayanıqlı urbanizasiyanın əsas prinsipləri kimi qiymətləndirildi.

WUF13 Azərbaycan üçün də mühüm əhəmiyyət daşıyırdı. Forum ölkənin beynəlxalq şəhərsalma və dayanıqlı inkişaf platformalarında fəal iştirakını nümayiş etdirdi. Tədbirdə Azərbaycanın "ağıllı şəhər" və "ağıllı kənd" layihələri xüsusi maraqla qarşılandı. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma layihələrində yaşıl enerji, rəqəmsal idarəetmə və müasir infrastruktur həllərinin tətbiqi beynəlxalq ekspertlər tərəfindən müsbət qiymətləndirildi.

WUF13 iqlim dəyişikliklərinin şəhərlərə təsiri ilə bağlı mühüm mesajlar verdi. Tədbirin iştirakçıları vurğuladılar ki, gələcəyin şəhərləri daşqınlar, istilik dalğaları və su çatışmazlığı kimi ekstremal hava hadisələrinə qarşı daha dayanıqlı olmalıdır. Bu səbəbdən urbanizasiya siyasətində ekoloji planlaşdırma və iqlimə uyğun infrastruktur prioritet istiqamətlərdən biri hesab olunur. Forumda diqqətçəkən məsələlərdən biri də qlobal mənzil böhranı oldu. BMT hesabatına görə, hazırda təxminən 3 milyard insan adekvat yaşayış şəraitindən məhrumdur. Bu problem xüsusilə sürətli urbanizasiya yaşayan ölkələrdə daha ciddi şəkildə hiss olunur. Əhalinin şəhərlərə kütləvi axını nəticəsində bir çox ölkələrdə əlçatan mənzil çatışmazlığı, qeyri-rəsmi yaşayış məntəqələrinin artması və sosial infrastrukturun yüklənməsi müşahidə edilir. Mənzil problemi artıq yalnız sosial məsələ deyil, həm də iqtisadi və ekoloji təhlükəsizlik məsələsinə çevrilib.

Forum çərçivəsində vurğulandı ki, gələcəyin şəhərləri yalnız texnoloji baxımdan inkişaf etmiş olmamalı, eyni zamanda, sosial baxımdan inklüziv və əlçatan olmalıdır. Şəhərsalma siyasəti cəmiyyətin bütün təbəqələrinin maraqlarını nəzərə almalı, xüsusilə aztəminatlı əhali, yaşlı insanlar, uşaqlar və əlillər üçün təhlükəsiz və rahat yaşayış mühiti formalaşdırmalıdır. Bu baxımdan "insan mərkəzli urbanizasiya" anlayışı forumun əsas ideyalarından biri kimi ön plana çıxdı. Bakı forumu bir daha göstərdi ki, "yaşıl və ağıllı şəhərlər" artıq nəzəri konsepsiya deyil, qlobal inkişaf strategiyasının əsas istiqamətlərindən biridir. Müasir şəhərlər texnologiya, ekologiya və sosial rifah arasında balans yarada bildiyi halda davamlı inkişaf modelinə çevrilə bilər.

***

Bu forumla bağlı azərbaycanlı mütəxəssislərin də fikirləri maraqlıdır. **Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri, dosent Mahir Zeynalov XQ-yə bildirdi ki,** XXI əsrdə şəhərləşmə prosesi-



nin sürətlənməsi dünya ölkələrini yeni inkişaf modelləri axtarmağa sövq edir: "BMT-nin proqnozlarına görə, yaxın onilliklərdə dünya əhalisinin böyük hissəsi şəhərlərdə yaşayacaq. Bu isə enerji istehlakının artması, ekoloji çirklənmə, nəqliyyat sıxlığı, su və ərzaq təhlükəsizliyi kimi problemləri daha da aktuallaşdırır. Belə şəraitdə "yaşıl şəhər" və "ağıllı şəhər" konsepsiyaları müasir urbanizasiya siyasətinin əsas istiqamətlərindən birinə çevrilib".

Ekspert qeyd etdi ki, Azərbaycan da bu qlobal tendensiyadan kənarda qalmır: "Xüsusilə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-yenidənqurma prosesi "yaşıl və ağıllı şəhər" konsepsiyasının tətbiqi baxımından əhəmiyyətlidir. Prezident İlham Əliyev tərəfindən Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi bu istiqamətdə strateji yanaşmanın formalaşdırıldığını göstərir. Qarabağda həyata keçirilən layihələr sırasında ən diqqətçəkəni Agalı kəndində icra olunan "Ağıllı kənd" layihəsidir. Layihə yaşayış, alternativ enerji, ağıllı kənd təsərrüfatı, rəqəmsal xidmətlər və müasir infrastruktur komponentlərini özündə birləşdirir. Burada evlər enerji effektiv texnologiyalar əsasında tikilir, günəş enerjisindən istifadə olunur, rəqəmsal idarəetmə sistemləri tətbiq edilir. Eyni zamanda, Ağdam, Füzuli və digər yaşayış məntəqələrinin baş planları hazırlanarkən beynəlxalq "smart-city" prinsipləri nəzərə alınır. Yeni salınan yollar, rəqəmsal kommunikasiya şəbəkələri, alternativ enerji layihələri və ekoloji yanaşmalar Qarabağın gələcəyinin müasir texnologiyalar üzərində qurulduğunu göstərir. Ağdam Sənaye Parkında günəş enerjisindən istifadə olunması və yaşıl texnologiyaların tətbiqi bu siyasətin tərkib hissəsidir. Bu baxımdan Azərbaycan bir çox ölkələrdən fərqli olaraq "köhnə şəhərlərin modernləşdirilməsi" deyil, birbaşa yeni nəsil ağıllı şəhər və kəndlərin qurulması imkanına malikdir.

Şübhəsiz, gələcəyin şəhərləri ekoloji təhlükəsizlik, rəqəmsal idarəetmə və insan mərkəzli inkişaf prinsipləri üzərində formalaşacaq. "Yaşıl və ağıllı şəhər"lər yalnız texnologiyanın deyil, həm də yeni həyat tərzinin rəmzinə çevrilir. Azərbaycanın Qarabağda həyata keçirdiyi layihələr isə ölkənin bu qlobal transformasiyaya inteqrasiya olunduğunu və regionda innovativ urbanizasiya modelinin yaradıldığını göstərir.

Beləliklə, "yaşıl və ağıllı şəhər"lər artıq gələcəyin deyil, bugünün reallığıdır. Qarabağda qurulan yeni şəhər və kəndlər isə təkcə Azərbaycanın deyil, bütövlükdə, regionun ən müasir urbanizasiya nümunələrindən birinə çevrilmək potensialına malikdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Milli Məclisin Sədri MDB PA-nın plenar iclasında




**Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri çərçivəsində mayın 22-də MDB Parlamentlərarası Assambleyasının (MDB PA) 60-cı plenar iclasında iştirak edib.**

İclasda çıxış edən Milli Məclisin Sədri assambleyanın qanunverici orqanlarımız arasında dialoq və əməkdaşlığın inkişafında mühüm rolunu, qarşılıqlı maraq doğuran genişspektrli məsələlərin müzakirəsi üçün platforma kimi çıxış etdiyini vurğulayıb.

Çıxışında Bakıda BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) haqqında tədbir iştirakçılarına məlumat verən Milli Məclisin Sədri qeyd edib ki, mayın 17-22-də Bakıda keçirilən WUF13 şəhərlərin davamlı inkişafı və urbanizasiya məsələlərinə həsr olunmuş ən nüfuzlu və qlobal beynəlxalq tədbirlərdən biridir. Milli Məclisin sədri bildirib ki, 13-cü Sessiya çərçivəsində Parlamentlərarası Assambleyanın "Dağ yaşayış məntəqələrinin davamlı inkişafı" mövzusunda ayrıca tədbiri keçirilib.

O deyib ki, iyun ayında Azərbaycanın Milli Məclisi ilə Rusiya Federasiyasının Federal Məclisi arasında əməkdaşlıq üzrə Parlamentlərarası Komissiyanın növbəti 24-cü iclası keçiriləcək. Sədr, eyni zamanda, MDB PA-nın humanitar əməkdaşlığı gücləndirməyə yönəlmiş təşəbbüslərinin əhəmiyyətini qeyd edib.

Çıxışında, həmçinin MDB PA-nın seçkilərlə bağlı monitorinq fəaliyyətinə toxunan Milli Məclisin Sədri qurumun bu fəaliyyətinin institusional təminatında MDB PA-nın Demokratiyanın, parlamentarizmin inkişafı və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi üzrə Beynəlxalq İnstitutunun rolunu qeyd edib.

Sahibə Qafarova xatırladıb ki, 2025-ci il dekabrın 8-də Milli Məclis və Beynəlxalq İnstitutun Bakı filialının birgə təşkilatçılığı ilə "Heydər Əliyev – suveren Azərbaycanın konstitusionalizminin və parlamentarizminin banisi" mövzusunda beynəlxalq konfrans keçirilib. Bir müddət əvvəl isə mayın əvvəlində Bakı filialının inzibati binasında MDB PA-nın Demokratiyanın inkişafının monitorinqi üzrə Beynəlxalq İnstitutunun 20 illiyinə həsr olunmuş "Parlamentarilərin beynəlxalq müşahidədə rolu" mövzusunda dəyirmi masa keçirilib.

Sonda Milli Məclisin Sədri bildirib ki, MDB PA bu gün də parlamentlər arasında müntəzəm qarşılıqlı fəaliyyətin səmərəli platforması rolunu etimadla davam etdirir.

*

**Milli Məclisin Sədri Sahibə Qafarova həmin gün Belarusun Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanova ilə də görüşüb.**

Söhbət zamanı ölkələrimizin dostluq və qarşılıqlı etimad prinsiplərinə əsaslanan əlaqələrinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi vurğulanıb. Azərbaycanla Belarusun əməkdaşlığının bugünkü yüksək səviyyəyə çatmasında dövlət başçılarının səmimi münasibətlərinin, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və siyasi dialoqun mühüm rol oynadığı qeyd edilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*XQ*

# Bakı Forumunda qlobal mənzil böhranı ilə bağlı fəaliyyət çağırışı qəbul edildi

**2026-cı ilin may ayında BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) himayəsi altında Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) dayanıqlı şəhər inkişafı sahəsində son illərin ən mühüm beynəlxalq tədbirlərindən biri kimi yadda qalıb. 176 ölkədən 58 mindən çox iştirakçını bir araya gətirən forum Azərbaycanın qlobal dialoq və əməkdaşlıq platforması kimi artan rolunu bir daha nümayiş etdirib.**

Azərbaycan ilk dəfə ev sahibliyi etdiyi bu mötəbər tədbirlə Bakının şəhərlərin gələcəyi, mənzil siyasəti, iqlim dayanıqlılığı və inklüziv inkişaf məsələlərinin müzakirə olunduğu beynəlxalq mərkəzə çevrilib. Bu baxımdan, WUF13-ün Bakıda keçirilməsi yalnız region üçün deyil, bütövlükdə, qlobal urbanizasiya gündəliyi üçün də əlamətdar hadisə hesab olunur.

"Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan forum çərçivəsində dünyanın ən aktual problemlərindən biri olan mənzil böhranı əsas müzakirə mövzularından biri olub. BMT-nin qiymətləndirmələrinə görə, hazırda dünyada təxminən 2,8 milyard insan qeyri-qənaətbəxş yaşayış şəraitində yaşayır. Məhz bu səbəbdən WUF13 praktiki həllərin müzakirəsi və dayanıqlı şəhər inkişafı üzrə yeni yanaşmaların formalaşdırılması üçün mühüm platformaya çevrilib.

Forumun əsas nəticəsi isə "Bakı Fəaliyyətə Çağırış" (Baku Call to Action) sənədinin qəbul edilməsi olub. Sözügedən sənəd qlobal mənzil böhranının aradan qaldırılması və Yeni Şəhər Gündəliyinin həyata keçirilməsi istiqamətində dövlətlərin, beynəlxalq təşkilatların, şəhərlərin, vətəndaş cəmiyyətinin və ekspertlərin ortaq baxışını əks etdirir.

Sənəddə xüsusilə bəyanatlardan real fəaliyyət mərhələsinə keçidin vacibliyi vurğulanır. Bununla yanaşı, beynəlxalq əməkdaşlığın gücləndirilməsi, iqlim maliyyələşməsinin genişləndirilməsi əsas prioritetlər kimi qeyd edilir. Eyni zamanda, mənzil siyasətinin infrastruktur, nəqliyyat, sosial müdafiə, ekologiya və iqtisadi inkişaf məsələləri ilə inteqrasiyasının əhəmiyyəti ön plana çəkilir.

Yeni Şəhər Gündəliyi üzrə Nazirlər Görüşü zamanı iştirakçılar bildiriblər ki, Kito şəhərində qəbul edilən proqramın üzərindən on il keçməsinə baxmayaraq, beynəlxalq ictimaiyyət indi onun icrasında həlledici mərhələyə daxil olur. Görüşdə xüsusi olaraq vurğulanıb ki, mənzil yalnız tikinti məsələsi deyil, həm də sosial ədalətin, insan ləyaqətinin, dayanıqlılığın və iqtisadi imkanların əsasını təşkil edir.

Bununla yanaşı, forum Azərbaycanın dayanıqlı inkişaf, şəhər mühitinin modernləşdirilməsi və postmünaqişə bərpası istiqamətində həyata keçirdiyi siyasətin beynəlxalq səviyyədə tanınması baxımından da mühüm əhəmiyyət daşıyıb. Forum iştirakçıları azad edilmiş ərazilərdə aparılan bərpa işlərini, müasir şəhər həllərini və dayanıqlı ərazi inkişafı yanaşmalarını yüksək qiymətləndiriblər.

WUF13 çərçivəsində diqqət çəkən təşəbbüslərdən biri də Azərbaycanın UN-Habitat, Beynəlxalq Miqrasiya Təşkilatı və Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzi ilə birlikdə hazırladığı "Təhlükəsiz qayıdış üçün ağıllı və dayanıqlı yaşayış məskənləri" (4SRP) təşəbbüsü olub. Bu təşəbbüs təhlükəsiz və dayanıqlı qayıdışın təmin olunması, həmçinin ekoloji dayanıqlılıq, iqlim adaptasiyası və sülh quruculuğu prinsiplərinə əsaslanan postmünaqişə bərpası üzrə beynəlxalq standartların formalaşdırılmasına yönəlib.

Beləliklə, WUF13 Bakının dövlətləri, şəhərləri və beynəlxalq təşkilatları inklüziv, təhlükəsiz və yaşanılabilən şəhərlərin qurulması məqsədi ətrafında bir araya gətirən mühüm qlobal dialoq platforması olduğunu bir daha təsdiqləyib.

Forumun yekun nəticələrinin və "Bakı Fəaliyyətə Çağırış" sənədinin 2026-cı ilin iyul ayında Nyu-Yorkda keçiriləcək BMT




Baş Assambleyasının Yeni Şəhər Gündəliyinə dair yüksəksəviyyəli aralıq qiymətləndirmə iclasına da mühüm töhfə verəcəyi gözlənilir.

Ümumilikdə isə, WUF13-ün Bakıda keçirilməsi Azərbaycanın dayanıqlı inkişaf, iqlim dayanıqlılığı və beynəlxalq əməkdaşlıq sahələrində qlobal gündəliyin formalaşmasında artan rolunun növbəti təsdiqi kimi qiymətləndirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dayanıqlı inkişaf, müasir şəhərsalma, postmünaqişə bərpası və qlobal əməkdaşlıq sahələrində həyata keçirdiyi uzaqgörən siyasət və strateji liderlik xüsusi vurğulanıb.

Eyni zamanda, Azərbaycan Respublikası Hökumətinə Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının yüksək səviyyədə təşkilinə, göstərilən qonaqpərvərliyə və yaradılmış səmərəli dialoq mühitinə görə təşəkkür ifadə olunub.

Həmçinin Nazirlər Görüşünün yekunlarına dair "Sədrin Xülasəsi" (Chair Summary) sənədində şəhərlərin dayanıqlılığı, əlçatan mənzil siyasəti, iqlim dayanıqlılığı və inklüziv urban inkişaf istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyi xüsusi qeyd olunub. Sənədə WUF13 çərçivəsində Bakıda aparılan müzakirələrin Yeni Şəhər Gündəliyinin icrasına və qlobal mənzil böhranının həlli istiqamətində praktiki fəaliyyətlərin təşviqinə mühüm töhfə verdiyi vurğulanıb.

# Tarixi şəhərlərdə "ağıllı qoruq" yanaşması




**WUF13 çərçivəsində keçirilən "Tarixi şəhərlərdə rəqəmsal transformasiya – ağıllı irs, məlumatlara əsaslanan idarəetmə və inklüziv şəhər gələcəyi" mövzusunda tədbirdə rəqəmsal texnologiyaların tarixi şəhərlərin idarə olunmasında rolu, "ağıllı qoruq" yanaşması və məlumatlara əsaslanan idarəetmə mexanizmləri müzakirə olunub.**

Sessiyada ağıllı irs idarəçiliyi, turizm axınlarının tənzimlənməsi, nəqliyyat və mobilliyin optimallaşdırılması, rəqəmsal xidmətlərin genişləndirilməsi və məlumat əsaslı şəhərsalma qərarlarının qəbulu ilə bağlı fikir mübadiləsi aparılıb.

İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud bildirib ki, tarixi şəhər mühitinin canlılığının qorunması və dayanıqlı idarə olunması məqsədilə İçərişəhərdə "ağıllı qoruq" konsepsiyası əsasında kompleks idarəetmə modeli formalaşdırılır. Onun sözlərinə görə, hazırda təxminən 5 min nəfərin yaşadığı İçərişəhərdə əsas məqsəd ərazinin yalnız turizm məkanı deyil, həm də yaşayan şəhər kimi inkişafını təmin etməkdir.

Sessiyada çıxış edən Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin memarlıq sektorunun müdiri Gülnar Əliyeva isə bildirib ki, "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunda rəqəmsal kadastr sisteminin yaradılmasına başlanılıb. Onun sözlərinə görə, yeni sistem torpaq sahələri, tikililər və mülkiyyət formaları üzrə məlumatların vahid rəqəmsal platformada toplanmasını təmin edəcək.

Tədbirdə, həmçinin UNESCO Ümumdünya İrs Siyahısına daxil olan tarixi ərazilərdə rəqəmsal alətlərin irsin qorunması, ziyarətçi axınının idarə olunması və şəhər aktivlərinin effektiv idarə edilməsinə verdiyi töhfələr də diqqətə çatdırılıb.

*XQ*

# İnşaatçılar koalisiyası tərəfdaşlığı

**WUF13 çərçivəsində Afrika Mənzil Maliyyələşdirmə Birliyinin təşkilatçılığı ilə Qlobal Cənubda məhsuldar tərəfdaşlıqları təşviq edən inşaatçılar koalisiyası və CAHF Mənzil Maliyyələşdirilməsi 2025/2026 nəşrinin ilkin təqdimatı keçirilib.**







Tədbirdə mənzil sektorunda dövlət qurumları, özəl şirkətlər, maliyyə institutları, investorlar, beynəlxalq təşkilatlar və icmalar arasında davamlı əməkdaşlıq mexanizmlərinin formalaşdırılması məsələləri müzakirə olunub.

Sessiyada çıxış edən Nigeriyanın "Family Homes Funds Limited" şirkətinin idarəedici direktoru və baş icraçı direktorunun texniki müşaviri Ahmed Baba bildirib ki, UN-Habitat-ın 2026-cı ilə olan məlumatlarına görə, dünyada qeyri-qənaətbəxş mənzil şəraitində yaşayan insanların sayı təxminən 3,4 milyard nəfərə çatıb. Bu göstəricinin 70 faizdən çoxunu isə Qlobal Cənub ölkələri təşkil edir.

O qeyd edib ki, mütəxəssislərin qiymətləndirməsinə əsasən, bu göstərici 100 milyondan çox insanın mənzil problemi ilə üzləşməsi deməkdir.



"Bu rəqəmin Cənubi Afrika və Qananın ümumi əhalisinə bərabər olduğu vurğulanıb. Bildirilib ki, Nigeriyada ipoteka kreditlərinin ÜDM-ə nisbəti 1 faizdən də azdır. Mənzil maliyyələşdirilməsi üzrə faiz dərəcələri isə 20-32 faiz arasında dəyişir ki, bu da vətəndaşların əlçatan mənzil əldə etməsini çətinləşdirir.

Cənubi Afrikada "Moladi Development" şirkətinin idarəedici direktoru Hennie Botes çıxışında bildirib ki, hazırda Cənubi Afrikada işsizlik 62–65 milyon əhali arasında təxminən 16 milyon nəfər səviyyəsində qiymətləndirilir, eyni zamanda, təxminən 3 milyon yeni mənzilə ehtiyac var.

Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) Gender və İqtisadi İnklüzivlik üzrə baş mütəxəssisi (Principal) Pawel Krasny vurğulayıb ki, mənzil və əlçatan yaşayış məsələlərində mürəkkəb maliyyə alətləri və müxtəlif sosial qrupların prosesə cəlb olunması mühüm əhəmiyyət daşıyır.

Tədbirdə, həmçinin beynəlxalq və regional qurumlar, maliyyə və daşınmaz əmlak şəbəkələri, yerli idarəetmə strukturları və inkişaf tərəfdaşları arasında uzunmüddətli dialoqun qurulması, WUF13 kimi qlobal platformaların real və yerli nəticələrə çevrilməsi yolları ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

# Qlobal rəqəmsal sazişin şəhər lokallaşdırması




**WUF13 sonuncu günündə qlobal rəqəmsal sazişin şəhər səviyyəsində lokallaşdırılması mövzusunda müzakirələr aparılıb.**

BMT-nin Rəqəmsal və İnkişaf Etmədə olan Texnologiyalar Ofisinin (UNODET) təşkilatçılığı ilə keçirilən "Qlobal rəqəmsal sazişin şəhər səviyyəsində lokallaşdırılması" mövzusundakı sessiya BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) nümayəndələri, şəhər səviyyəsində çalışan mütəxəssisləri, qlobal tərəfdaşları və beynəlxalq ekspertləri bir araya gətirib.

Çox canlı və fəal davamlı urbanizasiya modeli olan Bakıda olmaqdan qürur duyduğunu deyən BMT-nin Məskunlaşma Proqramının Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Erfan Ali bildirib: "Qlobal rəqəmsal saziş bizə mühüm ortaq istinad nöqtəsi təqdim edir. O, inklüziv, təhlükəsiz və insan mərkəzli rəqəmsal transformasiya üçün ümumi bir baxış ortaya qoyur. Amma hamımız bilirik ki, əsas sınaq tətbiq mərhələsində olacaq. Bizdə çoxlu öhdəliklər, çoxlu vədlər var. Lakin ən böyük çətinlik həmin vədləri həyata keçirməli olduğumuz zaman ortaya çıxır".

Sessiya çərçivəsində panel müzakirələrdə Qananın Yerli İdarəetmə Nazirliyinin yerli idarəetmə və desentralizasiya üzrə direktoru Samuel Set Passah, Şəhər və Region Planlama Beynəlxalq Cəmiyyətinin (ISOCARP) elmi komitəsinin sədri Larissa Meneskal, "Mashreq Bank"ın nümayəndəsi Faysal Al Şimmari, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) şəhər inkişafı üzrə eksperti Anette Luts 2024-cü ildə BMT-yə üzv dövlətlər tərəfindən qəbul olunan Qlobal rəqəmsal sazişin rəqəmsal inklüzivlik, təhlükəsizlik, məlumat idarəçiliyi və süni intellekt sahələrində iddialı qlobal öhdəlikləri müəyyən etdiyini bildiriblər. Qeyd olunub ki, bu öhdəliklərin böyük hissəsi şəhər səviyyəsində həyata keçiriləcək. Çünki rəqəmsal infrastruktur, xidmətlərin göstərilməsi, məlumatlardan istifadə və ictimai iştirak məhz şəhərlərdə bir araya gəlir.

Eyni zamanda, mənzil siyasəti, xidmətlərin göstərilməsi, inklüzivlik və dayanıqlılıq kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb. Sessiyada qlobal öhdəlikləri yerli və insan mərkəzli rəqəmsal strategiyalara çevirən konkret şəhər təcrübələri və idarəetmə yanaşmaları nümayiş etdirilib.

*XQ*

# "Yeni şəhərsalma proqramı" müzakirəsi

**WUF13 çərçivəsində "Yeni şəhərsalma proqramı üzrə növbəti 10 il üçün Birgə Səylərimiz" mövzusunda tədbir keçirilib.**

Tədbir milli və yerli hökumətləri, regional qurumları, inkişaf tərəfdaşlarını, akademik dairələri, qadınları, gəncləri və digər əsas maraqlı tərəfləri bir araya gətirib. Məqsəd "Yeni Şəhərsalma Proqramı"nın (NUA) həyata keçirilməsinin onillik nəticələrini qiymətləndirmək və qarşıdakı 10 il üçün "yol xəritəsi"ni müəyyənləşdirmək olub.

Sessiyada Milli Tərəqqi Hesabatlarının (NPRs) ölkələrə irəliləyişi qiymətləndirmək və boşluqları müəyyən etmədə necə dəstək verdiyi araşdırılıb. Eyni zamanda, bu proseslərin necə daha da gücləndirilə və daha inklüziv hala gətirilə biləcəyi, xüsusilə qadınların və gənclərin iştirakının necə artırılacağı müzakirə olunub. Panel iştirakçıları öz fəaliyyət sahələrində NUA-nın tətbiqinin təsirləri barədə fikirlərini bölüşüb, gözləntilərin hansı sahələrdə qarşılandığını və hansı istiqamətlərdə daha çox birgə səylərə ehtiyac olduğunu vurğulayıblar.

Açıq dialoq və fikir mübadiləsi vasitəsilə sessiya NUA və onun 2026-cı il hesabat prosesi barədə anlayışı gücləndirməyi, 2026–2030-cu illər dövrü üçün Milli Tərəqqi Hesabatlarının vaxtında təqdim olunmasını təşviq etməyi və kollektiv fəaliyyətə ortaq bağlılığı möhkəmləndirməyi hədəfləyib. Nəticə etibarilə, məqsəd NUA-nı qarşıdakı onillik ərzində inklüziv və dayanıqlı şəhər inkişafına istiqamət verən canlı bir çərçivə kimi mövqeləndirməkdir.

# Azərbaycanın neft ixracının şah damarı

*Bakı–Tbilisi–Ceyhan kəmərinin işə salınmasından 21 ötür*



**Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının təntənəsi olan Bakı–Tbilisi–Ceyhan (BTC) əsas ixrac boru kəməri ölkəmizin iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun artmasında mühüm rol oynayır. Azərbaycanı Cənubi Qafqaz regionunun liderinə çevirən BTC 21 ildir ki, sabit və ahəngdar rejimdə fəaliyyət göstərərək xam nefti dünya bazarlarına çatdırır.**

Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin ideya müəllifi isə ümummilli lider Heydər Əliyevdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində yenidən müstəqillik qazanan Azərbaycan dövlətini üzləşdiyi dərin böhrandan qurtarmaq üçün hakimiyyətə gələn Ümummilli lider bitkin bir iqtisadi konsepsiya işləyib hazırladı. Həmin konsepsiyanın əsas istiqamətlərindən biri dünyanın transmilli neft şirktlərini ölkəmizə cəlb etməklə Azərbaycanın karbohidrogen ehtiyatlarının birgə işlənməsi ilə bağlı idi.

Heç şübhəsiz, bu məsələdə ölkəmizin maraqlarının qorunması xüsusi aktuallıq kəsb edirdi. Məhz bunun nəticəsi idi ki, 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndə ölkəmizin neft ehtiyatlarını dünya bazarına alternativ marşrutlarla çıxarılması nəzərdə tutulurdu. Əsas ixrac boru kəməri ilə bağlı uzunmüddətli danışıqlar isə Azərbaycanın yeni neft strategiyasının banisi, Prezident Heydər Əliyevin qətiyyəti və uzaqgörən siyasəti sayəsində ölkəmiz üçün strateji əhəmiyyət daşıyan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi ilə yekunlaşdı.

Xatırladaq ki, Bakı–Tbilisi–Ceyhan xəttinin əsas ixrac kəməri kimi çəkiləcəyi ilk dəfə 1998-ci il aprelin 26-da Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon görüşündə dəqiqləşdirilib. Bu, həm də sözügedən kəmərin reallaşmasına dair son siyasi qərarın verilməsi demək idi. Həmin il oktyabrın 29-da isə Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri, eləcə də ABŞ-ın energetika naziri tərəfindən Bakı–Tbilisi–Ceyhan marşrutu ilə əsas ixrac kəmərinin çəkilməsi ideyasını müdafiə edən Ankara Bəyannaməsinin imzalanması ilə bu layihəyə dair ilkin razılaşma əldə olunub.

Həmin layihəni maraqlı tərəflərlə uzlaşdırıb razılaşdırmaq, beynəlxalq güc mərkəzlərinin dəstəyini qazanmaq və onu imzalamaq isə məhz ulu öndər Heydər Əliyevin siyasi iradəsi nəticəsində mümkün olub. Təsadüfi deyil ki, Ümummilli lider 1999-cu il sentyabrın 20-də Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr edilmiş təntənəli mərasimdəki çıxışında demişdir: "Mən bu gün bəyan edirəm ki, Azərbaycan neftinin, Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün çox böyük əhəmiyyət daşıyan Bakı–Ceyhan neft kəməri tikilməlidir, istifadəyə verilməlidir".

Göründüyü kimi, "Bakı-Tbilisi-Ceyhan" layihəsinin həyata vəsiqə alması məhz Heydər Əliyevin qətiyyəti sayəsində baş tutub. ATƏT-in 1999-cu il noyabr ayının 18-də İstanbulun "Çırağan" sarayında "Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə respublikalarının əraziləri ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş" imzalanıb. Bununla da "Üç dənizin əfsanəsi" adlandırılan və minilliyin ən böyük neft ixracı marşrutlarından sayılan Bakı–Tbilisi–Ceyhan layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradılıb.




2002-ci il sentyabrın 18-də isə Bakıda, Səngəçal terminalının ərazisində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Heydər Əliyev, Eduard Şevardnadze və Əhməd Necdət Sezərin iştirakı ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyulub. Kəmərin inşası üçün tanınmış podratçı şirkətlə müqavilə imzalandıqdan sonra 2003-cü ilin aprel ayında tikinti işlərinə başlanılıb.

Ulu öndərin müəllifi olduğu bu nəhəng enerji layihəsi onun siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində reallığa çevrilib. Təsadüfi deyil ki, İlham Əliyev Azərbaycanın Baş naziri kimi fəaliyyətinin ilk günlərində, 2003-cü il avqustun 11-də BTC əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsində, Bakı yaxınlığındakı Umbakı ərazisində aparılan tikinti işləri ilə tanış olaraq tövsiyə və tapşırıqlarını verib.

2004-cü il fevralın 3-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Bakıda "Gülüstan" sarayında BTC ixrac boru kəmərinin tikintisinin maliyyələşdirilməsi üçün layihənin son maliyyələşmə sənədləri paketi imzalanıb. Həmin ilin oktyabrında Azərbaycanın Ağstafa rayonunun Böyük Kəsik kəndində, Gürcüstanın Qardabani rayonu ilə sərhəddə BTC kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi mərasimi keçirilib. "Qızıl qaynaq" adlanan bu mərasimdə hər iki ölkənin dövlət başçıları kəmərin Azərbaycan və Gürcüstan hissələrini rəmzi olaraq qaynaqlayaraq birləşdiriblər.

2005-ci il mayın 10-da ulu öndər Heydər Əliyevin doğum gününə hədiyyə olaraq Səngəçal terminalındakı BTC baş nasos stansiyasının neftlə doldurulmasına start verilib. Mayın 25-də isə terminalda Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə keçirilən mərasimdə neftin BTC-yə vurulmasına başlanılıb. Həmin gün burada quraşdırılmış xüsusi qurğudakı sürgü açıldıqdan sonra kəmərlə ilkin neft axmağa başlayıb. Oktyabrın 25-də isə kəmərin Gürcüstan hissəsinin istifadəyə verilməsi münasibətilə bu ölkənin Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində təntənəli mərasim keçirilib.

BTC kəməri ilə nəql edilən xam neft 2006-ci il mayın 28-də Türkiyənin Ceyhan terminalına çatıb. XXI əsrin ən böyük enerji layihələrindən sayılan Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi isə iyulun 13-də Türkiyənin Ceyhan şəhərində keçirilib.

Xəzər regionundan dünyaya qapı açan bu nəhəng boru kəməri uzun illərdir ki, Azərbaycanla yanaşı, bir sıra ölkələrin də enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir. 2026-cı ilin birinci rübündə BTC ilə nəql olunan 6 milyon ton (təxminən 49 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 65 tankerə yüklənərək yola salınıb. Bütövlükdə isə, 1768 kilometr uzunluğunda olan BTC boru kəməri 2006-cı ilin iyul ayında istismara veriləndən 2026-cı ilin birinci rübünün sonunadək, ümumilikdə, 626 milyon ton (4,7 milyard bareldən çox) xam neft nəql edib. Həmin neft həcmləri Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanında 6210 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Ümumilikdə, XXI əsrin ən böyük neft ixracı marşrutlarından sayılan Bakı – Tbilisi – Ceyhan boru kəməri həm Azərbaycan, həm də layihədə təmsil olunan şirkətlər üçün tarixi bir nailiyyətdir. Bütün maraqlı tərəflərin səyləri nəticəsində əfsanədən reallığa çevrilən bu nəhəng neft ixracı layihəsi bundan sonra neçə onilliklər ərzində də ətraf mühitə ziyan vurmadan, səmərəli və təhlükəsiz şəkildə işləməsi sayəsində təkcə regionda deyil, bütövlükdə, kəmərin keçdiyi ölkələr boyunca yeni iqtisadi imkanlar yaradacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Ermənistanın Baş naziri Nikol Paşinyan Rusiya ilə qazın qiyməti məsələsində aydın strateji razılığın əldə olunduğunu və bu razılaşmanın dəyişdirilə bilməyəcəyini bildirib. İrəvanda keçirilən brifinqdə çıxış edən Paşinyan qeyd edib ki, qazın bahalaşması ilə bağlı narahatlıqlar üçün əsas yoxdur: "Qazın qiymətinin artması mümkün deyil, çünki bizim qüvvədə olan müqaviləmiz var. Bu müqavilə qarşılıqlı faydalıdır. Sazişdə müəyyən şərtlər nəzərdə tutulub və qazın qiyməti ilə bağlı əldə etdiyimiz strateji razılaşmalara əməl olunmalıdır".**

Xatırladaq ki, Vladimir Putin aprelin 1-də Nikol Paşinyan ilə görüşündə Ermənistan üçün Rusiya qazının qiyməti ilə Avropadakı qiymətlər arasında ciddi fərq olduğunu vurğulamışdı. Onun sözlərinə görə, hazırda Avropada təbii qazın qiyməti hər min kubmetr üçün 600 ABŞ dollarını keçdiyi halda, Rusiya Ermənistana qazı 177,5 dollar qiymətinə satır.

Bu kontekstdə Azərbaycan nəzəri baxımdan ən real variantlardan biridir. Azərbaycan regionun əsas qaz ixracatçısıdır, inkişaf etmiş boru infrastrukturu və böyük ehtiyatlara malikdir. Hazırda Azərbaycan qazı Cənub Qaz Dəhlizi və onunla əlaqəli ixrac infrastrukturu vasitəsilə 16 ölkəyə tədarük olunur. Ekspertlər hesab edir ki, siyasi münasibətlərdə normallaşma davam edərsə, gələcəkdə Ermənistanın enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycan qazına maraq göstərməsi istisna deyil. Bu məsələ son dövrlərdə getdikcə daha çox müzakirə olunur.

# Ermənistan üçün ən sərfəli təbii qaz bazarı ölkəmizdir

*İrəvanda bu gerçəklik necə dəyərləndirilir?*



Aprelin 4-də isə Ermənistan parlamentinin spikeri Alen Simonyan bəyan etmişdi ki, əgər Rusiya qazın qiymətini artırarsa, ölkə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, Avrasiya İqtisadi İttifaqı və digər inteqrasiya strukturlarını tərk edə bilər. Mayın 21-də Ermənistanın iqtisadiyyat naziri Gevorg Papoyan da bildirib ki, ölkədə Rusiya qazının qiymətinin mümkün artımı halında tətbiq ediləcək mexanizmlər hazırlanıb.

Qeyd edək ki, ötən ayın əvvəlində keçirilmiş Rusiya və Ermənistan liderlərinin görüşündə Vladimir Putinin təbii qazın qiymətini gündəmə gətirməsi heç də təsadüfi deyil. Paşinyan hakimiyyətinin son illərdə Avropa İttifaqı ilə münasibətləri dərinləşdirməsi, Qərbə inteqrasiya xəttini gücləndirməsi və Rusiyanın dominant olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi strukturlardan uzaqlaşmağa çalışması Moskvada narahatlıqla qarşılanır. Həmçinin Nikol Paşinyan İrəvanın Moskvadan ənənəvi asılılığını azaltmağa çalışır. Belə olan halda, təbii ki, Rusiya da öz əks-addımlarını hazırlayır.

Bu fonda Kremlin əsas rıçaqlarından biri enerji amilidir. Ermənistanın enerji təhlükəsizliyində Rusiyanın, xüsusilə qaz təchizatında rolu hələ də həlledicidir. Məhz buna görə Moskva zaman-zaman qaz məsələsini qabartmaqla İrəvana xəbərdarlıq edir. Siyasi mesajın əsas məğzi bundan ibarətdir ki, əgər Ermənistan tutduğu yoldan üz döndərməsə, iqtisadi və enerji baxımından müəyyən risklərlə qarşılaşa bilər.

Qeyd olunduğu kimi, Ermənistanın təbii qaz idxalının əsas mənbəyi Rusiyadır ki, bu da təxminən 80-85 faiz həcmindədir. Ermənistanın daxili bazarında Rusiyadan qazın əsas və faktiki monopol idxalçısı "Qazprom" şirkətinin törəmə müəssisəsi və Ermənistanda yeganə qaz təchizatçısı olan "Qazprom Armenia"dır. Şirkət daşınma, saxlama və paylama da daxil olmaqla, bütün təbii qaz dövriyyəsini idarə edir. Təbii qaz Gürcüstan üzərindən nəql edilir. Bundan başqa, Ermənistana İran qazı da daxil olur, amma bu əsasən "qaz müqabilində elektrik" sxemi ilə işləyir və birbaşa əhalinin qaz təminatında dominant rol oynamır.

İndiki məqamda Rusiyadan Ermənistana verilən qazın qiyməti ilə bağlı son açıqlamalar göstərir ki, İrəvanın enerji təhlükəsizliyi məsələsi yenidən gündəmə gəlib. Hərçənd Ermənistan Baş naziri Nikol Paşinyan Moskva ilə qaz qiymətləri üzrə "strateji razılaşma"nın mövcud olduğunu və bunun dəyişməyəcəyinə inandığını bəyan edib, son aylarda verilən ziddiyyətli açıqlamalar rəsmi İrəvanın mümkün riskləri nəzərdən keçirdiyini ortaya qoyur. Uzunmüddətli perspektivdə Ermənistan üçün üçüncü alternativin yaranması strateji zərurətə çevrilə bilər.

Hələ 2023-cü ilin oktyabrında Gürcüstanda keçirilən Tbilisi Beynəlxalq İpək Yolu Forumu çərçivəsində Ermənistanın ərazi idarəetmə və infrastruktur nazirinin müavini Hakob Vardanyan açıq şəkildə bəyan etmişdi ki, siyasi problemlər aradan qalxdıqdan sonra Ermənistan Azərbaycandan qaz almağa hazırdır. Onun sözlərinə görə, sovet dövründə iki ölkə arasında bu sahədə uğurlu əməkdaşlıq mövcud olub və Ermənistan Azərbaycandan üç iri qaz kəməri vasitəsilə qaz alıb. Vardanyan həmin infrastrukturun gələcəkdə yenidən bərpa edilə biləcəyini də vurğulamışdı. O, həmçinin qeyd etmişdi ki, Ermənistan gələcəkdə Azərbaycan qazının Avropaya nəqlində tranzit ölkəyə çevrilə bilər. Bu isə regionda enerji marşrutlarının və enerji təhlükəsizliyi arxitekturasının dəyişməsinə səbəb ola bilər.

Mövzuya Ermənistan parlamentinin spikeri Alen Simonyan də münasibət bildirib. O, Ermənistanın yalnız Azərbaycandan deyil, həm də İrandan qaz idxalı imkanlarını nəzərdən keçirməsinin vacibliyini vurğulayıb. Maraqlıdır ki, rəsmi Bakı da bu ehtimalı inkar etməyib və Azərbaycanın gələcəkdə Ermənistan üçün enerji təchizatçılarından birinə çevrilə biləcəyini bəyan edib.

Məlum olduğu kimi, artıq iki ölkə arasında iqtisadi əlaqələr bərpa olunmağa başlayıb. Belə ki, ötən ilin sonlarından etibarən Ermənistan Azərbaycandan yanacaq məhsulları (benzin və dizel) almağa başlayıb. Əgər siyasi münasibətlərdə normallaşma prosesi davam edərsə, gələcəkdə Ermənistanın enerji təhlükəsizliyinin təmin olunması məqsədilə Azərbaycan qazına maraq göstərməsi tamamilə real görünür. Nəzərə almaq lazımdır ki, Azərbaycan bu gün Cənubi Qafqazın əsas enerji mərkəzi və regionun ən böyük enerji ixracatçısıdır.

Hazırda isə bütün diqqətlər Ermənistanda 7 iyunda keçiriləcək parlament seçkilərinə yönəlib. Bu seçkilər ölkənin gələcək siyasi kursunun müəyyənləşdirilməsi baxımından həlledici əhəmiyyət daşıyır. Əgər Baş nazir Nikol Paşinyan seçkilərdə qalib gələrək hakimiyyətini qoruyub saxlaya bilsə, onun indiyədək izlədiyi siyasi xəttə, yəni Qərbə inteqrasiya və Rusiyadan mərhələli şəkildə uzaqlaşma siyasətinə sadiq qalacağı ehtimalı yüksəkdir. Belə bir ssenaridə isə, şübhəsiz ki, Moskva yenidən enerji amilini əsas təzyiq vasitəsi kimi gündəmə gətirəcək.

***Musa BAĞIRLI***
***XQ***

# Energetika naziri İstanbul Təbii Sərvətlər Zirvəsində

**Energetika naziri Pərviz Şahbazov "2-ci İstanbul Təbii Sərvətlər Zirvəsi" çərçivəsində keçirilən "Dəyişən qlobal mənzərədə enerji təhlükəsizliyi: bağlantılar və əməkdaşlıq" mövzusunda nazirlər sessiyasında çıxış edib.**

Nazir Azərbaycan və Türkiyə arasında həm enerji sektoruna böyük investisiyalar yatırılması, həm də neft-qaz kəmərləri və elektrik infrastrukturu üzrə müxtəlif layihələrin icrası ilə uğurlu əməkdaşlıq modelinin olduğunu vurğulayıb. Qeyd olunub ki, hər iki ölkə enerji sektorunun inkişaf strategiyasını mənbələrin və marşrutların şaxələndirilməsi, eləcə də daha geniş enerji bağlantılarının yaradılması üzərində qurub. Azərbaycan və Türkiyə arasında həyata keçirilən Bakı-Tbilisi-Ceyhan və Cənub Qaz Dəhlizinin hazırda etibarlı və proqnozlaşdırılan enerji marşrutları sırasında yer aldığı, bu layihələrin yalnız iştirakçı ölkələri deyil, bütövlükdə, regionu Avrasiyanın enerji infrastrukturunun əsas sütunlarından birinə çevirdiyi diqqətə çatdırılıb.

Pərviz Şahbazov son dövrlərdə baş verən geosiyasi proseslərin enerji bazarlarına təsirləri fonunda XXI əsrdə enerji gücünün artıq yalnız hasilatla deyil, həm də təchizat təhlükəsizliyi, enerji bağlantıları və etibarlı tərəfdaşlıqla ölçüldüyünü qeyd edib. Bu aspektdə Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında elektrik interkonnektoru layihəsinin gündəmdə olduğu diqqətə çatdırılıb.

Zəngəzur üzərindən keçəcək yeni elektrik bağlantısının isə Xəzər regionunun enerji resurslarını Ermənistan üzərindən Naxçıvan vasitəsilə Türkiyəyə çatdıracağı, bu layihələrin qardaş ölkənin regional enerji habı rolunu daha da gücləndirəcəyi bildirilib. Özbəkistanın Çinlə enerji əlaqələrini nəzərdə tutan layihələri fonunda gələcəkdə Türkiyə, Azərbaycan və Mərkəzi Asiya üzərindən Çinlə Avropa arasında yeni




enerji bağlantılarının formalaşmasının Avrasiyanın enerji arxitekturasını dəyişdirəcəyi qeyd olunub.

Nazir elektromobillik, elektrikləşmə, data mərkəzləri, süni intellekt və digər texnoloji inkişafların enerji və elektrik enerjisinə tələbatı sürətlə artırdığını diqqətə çatdırıb. Bildirilib ki, artıq əsas məsələ enerjinin ən ucuz mənbədən əldə olunması deyil, onun əlçatanlığının və təhlükəsiz təchizatının təmin edilməsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsidir.

Sessiyada Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarla yanaşı, Gürcüstan, Moldova, Liviya, Somali, Nigeriya və Sudanın da nazirləri iştirak ediblər.

***XQ***

# 4 ayda 16,6 milyard kubmetr mavi yanacaq

**Bu ilin yanvar-aprel aylarında Azərbaycanda 16 milyard 620,2 milyon kubmetr təbii qaz hasil edilib. Bunun da 12 milyard 987,3 milyon kubmetri əmtəəlik təbii qazın payına düşüb. Hesabat dövründə təbii qaz hasilatı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,3 faiz, əmtəəlik qaz hasilatı isə 0,6 faiz artıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**

Komitənin məlumatına əsasən, ilin ilk 4 ayında ölkənin magistral qaz kəmərləri ilə 14 milyard 287,2 milyon kubmetr qaz nəql edilib. Bu isə 2025-ci ilin 4 ayına nisbətən 2,8 faiz çoxdur. Hesabat dövründə qazın nəqlinin 7 milyard 539,3 milyon kubmetri və ya 52,8 faizi Bakı-Tbilisi-Ərzurum (Cənubi Qafqaz boru kəməri) kəməri vasitəsilə həyata keçirilib. Bu da illik müqayisədə 2,9 faiz artıqdır.

Xatırladaq ki, Cənubi Qafqaz boru kəməri ilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz-kondensat yatağından hasil edilən qaz Azərbaycana, Gürcüstana və Türkiyəyə çatdırılır. 2006-cı ilin sonlarında istismara verilmiş bu boru xətti və "Şahdəniz" yatağının birinci mərhələsi çərçivəsində hasil olunan qazın nəqlinə başlayıb. 2018-ci ilin yayından isə "Şahdəniz" yatağının ikinci mərhələsi çərçivəsində hasil edilən qazın genişləndirilmiş Cənubi Qafqaz boru kəməri ilə Türkiyəyə–TANAP kəmərinə təhvil verilməsinə start verilib.

***XQ***

# “Qarabağın sıfırdan qurulması” qlobal məskunlaşma üçün yeni nümunədir

**Prezident İlham Əliyev WUF13-ün təntənəli açılış mərasimində “Euronews” televiziyasına verdiyi müsahibədə ölkəmizdə COP29-dan sonra keçirilən ikinci ən böyük toplantının Ümumdünya Şəhərsalma Forumunun əhəmiyyəti ilə bağlı danışarkən Azərbaycanın bu qlobal müzakirəyə ev sahibliyi etməsiini böyük şərəf, burada 182 ölkənin təmsil olunması faktını isə respublikamıza göstərilən hörmət və etimad kimi dəyərləndirdi. Ölkə rəhbəri iştirakçıların sayının rekord həddə çatmasını isə həm mövzunun bəşəri önəm daşıması, həm də dövlətimizin beynəlxalq aləmdə böyük nüfuz qazanması ilə əlaqələndirdi.**



Azərbaycan lideri daha sonra bildirib ki, belə bir forumun keçirilməsi respublikamızda indiyədək görülən işlər, gələcək planlar barədə auditoriyaya və beynəlxalq ictimaiyyətə məlumat vermək, eyni zamanda, tərəfdaşlarımızın təcrübəsindən yararlanmaq baxımından bir fürsətdir: “Çünki iştirak səviyyəsi, dövlət və hökumət başçılarının sayı göstərir ki, bu gün şəhərsalma məsələləri bir çox dünya liderlərinin diqqət yetirdiyi mövzulardan biridir. Mən çıxışımda da qeyd etdiyim kimi, tarixi və memarlıq irsinin qorunması ilə şəhərlərin müasirləşdirilməsi bir-biri ilə uzlaşmalıdır”.

Prezident İlham Əliyev WUF13-ün açılış mərasimində çıxışı zamanı da bu məsələlərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma işlərinin miqyasını və mahiyyətini xüsusi vurğulayaraq 30 il davam edən işğal nəticəsində regionun tamamilə dağıdıldığını, şəhər və kəndlərin viran qoyulduğunu bildirib. Dövlət başçısı, eyni zamanda, beynəlxalq aləmdə Ağdamın “Qafqazın Xirosiması” adlandırılmasının təsadüfi olmadığını, bu sözə Qarabağda erməni vandalizminin miqyasını bütün dünyaya nümayiş etdirmək baxımından ən təsirli ifadələrdən biri kimi yanaşıldığını vurğulayıb.

## İlk addım – minatəmizləmə!

İşğaldan azad edilmiş ərazilərdə ən ciddi problemlərdən biri mina təhlükəsidir. Ermənistan tərəfindən basdırılmış milyonlarla mina və partlamamış hərbi sursat insanların həyatı üçün ciddi təhlükə yaradır. Məhz buna görə də bərpa prosesinin ilk mərhələsində minatəmizləmə işləri həyata keçirilir. Azərbaycan Minatəmizləmə Agentliyi və digər aidiyyəti qurumlar tərəfindən genişmiqyaslı əməliyyatlar aparılaraq yaşayış və təsərrüfat üçün təhlükəsiz mühit formalaşdırmağa çalışılır.

Minatəmizləmə prosesi yalnız humanitar məsələ deyil, həm də iqtisadi inkişafın əsas şərtidir. Çünki yolların çəkilməsi, kənd təsərrüfatının bərpası, yaşayış məntəqələrinin qurulması və insanların geri dönüşü təhlükəsizlik təmin olunmadan mümkün deyil.

Vətən müharibəsindəki tarixi Zəfərimizdən sonra müasir Azərbaycanın qarşısında duran ən mühüm strateji vəzifələrdən biri də işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, həmin ərazilərin sosial-iqtisadi həyata inteqrasiyası və keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz şəkildə qaytarılması olub. Ötən müddətdə regionda həyata keçirilən genişmiqyaslı quruculuq prosesi təkcə infrastruktur layihələri ilə məhdudlaşmayıb. Bu proses, eyni zamanda, dövlətin siyasi iradəsinin, iqtisadi gücünün, milli həmrəyliyinin və gələcəyə hesablanmış inkişaf strategiyasının real təcəssümü kimi diqqət çəkib.

İşğal dövründə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşayış məntəqələri sistemli şəkildə dağıdılıb, tarixi-mədəni irsə qarşı vandalizm aktları həyata keçirilib. Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və digər rayonlarda evlər, məktəblər, xəstəxanalar, inzibati binalar, dini və tarixi abidələr, infrastrukturlar tamailə məhv edilib. Bölgədə törədilən dəhşətli mənzərələr beynəlxalq müşahidəçilər tərəfindən “ölü şəhərlər” kimi xarakterizə olunub.

Bundan başqa, dünyada Ağdam şəhərinin tamamilə yerlə-yeksan edilməsi, yaşayış binalarının sökülərək tikinti materialı kimi daşınması, qəbiristanlıqların dağıdılması işğalı yalnız hərbi deyil, həm də humanitar və mədəni faciə kimi qiymətləndirilib. Eyni zamanda, bütün bu vəhşiliklərə baxmayaraq, Azərbaycanın qisasa yox, quruculuq və inkişaf yoluna önəm verdiyi, bu yanaşmanın isə dövlət siyasətinin humanist mahiyyətindən, milli inkişaf modelinin əsas prinsiplərindən irəli gəldiyi bildirilib.

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda keçmiş məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına qaytarılması, həmin ərazilərdə dayanıqlı məskunlaşmanın gerçəkləşdirilməsi qarşıya əsas vəzifə kimi qoyulub. Bu prinsip Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri zamanı daim diqqətdə saxlanılıb, bərpa prosesi vahid idarəetmə mexanizmi əsasında təşkil olunub. Elə bu məqsədlə də yaradılan Əlaqələndirmə Qərargahı tərəfindən bütün layihələrin icrasına nəzarət yüksək səviyyədə reallaşdırılıb, müxtəlif dövlət qurumlarının fəaliyyəti əlaqələndirilərək işlərin sürətli şəkildə həyata keçirilməsi təmin edilib.

Xatırladaq ki, məhz bu mərkəzləşdirilmiş idarəetmə modeli sayəsində qısa müddət ərzində nəhəng infrastruktur layihələrinin icrası mümkün olub. Cəmi 5 il ərzində regionda yollar, tunellər, körpülər, elektrik stansiyaları, yarımstansiyalar, su anbarları, magistral kommunikasiya xətləri və beynəlxalq hava limanları tikilərək istifadəyə verilib.

Hazırda işğaldan azad olunmuş ərazilərin bərpasında nəqliyyat infrastrukturunun inkişafı xüsusi yer tutur. Bu, ilk növbədə, regionun ölkənin ümumi nəqliyyat sisteminə inteqrasiyasını sürətləndirir. Bu baxımdan Füzuli, Zəngilan və Laçında beynəlxalq hava limanlarının salınması strateji əhəmiyyət daşıyır. Qısa müddətdə Qarabağın “hava qapısı”na çevrilən Füzuli Beynəlxalq Hava Limanının, ardınca isə Zəngilan və Laçın aeroportlarının istifadəyə verilməsi ilə regionun logistika imkanlarının daha da genişləndirməsi bunun bariz ifadəsidir.

Bununla yanaşı, Horadiz–Ağbənd dəmir yolu xətti, yeni avtomobil magistralları, tunellər və körpülər regionun daxili və xarici nəqliyyat əlaqələrinin genişlənməsinə mühüm töhfə verir. Xüsusilə Zəngəzur dəhlizi perspektivi Qarabağ və Şərqi Zəngəzurun beynəlxalq logistika mərkəzinə çevrilməsi imkanlarını artırır.

İşğaldan azad edilən ərazilərdə yol-nəqliyyat infrastrukturunun yenidən qurulması Kəlbəcər, Laçın, Zəngilan, Füzuli və digər rayonlara köç prosesinin mərhələli şəkildə həyata keçirilməsini şərtləndirir. Avtomobil yolları ilə təmin olunan yaşayış məntəqələri iqtisadi fəaliyyətin bərpası, sosial xidmətlərin təşkili və turizm layihələrinin reallaşdırılması üçün əlverişli mühit yaradır. Bu da, öz növbəsində, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın uğurla icrasına, insanların doğma yurdlarına inamla dönməsinə müsbət təsir göstərir.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda tikilən hər bir yol Azərbaycanın müasir dövlət quruculuğu fəlsəfəsinin canlı təcəssümüdür. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bu nəhəng infrastruktur proqramı təkcə regionun deyil, bütövlükdə, ölkənin iqtisadi dinamikasını dəyişir. Yeni yollar, tunellər və körpülər həm Azərbaycanın texnoloji gücünü, həm də iradəsini nümayiş etdirir, bu coğrafiyada həyatın canlandığından, dövlətin hər qarış torpağına qayğı ilə yanaşdığından xəbər verir.

## Xarabalıqdan “ağıllı” və “yaşıl” məskənlərə...

Prezident İlham Əliyev “Euronews” televiziyasına sözügedən müsahibəsində işğal altındakı ərazilərin genişmiqyaslı dağıntılara məruz qalması səbəbindən indiyədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırıldığını, mərhələli yanaşma, bəzi hallarda isə paralel inkişaf nəticəsində 5 il müddətində artıq 85 min insanın doğma torpaqlarına qayıdışının təmin olunduğunu qeyd edib. Ölkə rəhbəri, eyni zamanda, qayıdışın dayanıqlı olması üçün təkcə evlərin tikilməsinin kifayət etmədiyini, insanların məşğulluğunun gerçəkləşdirilməsinin, iqtisadi fəaliyyət imkanları yaradılmasının əsas prioritetlərdən olduğunu vurğulayıb.

Qarabağ və Şərqi Zəngəzurda sənaye parkları, aqroparklar, logistika mərkəzləri və turizm layihələrinin uğurla icrası da elə bu məqsədə xidmət edib. Ağdam Sənaye Parkı, “Araz Vadisi İqtisadi Zonası” və digər təşəbbüslər regionda yeni iş yerlərinin açılmasını və iqtisadi fəallığın artmasını şərtləndirib. Ötən 5 il ərzində aqrar sektorun inkişafına da xüsusi diqqət yetirilməsi, regionun münbit torpaq ehtiyatlarından və əlverişli iqlim şəraitindən səmərəli yararlanılması, eləcə də müasir suvarma sistemləri, eləcə də innovativ kənd təsərrüfatı texnologiyalarına üstünlük verilməsi də qarşıya qoyulan vəzifənin reallaşmasında önəmli rol oynayıb.

Ölkə rəhbəri, ilk növbədə, elektrik enerjisi məsələsinin həllini tapdığını, bugünədək 307 meqavatlıq hidroenerji gücü istifadəyə verildiyini və 340 meqavat gücündə Günəş enerjisi layihələrini isə hazırda inşa edildiyini diqqətə çatdırıb. O, bu həcmin təkcə Qarabağ və Şərqi Zəngəzurla bərabər, daha geniş ərazilər üçün də kifayət edəcəyini, bununla yanaşı, elektrik şəbəkəsinin ölkənin ümumi enerji sistemi ilə inteqrasiyasının gerçəkləşdiyini xatırladıb.

Qarabağ və Şərqi Zəngəzurun bərpasında tətbiq edilən əsas yanaşmalardan biri “ağıllı” şəhər və “ağıllı” kənd konsepsiyasıdır. Bu, işğaldan azad olunmuş ərazilərdə köhnə sovet tipli şəhərsalma modelini deyil, müasir və innovativ idarəetmə sistemlərini tətbiq edir. Konsepsiya çərçivəsində yaşayış məntəqələrində rəqəmsal idarəetmə, enerji səmərəliliyi, ekoloji təhlükəsizlik, müasir kommunal xidmətlər və yüksək həyat standartları nəzərdə tutulur. Artıq Zəngilan rayonunun Ağalı kəndi “ağıllı” kənd layihəsinin ilk uğurlu nümunəsi kimi tarixə düşməklə diqqət çəkir. Burada alternativ enerji mənbələrindən yararlanılması, evlərin müasir texnologiyalarla təmin edilməsi, kənd təsərrüfatında innovativ yanaşmalar tətbiq olunması diqqətdə saxlanılır.

Qarabağın bərpasında “yaşıl” inkişaf konsepsiyası prioritet istiqamətlərdən biridir. Azərbaycan dövləti regionu “yaşıl enerji zonası” elan etməklə burada ekoloji cəhətdən dayanıqlı iqtisadi model formalaşdırmağı hədəfləyib. Çünki region zəngin su, günəş və külək enerjisi potensialına malikdir. Bu potensialdan səmərəli istifadə məqsədilə bir sıra hidroelektrik stansiyalar tikilərək istifadəyə verilib. Günəş və külək enerjisi layihələrinin reallaşdırılması istiqamətində də mühüm addımların atılmasına başlanılıb.

“Yaşıl” enerji siyasəti təkcə enerji təhlükəsizliyinə xidmət etmir. Bu yanaşma, eyni zamanda, karbon emissiyalarının azaldılması, ekoloji tarazlığın qorunması və dayanıqlı şəhərsalma modelinin qurulması baxımından mühüm əhəmiyyət daşıyır. Tikinti sektorunda enerji səmərəliliyi standartlarının tətbiqi, müasir istilik sistemlərinin qurulması və ekoloji təmiz materiallardan istifadəyə üstünlük verilməsi də bu siyasətin mühüm elementləri sırasında yer alır.

## Çağdaş məskunlaşmaya töhfə

Qarabağın bərpası artıq təkcə Azərbaycanın daxili məsələsi deyil, bu proses həm də regional əməkdaşlıq və beynəlxalq iqtisadi inteqrasiya baxımından mühüm əhəmiyyət kəsb edir. Regionun nəqliyyat-logistika imkanları Orta Dəhliz layihəsi, TRACECA proqramı və Şərq – Qərb nəqliyyat marşrutları çərçivəsində strateji önəm daşıyır. Bununla yanaşı, Qarabağda keçirilən beynəlxalq tədbirlər, forumlar və sərgilər bu coğrafiyanın yeni inkişaf simasını dünyaya təqdim edir. Bu tədbirlər Azərbaycanın postmünaqişə dövründə sülh, inkişaf və əməkdaşlıq gündəliyinə sadiqliyini nümayiş etdirir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq işləri müasir Azərbaycanın iqtisadi gücünün və siyasi iradəsinin bariz nümunəsidir. Azərbaycan dağıdılmış torpaqları qısa müddətdə regionun ən müasir və inkişaf etmiş məkanlarından birinə çevirməyə nail olur. Ən vacib məqamlardan biri isə budur ki, bu bərpa prosesi yalnız fiziki infrastrukturun qurulması deyil, həm də milli yaddaşın, sosial ədalətin və tarixi hüququn bərpasıdır. Öz doğma yurdlarından didərgin salınmış insanların geri qayıtması dövlətin və xalqın mənəvi qələbəsinin davamıdır.

Prezident İlham Əliyevin həyata keçirdiyi Böyük Qayıdış siyasəti göstərir ki, Azərbaycan postmünaqişə dövründə də qalib dövlət kimi inkişaf və quruculuq modelini uğurla davam etdirir. Qarabağ və Şərqi Zəngəzurda yaradılan yeni həyat isə təkcə Azərbaycanın deyil, bütövlükdə regionun gələcək inkişaf xəritəsini müəyyənləşdirən mühüm strateji mərhələdir.

*Vaqif BAYRAMOV*
*XQ*

# Tarixin “ağıllı şəhər” modeli

**Şəki “təbii yollarla qurulmuş ağıllı şəhər” modelinin ən gözəl nümunələrindən biridir. Bu şəhər texnologiyanın deyil, təbiətə uyğun düşünülmüş memarlığın və insan təcrübəsinin məhsuludur.**




XVIII əsrdə orta əsr şəhərsalma ənənələrnə uyğun qurulmuş bu şəhər əsrlər boyu müxtəlif təsirlərə məruz qalmasına rəğmən öz ruhunu itirməmişdir. Xanlıq dövrünün hökmranlığı, İpək Yolunun əzəməti hələ də bu şəhərdə yaşayır. Bu gün müasir texnologiyalarla qurulmuş ağıllı şəhərlərdən danışarkən biz heç tərəddüd etmədən Şəkinin təbii yollarla qurulmuş ağıllı şəhər olduğunu deyə bilirik.

Azərbaycanın qədim şəhərlərindən biri olan Şəki özünəməxsus memarlıq üslubu, şəhərsalma prinsipləri və təbiətlə harmoniyası ilə diqqət çəkir. Şəki tarixi inkişaf prosesində texnoloji müdaxilə olmadan, sistemli şəkildə formalaşmış, ağıllı şəkildə qurulmuşdur. Şəki təbii yollarla qurulmuş ağıllı şəhər, texnologiyanın minimum, təbiətin və insan təcrübəsinin maksimum istifadə olunduğu, öz-özünü “ağıllı” şəkildə tənzimləyən şəhər modelidir. Burada idarəedici kompüterlər yox, memarlıq, iqlimə uyğunlaşma və həyat tərzidir. Şəkini fərqləndirən əsas xüsusiyyətlər iqlimə uyğun memarlıq, öz-özünü tənzimləyən mühit və yerli materiallardan istifadədir. Bu xüsusiyyətlər birlikdə şəhərin davamlı və rahat olmasını təmin edir. Şəki memarlığı paralel olaraq həm insan, həm də ətraf mühit mərkəzli qurulmuşdur.

Müasir dünyada “insan mərkəzli memarlıq” dedikdə insan ehtiyaclarını, davranışlarını, sağlamlığını və rifahını sırf estetik və ya standartlaşdırılmış tendensiyalardan üstün tutan dizayn yanaşması nəzərdə tutulur. Bu yanaşma müasir urbanistikada yeni trend hesab olunsa da, Şəkidə hələ XVIII əsrdə tətbiq olunub.

Belə ki, Şəkidə hər məhəllədən əsas küçəyə çıxan qısa piyada yollarının olması insanların rahatlığını və əlçatanlığı təmin edən əsas amillərdəndir. Şəkinin, demək olar ki, hər məhəlləsinin öz məscidi, öz hamamı olub ki, bu da sənətkarlıq və ya ticarətlə məşğul olan şəxslərin öz məhəllələrindən uzaqlaşmadan qüsul almasına, ibadət etməsinə şərait yaradıb. Eyni zamanda, şəhərdə olan çoxsaylı məscidlər, karvansaralar, bazarlar və hamamlar kimi ictimai məkanlar sosial münasibətləri gücləndirib, həyat keyfiyyətini artırıb.

Şəkidə evlər insanların məşğuliyyətinə uyğun şəkildə inşa olunub. Belə ki, bir çox evlərin birinci mərtəbəsi ya istehsal, ya da satış məqsədli, ikinci mərtəbəsi isə yaşayış üçün tikilib. Nəticədə, evlərin həm eksteryer, həm də interyer planlamasında mərtəbələr arasında fərqlilik meydana çıxıb. Çox vaxt birinci mərtəbəsi geniş qapı və pəncərə açırımlı evlərin ikinci mərtəbəsi dekorativ fasad tərtibatı, küçəyə baxan eyvanları, pəncərə quruluşları ilə fərqlənib.

Şəki, eyni zamanda, ətraf mühit mərkəzli dizayn olunub. Ətraf mühit mərkəzli dizayn binanın və ya şəhər mühitinin layihələndirilməsində əsas diqqətin təbiətin qorunmasına, resursların səmərəli istifadəsinə və ekoloji tarazlığın saxlanmasına yönəldildiyi yanaşmadır. Şəkidə evlər, körpülər, karvansara və hamamlar insan üçün yaradılıb, ancaq bu memarlıq abidləri yaradılarkən təbiətə zərər verilməyib. Şəki şəhəri iqlimə və relyefə uyğun planlaşdırılıb. Burada memarlıq təbiətə uyğunlaşdırılıb: binalar dağ yamacına uyğun tikilib, buna görə də bir çox tikililər şimaldan bir, cənubdan iki və ya üç mərtəbəlidir. Bu şəhərdə istifadə olunan materiallar yayda sərin, qışda isə isti mühit yaradır.

Müasir ağıllı şəhərlərdə yaşıl enerji, ağıllı evlər, enerjiyə qənaət kimi prinsiplərdən söhbət açılır. Təbii yollarla qurulmuş ağıllı şəhər olan Şəki şəhərinin də memarlığında belə nüanslar nəzərə alınıb. Belə ki, memarlıq elementlərinin düzgün yerləşməsi və iqlimə uyğun planlama ilə Şəki evlərində təbii havalandırma təmin olunur. Təbii havalandırma sistemi, xüsusilə buxarılar vasitəsilə hava dövranının təmin edilməsi insan rahatlığını təmin etməklə yanaşı, enerji sərfiyyatını da azaldır. Eyni zamanda, daş və kərpiclə tikilmiş divarların qalınlığı qışda otaqları soyumaqdan, yayda isə həddindən artıq isinməkdən qoruyur. Evlərin damının ekoloji təmiz kirəmitlə örtülü olması ətraf mühitin çirklənməsinin qarşısını alır.

Şəhərin planlanmasında təbiətlə uyğunlaşma əsas prinsip kimi çıxış edir. Küçələrin relyefə uyğun formalaşması, ağacların yaratdığı kölgə süni soyutmaya ehtiyacı azaldır, dar küçələr isə yay aylarında sərinlik təmin edir. Yağış sularının təbii şəkildə axıdılması şəhərin ekoloji balansını qoruyur. Şəkinin təbii yolla qurulması, təbiətlə harmoniyada olması paralel olaraq öz-özünü tənzimləyən mühit yaradıb. Şəkinin divarlarla əhatələnmiş bağçalı həyət evləri özünəməxsus mikroiqlimə sahibdir. Beləliklə, şəhər süni müdaxilə olmadan öz iqlimini tənzimləyə bilir.

Bu gün Şəki həm də dayanıqlı şəhər modeli kimi diqqət çəkir. Tarixi irsini qorumaqla yanaşı, müasir dövrün tələblərinə uyğun inkişaf etməyə çalışır. “Açıq səma altında muzey” kimi tanınan şəhər yalnız tarixi abidələr toplusu deyil, eyni zamanda, yaşayan və inkişaf edən bir mühitdir. Məhz bu xüsusiyyətlərinə görə Şəki beynəlxalq səviyyədə də tanınır. Şəhər müxtəlif mədəniyyətlərin qarşılıqlı təsirini və ənənəvi yaşayış formasını qoruduğu üçün dünya irsi kimi qiymətləndirilir.

Nəticə etibarilə, Şəki texnologiya ilə deyil, insan zəkası və təbiətlə harmoniyanın nəticəsi kimi formalaşmış unikal şəhər modelidir. Bu şəhərin təcrübəsi göstərir ki, davamlı və ağıllı şəhər quruculuğu üçün bəzən ən yaxşı həll yolları məhz keçmişin uğurlu nümunələrində gizlidir. Şəki təbiətlə harmoniyada qurulmuş nadir şəhərdir. Bu şəhər bizə göstərir ki, gələcəyin şəhərlərini qurmaq üçün keçmişin təcrübəsini və müasir tendensiyaları birlikdə istifadə etməliyik.

*Zəminə RƏSULOVA,*
*Dövlət Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 151** **18 may 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 yanvar tarixli 6 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli və "AYNA" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 noyabr tarixli 526 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 yanvar tarixli 6 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5-ci hissədə "(ölkəyə gəlmək haqqında icazə, yüklərin yüklənməsinə icazə, üçüncü ölkəyə tranzit gediş üçün icazə)" sözləri "(ikitərəfli yük daşımaları üçün "İcazə" blankı, ikitərəfli və tranzit yük daşımaları üçün "İcazə" blankı, tranzit yük daşımaları üçün "İcazə" blankı, üçüncü ölkəyə/ölkədən yük daşımaları üçün "İcazə" blankı, ikitərəfli, tranzit və üçüncü ölkəyə/ölkədən yük daşımaları üçün "İcazə" blankı, beynəlxalq qeyri-müntəzəm sərnişin daşımaları üçün "İcazə" blankı, Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli illik "İcazə" blankı (jurnalı), Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli qısamüddətli (aylıq) "İcazə" blankı (jurnalı)" sözləri ilə əvəz edilsin;

1.1. 7-ci hissəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"İcazə" blanklarının elektron mübadiləsini Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi ilə edən ölkələrlə mübadilə yalnız elektron qaydada, digər ölkələr ilə mübadilə isə kağız daşıyıcıda həyata keçirilir. Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli "İcazə"lərinin əldə edilməsi və verilməsi yalnız elektron qaydada həyata keçirilir.";

1.2. 8-ci hissəyə "İcazə" blankı" sözlərindən əvvəl "Kağız daşıyıcıda olan" sözləri əlavə edilsin;

1.3. 10-cu hissəyə "üçün" sözündən sonra "kağız daşıyıcıda olan" sözləri əlavə edilsin;

1.4. 11-ci hissə üzrə:

1.4.1. birinci abzasa "İcazə" blankı"nın" sözlərindən əvvəl "kağız daşıyıcıda olan" sözləri əlavə edilsin;

1.4.2. onuncu abzasa "İcazə" blankı"nın" sözlərindən əvvəl "Kağız daşıyıcıda olan" sözləri əlavə edilsin;

1.4.3. on dördüncü abzasa "İcazə" blankı" sözlərindən əvvəl "kağız daşıyıcıda olan" sözləri əlavə edilsin;

1.5. aşağıdakı məzmunda 11-1-ci və 11-2-ci hissələr əlavə edilsin:

"11-1. Elektron qaydada mübadilə edilən və verilən "İcazə" blankında aşağıdakı məlumatlar əks olunur:

11-1.1. "İcazə" blankını verən ölkə;

11-1.2. "İcazə" blankının verildiyi ölkə;

11-1.3. "İcazə" blankının eyniləşdirmə nömrəsi;

11-1.4. "İcazə" blankının verildiyi tarix;

11-1.5. "İcazə" blankının ili;

11-1.6. "İcazə" blankının etibarlılıq müddəti;

11-1.7. "İcazə" blankının növü;

11-1.8. nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı;

11-1.9. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və ya yük daşımaları fəaliyyətinin operatorunun adı;

11-1.10. beynəlxalq sərnişin və ya yük daşımalarının başladığı ölkə;

11-1.11. beynəlxalq sərnişin və ya yük daşımalarının bitdiyi ölkə;

11-1.12. mübadilə edən tərəflərin qarşılıqlı şəkildə müəyyən etdiyi əlavə qeydlər.

11-2. Elektron qaydada əldə edilən və verilən Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli qısamüddətli (aylıq) və çoxtərəfli illik "İcazə" blankında (jurnalında) aşağıdakı məlumatlar əks olunur:

11-2.1. ölkə kodu;

11-2.2. "İcazə" blankının (jurnalının) növü;

11-2.3. "İcazə" blankının (jurnalının) nömrəsi;

11-2.4. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və ya yük daşımaları fəaliyyətinin operatorunun nəqliyyat vasitəsinin ekoloji sinfi;

11-2.5. "İcazə" blankını (jurnalını) verən orqanın adı;

11-2.6. "İcazə" blankının (jurnalının) verilmə yeri;

11-2.7. "İcazə" blankının (jurnalının) verilmə tarixi;

11-2.8. "İcazə" blankının (jurnalının) etibarlılıq müddəti;

11-2.9. məhdudiyyət tətbiq edilən ölkələrin siyahısı;

11-2.10. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və ya yük daşımaları fəaliyyətinin operatorunun adı, ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);

11-2.11. yola düşmə tarixi;

11-2.12. təyinat məntəqəsinə çatma tarixi;

11-2.13. yüklənmə məntəqəsi;

11-2.14. boşaltma məntəqəsi;

11-2.15. yüklənilən ölkə;

11-2.16. boşaldılan ölkə;

11-2.17. nəqliyyat vasitəsinin (dartıcının, qoşqunun və yarımqoşqunun) qeydiyyatda olduğu ölkə;

11-2.18. nəqliyyat vasitəsinin (dartıcının, qoşqunun və yarımqoşqunun) dövlət qeydiyyat nişanı;

11-2.19. yükün ümumi çəkisi;

11-2.20. səfərdən əvvəl və sonra yürüş göstəricisi (kilometr);

11-2.21. Beynəlxalq Nəqliyyat Forumu tərəfindən müəyyən edilən xüsusi qeydlər.";

1.6. 14-cü hissəyə "İcazə" blanklarının" sözlərindən əvvəl "Kağız daşıyıcıda olan" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 154** **20 may 2026-cı il, Bakı şəhəri**

**Dəmiryol nəqliyyatı vasitəsilə sərnişinlərin Azərbaycan Respublikasına giriş-çıxışı ilə bağlı bəzi məsələlər haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Müəyyən edilsin ki, 2026-cı il 25 may saat 00:00-dan dəmiryol nəqliyyatı vasitəsilə Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycana vizasız gəlmə hüququ olan bütün xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikası ilə Gürcüstan arasında giriş-çıxışına icazə verilir.

**2.** "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I); 2024, № 3, maddə 308, № 6 (II kitab), maddə 732, № 9, maddə 1103, № 12 (II kitab), maddə 1450; 2025, № 3, maddə 295, № 6, maddə 600, № 9, maddə 875, № 12 (II kitab), maddə 1252; 2026, № 3, maddə 282) 1.1.1-ci yarımbəndinə "daşımaları" sözündən sonra "və dəmiryol nəqliyyatı vasitəsilə Azərbaycan Respublikası ilə Gürcüstan arasında sərnişin daşımaları" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti bu Qərardan irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 155** **21 may 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gəmi agenti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 893 (Cild I); 2024, № 3, maddə 328, № 5 (II kitab), maddə 612; 2025, № 5, maddə 507, № 8, maddə 805) ilə təsdiq edilmiş "Gəmi agenti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.3. səlahiyyətli şəxsi Azərbaycan Respublikasının dəniz nəqliyyatı sahəsində normativ hüquqi aktların tələbləri, liman adətləri, dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı xidmətlərə görə tariflər, o cümlədən Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 61.5-ci maddəsinə uyğun olaraq dəniz nəqliyyatı sahəsində göstərilən xidmətlərə görə haqqın məbləğləri, habelə tarif və xidmət haqları üzrə ödənişlərin həyata keçirilməməsinin hüquqi nəticələri barədə məlumatlandırmaq;".

**2.** Aşağıdakı məzmunda 4.1.3-1-ci yarımbənd əlavə edilsin:

"4.1.3-1. gəmilərin limana gəlməsi, limanda olması və limandan çıxması barədə məlumatları Agentliyə elektron qaydada təqdim etmək;".

**3.** 4.1.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.12. səlahiyyətli şəxsin adından maliyyə tapşırıqları üzrə ödənişləri (o cümlədən, bu Əsasnamənin 4.1.3-cü yarımbəndində qeyd olunmuş tarif və xidmət haqları üzrə ödənişləri) icra etmək və bununla bağlı sənədləri səlahiyyətli şəxsə təqdim etmək;".

**4.** 4.1.15-ci yarımbəndə "Agentliyə" sözündən sonra "elektron qaydada" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 159** **21 may 2026-cı il, Bakı şəhəri**

**"Vahid xəzinə hesabının qalığının idarəetməyə verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 245-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 avqust tarixli 466 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Vahid xəzinə hesabının qalığının idarəetməyə verilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

**2.** "Büdcə ili ərzində vahid xəzinə hesabının sərbəst qalığının idarəetməyə verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 aprel tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 389 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2026-cı ilin iyun ayında vətəndaşların qəbulu

## CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu | 2 |
| Baş nazirin müavini<br>Şərifov Samir Rauf oğlu | 3 |
| Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu | 4 |
| İqtisadiyyat şöbəsinin müdiri<br>Həsənova Sevinc Telman qızı | 5 |
| Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu | [illegible] |
| Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu | 9, 24 |
| Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu | 25 |
| Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu | 11, 29 |
| Humanitar məsələlər şöbəsinin müdiri<br>Həbibbəyli Ərəstü İsa oğlu | 12 |
| Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu | 16 |
| Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu | 17 |
| Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu | 18 |
| Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu | 8, 19 |
| Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu | 10, 22 |
| Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu | [illegible] |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012) 492-19-23, (012) 492-88-96.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 153** **20 may 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 328-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 211 (Cild I); 2025, № 12 (II kitab), maddə 1257; 2026, № 1, maddə 84, № 2, maddə 196) ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 3.25.3-cü yarımbəndinin birinci cümləsindən "6 ay" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 156** **21 may 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019 cu il 10 may tarixli 216 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yerin təkinin (qiymətli və əlvan (o cümlədən nəcib) metallar, qiymətli daş yataqları və təzahürləri istisna olmaqla) istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi hallarının Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119 cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026 cı il 17 mart tarixli 380 VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 7 aprel tarixli 639 nömrəli Fərmanının 3.2 ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019 cu il 10 may tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 950 (Cild I); 2024, № 3, maddə 306, № 9, maddə 1093) ilə təsdiq edilmiş "Yerin təkinin (qiymətli və əlvan (o cümlədən nəcib) metallar, qiymətli daş yataqları və təzahürləri istisna olmaqla) istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi hallarının Siyahısı"nın 9 cu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 10 cü abzas əlavə edilsin:

"10. qeyri filiz faydalı qazıntı yataqlarının öyrənilməsi, kəşfiyyatı, işlənilməsi və idarə olunması məqsədilə yer təki sahələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən birbaşa olaraq paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin istifadəsinə verildikdə.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 158** **21 may 2026-cı il, Bakı şəhəri**

**"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 275-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 noyabr tarixli 524 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# “Bakı Fəaliyyətə Çağırış” sənədi

Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) fəaliyyətə yönəlmiş xarakterindən ilhamlanan “Bakı Fəaliyyətə Çağırış” sənədi kollektiv, birgə hazırlanmış, ədalətli və inklüziv bir prosesin nəticəsidir. Bu sənəd idarəetmənin müxtəlif sektorları və səviyyələri üzrə maraqlı tərəflərin, o cümlədən vətəndaş cəmiyyəti təşkilatları, qadınlar, yaşlılar, uşaqlar və gənclər, yerli xalqlar, mütəxəssislər, akademik dairələr, tədqiqatçılar, yerli və regional hakimiyyət orqanları, əlilliyi olan şəxslər, parlament üzvləri, özəl sektor və mənzil təminatı dəyər zəncirində çalışan digər iştirakçıların müxtəlif töhfələrini özündə ehtiva edir.

Bu sənəd Ümumdünya Şəhərsalma Forumundan əvvəl hərtərəfli maraqlı tərəflərlə aparılan kompleks məsləhətləşmələrin ilkin prosesi boyunca aylarla davam edən fəaliyyətin nəticəsidir. Biz bu irəliləyişi alqışlayır və ona sevinirik, bunu davamlılığı və hesabatlılığı təmin etmək üçün müntəzəm çoxtərəfli iştirak mexanizmini əsas götürərək əvvəlki və sonrakı məsləhətləşmələrlə birlikdə WUF dövrü ərzində standart təcrübə kimi qəbul olunmasına çağırış edirik.

176 ölkədən 58 mindən çox iştirakçının qatıldığı və bu günə qədər keçirilən ən böyük WUF tədbirinə ev sahibliyi etdiyinə görə Azərbaycan Hökumətinə səmimi minnətdarlığımızı bildiririk. Tarixdə ilk dəfə olaraq, ev sahibi ölkənin təşəbbüsü ilə 27 dövlət və hökumət başçısı, yüzdən çox nazir, Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibinin müavini  və yüksəksəviyyəli bir neçə rəsmi şəxs Liderlər Sammitində iştirak edib. WUF13-ün yeniliklərinə Bakı Şəhərsalma Mükafatı, Biznes və İnnovasiya Mərkəzi, WUF Akademiyası kampusu və Təcrübə Mərkəzi daxildir.

**PREAMBULA**

Qlobal mənzil böhranı kritik həddə çatır. Bu böhran təsadüfi deyil, dərin struktur, sistem və idarəetmə uğursuzluqlarının nəticəsidir. Bu, polikrizis mülkiyyətdən məhrumetmə, müstəmləkəçilik, irqçilik, bərabərsizlik və digər tarixi, cari kontekstlərlə əlaqəli mürəkkəb, bir-biri ilə əlaqəli amillərdən qaynaqlanır.

Dünyada təxminən 3,4 milyard insan adekvat mənzil təminatından məhrumdur.

Ev, sadəcə, dörd divardan ibarət bir bina deyil. Bu, ləyaqət, kimlik və ən əsası isə təhlükəsiz gələcək üçün bir təməldir. Bu, ictimai məkanlar, məktəblər, səhiyyə müəssisələri və s. kimi digər ictimai obyektlərin və xidmətlərlə əlaqəli bir sistemin əsas elementidir. Buna görə də mənzil sosial və ekoloji funksiyasına görə qəbul edilməli və şəhər hüququ, sosial müdafiə və iqtisadi artım üçün daha geniş bir vizyona inteqrasiya olunmuş inkişaf gündəliyinin mərkəzində duran insan hüququ kimi prioritetləşdirilməlidir.

- Bütün dünyada mənzillərin maliyyələşdirilməsi və əmtəələşdirilməsi şəhər bərabərsizliyini və yoxsulluğu dərinləşdirir. Evlər əlçatmaz olur, bu da gentrifikasiya və məkan bərabərsizliyini, evsizliyi artıran qısamüddətli kirayələrin çoxalması ilə daha da çətinləşir;
- Zəif torpaq idarəetməsi və planlaşdırma sistemləri məkan seqreqasiyası, infrastruktur bərabərsizliyi və genişlənmədən qaynaqlanan bir çox şəhər və mənzil problemlərinin mərkəzində dayanır ki, bu da tez-tez bazar spekulyasiyasına və insanların yaşayış yerlərini dəyişməsinə səbəb olur;
- Qlobal və milli öhdəliklərə baxmayaraq, mənzil üçün dövlət maliyyəsi azalır və ənənəvi maliyyə parçalanmış, qısamüddətli və mənzil tikintisinin planlaşdırıldığı, xidmət göstərildiyi, təkmilləşdirildiyi, tikildiyi və idarə edildiyi ərazilərlə zəif əlaqəli olaraq qalır;
- Yerli və regional hökumətlər şəhər transformasiyasının ön sıralarında dayanır, çox vaxt şəhər və mənzil böhranını həll etmək üçün mandata, imkana, yaxud resurslara malik olmurlar;
- Münaqişə, müharibə və urbisid məktəblər, xəstəxanalar, ictimai obyektlər, evlər kimi mülki infrastruktur sahələrinə birbaşa təsir göstərir və insanların tez-tez qaçqın, yaxud məcburi köçkün kimi evsiz qalmasına səbəb olur;
- Şəhər mərkəzləri, meqapolislər və ikinci dərəcəli şəhərlər demoqrafik baxımdan sürətlə dəyişir. Onların əksəriyyəti əlilliyi olan şəxsləri, gəncləri, uşaqları, qadınları, yerli xalqları və yaşlıları dəstəkləyən, onlara qayğı göstərən nəsillərarası mənzil sistemlərinə olan tələbatı ödəmək üçün mübarizə aparır;
- Dünyada məcburi köçürülmələr artaraq birbaşa köçürülməyə və mənzil böhranının daha da ağırlaşmasına səbəb olur. Bir evin sökülməsini görmək yalnız şəxsi əşyaların itirilməsi deyil, həm də uzunmüddətli zehni, emosional və fiziki travma deməkdir;
- Dünyada şəhərlər güclü daşqınlar, şəhərin istilik dalğası və pis hava keyfiyyəti daxil olmaqla iqlim dəyişmələrinin təsirinə məruz qalır. Qeyri-adekvat mənzil şəraitində yaşayan ailələr dəyişən iqlimin qeyri-mütənasib təsirləri ilə üzləşirlər;
- Tarixən qadınlar qayğı yükünü daşıyıblar və bu gün də mənzil, əmlak mülkiyyəti, məşğulluq, əsas xidmətlər, mobillik və digər məsələlərlə bağlı struktur maneələrlə üzləşirlər;
- İqtisadi böhran və buna səbəb olan digər amillər ailələri və fərdləri misli görünməmiş sürətlə evsiz qoyur. Bir çox şəhərlərdə evsizliyə görə cinayət məsuliyyətinə cəlb etməyi seçirlər, ancaq bu problemin həll yolları və alternativ yollarla bağlı təkliflər azdır;
- Dünyada mənzil təminatı su və sanitariya, elektrik enerjisi, bağlantı, ictimai xidmətlər, təhsil, səhiyyə və təmiz hava kimi daha geniş iqtisadi və infrastruktur sistemlərinə lazımi səviyyədə inteqrasiya olunmur. İnfrastrukturun və təməl xidmətlərin əlaqələndirilməməsi, texniki xidmət göstərilməməsi və maliyyələşdirilməməsi mənzil çatışmazlığının təsirlərini daha da kəskinləşdirir;
- Beton kimi tikinti və inşaat materiallarından, aşağıkarbonlu alternativlərdən, ənənəvi və yerli tikinti üsullarından istifadə qlobal istixana qazı tullantılarının təxminən üçdəbirini təşkil edir;
- Qeyri-adekvat peşəkar potensial, məlumatlar və faktlar çox vaxt zəif qərarqəbuletmə prosesinə səbəb olur, istismarçı təcrübələri və korrupsiyanı təşviq edir.

Bu ortaq xüsusiyyətlərə baxmayaraq, hər bir məhəllə, şəhər, ölkə, region və qitə fərqlidir. Bu böhranın həqiqi mahiyyətini anlamaq üçün yerli və milli konteksti öyrənmək vacibdir.

Bu qlobal çağırışın miqyası qətiyyətli, razılaşdırılmış və təxirəsalınmaz cavab tədbirləri tələb edir. Bu Fəaliyyətə Çağırışın mərkəzində mənzil məsələlərinin yenidən prioritetləşdirilməsi, inteqrasiya olunmuş mənzil siyasətlərinin idarə edilməsi, mütəşəkkil çoxtərəfli fəaliyyət, uzunmüddətli maliyyələşdirmə, təkmilləşdirilmiş icra potensialı, çoxsəviyyəli idarəetmə, davamlı dövlət investisiyası və ölçüləbilən hesabatlılıq mexanizmləri ilə dəstəklənməsi tələb olunur.

**DİAQNOZDAN FƏALİYYƏTƏ KEÇİD**

Biz beynəlxalq səviyyədə tanınan insan hüququ kimi Adekvat Mənzil Təminatının qəbul edilməsindən tutmuş Yaşayış Mühiti Proseslərinə, 2030-cu il Gündəliyinə və Gələcək Paktına qədər mənzil məsələlərində çoxtərəfli fəaliyyətə gətirib çıxaran davamlı öhdəlikləri yüksək qiymətləndiririk. Yeni Şəhər Gündəliyinin 10-cu ildönümünü qeyd etdiyimiz bir ildə üzv dövlətləri qlobal mənzil böhranının daha səmərəli həlli üçün icranı sürətləndirməyə və BMT-nin Məskunlaşma Proqramının tərəfdaşlıq və koordinasiya kimi hərəkətverici funksiyasını gücləndirməyə çağırırıq.

BMT-nin Məskunlaşma Proqramının 2026-2029-cu illərdə Strateji Planı hamı üçün adekvat mənzil üzrə Hökumətlərarası Açıq Tərkibli Ekspert İşçi Qrupu vasitəsilə mənzil məsələlərində fəaliyyətin sürətləndirilməsi məqsədilə bir proqram təqdim edir. Üzv dövlətlər və maraqlı tərəflər işçi qrupunda fəal iştiraka, ekspertlərin və mütəxəssislərin namizədliyini irəli sürməyə və az təmsil olunan qrupların daxil edilməsini təmin etməklə inklüziv iştirakın təşviqinə çağırılırlar.

Növbəti onilliyi və sonrakı beş WUF sessiyasını (2026-2036) Yeni Şəhər Gündəliyinin icrasını sürətləndirmək və Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə nəzərəçarpacaq irəliləyişə nail olmaq üçün Fəaliyyət onilliyi kimi təqdim etmək baxımından gözəl bir fürsət yaranır. WUF-un nəticələri izləniləbilən öhdəlikləri əhatə etməli, uğurlu proqramları və layihələri sənədləşdirməli, 2030-cu ildən sonrakı gündəliyin hazırlanmasında nəzərə alınmaq üçün icra yollarını paylaşmalıdır.

Regional və milli proseslər mənzil gündəliyində güclü siyasi dinamika yaratmağa kömək edir. Yeni Şəhər Gündəliyinin Nazirlər İclasının xülasəsi, İkinci Afrika Şəhər Forumunun Nayrobi Bəyannaməsi (aprel 2026) və s. adekvat, əlverişli, inklüziv və iqlimədayanıqlı mənzil məsələlərində iddialı prioritetləri müəyyənləşdirir. Bu sənəd, həmçinin Cənub-Cənub və Şimal-Cənub əməkdaşlığının öyrənilməsinin və əməkdaşlığın yeni formalarının mümkünlüyünü təqdim edir.

Bu fəaliyyətə çağırışlar üç sahəyə bölünür: mənzil böhranının əsas hüquqlarını və hərəkətverici amilləri qəbul etmək, onun birbaşa təzahürlərinə qarşı tədbirlər görmək və hər kəsə ədalətli, inklüziv, dayanıqlı və davamlı gələcək üçün mənzil sistemlərini dəyişdirmək.

**ƏSAS HÜQUQLARIN VƏ HƏRƏKƏTVERİCİ AMİLLƏRİN QƏBUL EDİLMƏSİ**

**1. İnsan hüquqlarını qoruyun, onlara hörmət edin və onları təmin edin!**

Müxtəlif kontekstlərdə mənzil hüquq kimi deyil, əmtəə kimi qəbul olunmağa davam edir, evlərin sökülməsi, münaqişələr və köçürülmələr ləyaqətə, təhlükəsizliyə və yaşayış təsərrüfatlarına xələl gətirir. Biz məcburi köçürülmələrə qarşı təminat, daha güclü mülkiyyət, kirayəçilərin müdafiəsi və ədalətə çıxış daxil olmaqla, mənzil məsələsində insan hüquqları yanaşmasının tam şəkildə qəbuluna və tətbiqinə çağırırıq. Beynəlxalq təşkilatların dəstəyi ilə milli və yerli hökumətlər bunları mənzilin sosial, ekoloji funksiyasını tanıyan və qoruyan hüquqi, siyasi, torpaqdan istifadənin planlaşdırılması və institusional çərçivə sənədlərinə daxil etməlidirlər. Biz regional, milli və yerli mənzil sistemləri daxilində icma tərəfindən idarə olunan və iştirakçı yanaşmaların institusionallaşdırılmasına çağırış edirik.

**2. Evlərimizi qoruyun!**

Ailələr, fərdlər və məcburi köçkünlər tez-tez qeyri-sabit və ya keyfiyyətsiz mənzillərdə yaşamağa məcbur edilir ki, bu da onları yenidən yaşayış yerini dəyişməyə, qeyri-sabitliyə və təcrid olunmağa məruz qoyur. Biz humanitar yardımı, bərpa və uzunmüddətli inkişafı əlaqələndirən, həssas və münaqişədənsonrakı şəraitdə iqlim dəyişmələrinə dayanıqlı və insanlara yönəlmiş şəhər bərpasını təşviq edən, onların inkişafa və iqlim maliyyəsinə çıxışını asanlaşdıran inteqrasiya olunmuş mənzil yanaşmalarının tətbiqinə çağırırıq. Milli və yerli hökumətlər, humanitar və inkişaf məsələləri ilə məşğul olanlar, beynəlxalq qurumlar mənzil və vacib mülki infrastrukturu qorumalı, köçkünlüyə və dağıntılara qarşı qorunma tədbirlərini gücləndirməli, bu qorunmaların səmərəli şəkildə həyata keçirilməsini təmin edən mexanizmləri dəstəkləməlidirlər. Ev sahibi Azərbaycan Hökuməti də daxil olmaqla, münaqişədənsonrakı yenidənqurma üçün əhəmiyyətli qlobal presedentlər mövcuddur.  Yenidənqurma və bərpa səylərinə, nəticədə məcburi köçkünlərin evlərinə qayıtmasını prioritetləşdirmək üçün əlaqələndirilmiş yanaşmaya çağırırıq. “Sərbəst və Əvvəlcədən Məlumatlandırılmış Razılıq” prinsipi bütün Milli Hökumətlər tərəfindən təmin edilməlidir.

**3. Müxtəlifliyimizi qəbul edin!**

Mənzil sistemləri yerli xüsusiyyətləri, torpağa və mənzilə çıxışı formalaşdıran, bir çoxları üçün təcrid olunmanı və qeyri-bərabər nəticələri gücləndirən cins, etnik mənsubiyyət, mədəniyyət, yaş, əlillik, hüquqi status və vətəndaşlıq kimi müxtəlif reallıqları nəzərə almamağa davam edir. Biz insanları siyasətin və icranın mərkəzinə yerləşdirən, müxtəlif qrupları həmmüəlliflər kimi tanıyan mənzil məsələsində nəsillərarası və çoxplanlı yanaşmaların tətbiq olunmasına çağırırıq. Vətəndaş cəmiyyəti və yerli hərəkatlar hökumət, özəl sektor və mütəxəssislərlə birlikdə mənzil siyasətində müxtəlifliyi tətbiq etməli və qorumalıdırlar.

**4. Evlərimizi iqlim dəyişmələrinə dayanıqlı edin!**

İqlim dəyişmələrinin təsirləri mənzil təhlükəsizliyini və yaşayış yerlərinin dəyişmələrini sürətləndirir, məhəllələr, şəhərlər və bölgələrdə onsuz da sosial, iqtisadi və ekoloji qeyri-sabitliklə üzləşən icmalara qeyri-mütənasib şəkildə təsir göstərir. Tez-tez təkrarlanan daşqınlar, quraqlıqlar, biomüxtəlifliyin itirilməsi, çirklənmə, kəskin istilər və pisləşən hava keyfiyyəti ictimai sağlamlığa, ekosistemlərə, dolanışıq vasitələrinə, yaşayış üçün rahatlığa və ümumi həyat keyfiyyətinə dağıdıcı təsir göstərir. Biz iqlim ədalətinə sadiq olan və ekoloji cəhətdən şüurlu urbanizasiya və planlaşdırma ilə dəstəklənən təbiətə əsaslanan, icma tərəfindən idarə olunan və yerli həllər vasitəsilə iqlim dəyişmələrinə müqaviməti möhkəmləndirən, biomüxtəlifliyi qoruyan və zərərli təsirləri azaldan mənzil sistemləri yaratmağa çağırış edirik. Biz dayanıqlı infrastruktur, bərpaolunan enerji, təməl xidmətlər, fəlakətlərə hazırlıq və onların qarşısının alınması, dolanışıq imkanları və sosial şəbəkələr istiqamətində makromilli və yerli hökumət fəaliyyətləri ilə yanaşı, insanlar tərəfindən idarə olunan yerli və ənənəvi təcrübələri gücləndirməyə çağırırıq.

**BİRBAŞA TƏZAHÜRLƏRƏ QARŞI TƏDBİRLƏR**

**5. Ev inteqrasiyanın katalizatoru kimi!**

Mənzillər çox vaxt infrastrukturdan, əsas xidmətlərdən və iqtisadi imkanlardan təcrid olunmuş şəkildə yerləşir, şəhərlərin plansız genişlənməsi, məkan üzrə ayrı-seçkilik və zəif əlaqələndirilmiş torpaq istifadəsi planlaşdırılması isə aşağıgəlirli ailələri iş yerlərindən, xidmətlərdən və imkanlardan uzaq olan kənar və təcrid edilmiş ərazilərə sıxışdırır. Biz mənzilləri nəqliyyat, xidmətlər, dolanışıq imkanları, təbii və mədəni irslə əlaqələndirən inteqrasiya olunmuş və iştirakçılığa əsaslanan, gender yanaşmasını nəzərə alan məkan planlaşdırılması yanaşmasına çağırırıq. Eyni zamanda, qarışıq, inklüziv və lazımi xidmətlərlə təmin edilmiş nəsillərarası məhəllələrin təşviqi vacibdir. Biz peşəkarları, akademik dairələri, tədqiqat institutlarını hökumət və vətəndaş cəmiyyəti ilə birlikdə mənzil, iqtisadi imkanları, nəqliyyatı əhatə edən inteqrasiya olunmuş şəhərsalma və məqsədyönlü subsidiyalar üzrə ortaq baxış formalaşdırmağa çağırırıq.

**6. Mənzillərin hər kəs üçün əlçatan olmasını təmin edin!**

Torpaq qiymətlərinin artması, əmlak spekulyasiyası, qısamüddətli icarələr, qeyri-sabit əmək bazarları, məhdud mənzil təklifi və maliyyəyə qeyri-bərabər çıxış səbəbindən mənzil getdikcə daha əlçatmaz olur, bu isə bir çox ailələri evsizlik və qeyri-qənaətbəxş yaşayış şəraitinə məcbur edir. Biz əlçatanlığın artırılması üçün davamlı tədbirlərə çağırırıq; bunlara kirayə və sosial mənzillərə çıxışın genişləndirilməsi, inklüziv zonalaşdırmanın təşviqi, subsidiyaların və xərclərin azaldılması strategiyalarının gücləndirilməsi, spekulyativ təcrübələrin tənzimlənməsi, əmlak vergisi sistemlərinin və müxtəlif gəlir qrupları üçün maliyyəyə çıxış imkanlarının təkmilləşdirilməsi daxildir. Biz parlament üzvlərini və milli hökumətləri əlçatanlığı qoruyan qanunvericilik tədbirləri qəbul etməyə, eyni zamanda, dövlət mənzil proqramları, İnkişaf Maliyyə İnstitutları (DFI), özəl sektor və fərdi tikinti təşəbbüsləri vasitəsilə mənzil təminatını artırmağa çağırırıq.

**7. Ayrı-seçkilik olmadan mənzil təmin edin!**

Məhəllələr yalnız fiziki quruluş və yerləşmədən ibarət deyil, onlar qayğı, sosial əlaqə, mədəniyyət, təhlükəsizlik və kollektiv həyat məkanlarıdır ki, insan potensialının, rifahın və icma mənsubiyyətinin inkişafına imkan yaradır. Biz genderi, müxtəlifliyi və cinsi oriyentasiyanı nəzərə alan, genderəsaslı zorakılığın aradan qaldırılması, ictimai və ortaq məkanların gücləndirilməsi, universal və inklüziv mənzil dizaynının təşviqi vasitəsilə əlçatanlığı, yaxınlığı, təhlükəsizliyi, rifahı və sosial inklüzivliyi dəstəkləyən mənzil yanaşmalarına çağırırıq. Biz hökumətləri, peşəkar qurumları və vətəndaş cəmiyyətini sosial həmrəyliyi gücləndirən, ayrı-seçkiliyi azaldan, təhlükəsizliyi, sağlamlığı və ləyaqəti yaxşılaşdıran inklüziv və müxtəlif təyinatlı məhəllələrin formalaşdırılması üçün aydın qaydalar hazırlamağa çağırırıq.

**8. Məcburi köçürmələri dayandırın!**

Məcburi köçürmələr və yerdəyişmələr beynəlxalq səviyyədə tanınmış insan hüquqlarının kobud şəkildə pozulması hesab olunur, mənzil təhlükəsizliyini azaldır, dolanışıq vasitələrini məhv edir, iqlim böhranını dərinləşdirir, insan ləyaqətini sarsıdır və icma sistemlərini zəiflədir, çox vaxt isə adekvat təminatlar və alternativlər olmadan həyata keçirilir. Biz məcburi köçürmələrə və yerdəyişmələrə qarşı daha güclü müdafiə mexanizmlərinin yaradılmasına çağırırıq. Bunlara hüquqi təminatlar, monitorinq mexanizmləri və yaşayış hüququnun təhlükəsizliyini təmin edən qabaqlayıcı yanaşmalar daxildir. Eyni zamanda, yerində yenidənqurma, icmaəsaslı yanaşmalar, eləcə də köçürmənin qaçılmaz olduğu hallarda adekvat kompensasiya və alternativlərin təmin edilməsi prioritet olmalıdır. Parlament komitələri, hökumət qurumları, insan hüquqları institutları və BMT agentliklərinin dəstəklədiyi beynəlxalq təşkilatlar məcburi köçürmələrin və yerdəyişmələrin qlobal miqyasda monitorinqi, xəritələndirilməsi və aradan qaldırılması üçün hesabatlılığı gücləndirməli və daimi çoxtərəfli mexanizmlər yaratmalıdırlar.

**MƏNZİL SİSTEMLƏRİNİN TRANSFORMASİYASI**

**9. Mənzil yanaşmalarını şaxələndirin!**

Milyonlarla insan artıq özünün tikdiyi, mərhələli və qeyri-formal mənzil sistemləri vasitəsilə şəhərlərin formalaşmasına töhfə verir, lakin bu reallıqlar hələ də siyasətdən və hüquqi tanınmadan kənarda qalır. Biz mərhələli mənzil tikintisini, şəhər miqyasında qeyri-formal yaşayış məntəqələrinin yaxşılaşdırılmasını, leqallaşdırmanı, kirayə və sosial mənzilləri, kooperativləri, icma torpaq fondlarını, inklüziv mənzil layihələrini və icmaəsaslı yaşayış təşəbbüslərini əhatə edən müxtəlif və yerli şəraitə əsaslanan yanaşmaya çağırırıq. Biz milli və yerli hökumətlər, vətəndaş cəmiyyətləri, mənzil təminatçıları və operatorları, özəl sektorun maliyyə institutları və bankları arasında daha güclü əməkdaşlığı təşviq edirik. Bu əməkdaşlıq dövlət, özəl, icma, mikro və qarışıq maliyyə alətlərinin kombinasiyası vasitəsilə tələbatyönümlü proqramların innovativ şəkildə təşviqinə xidmət etməlidir.

**10. Mənzillər üçün torpaq təmin edin!**

Artan urbanizasiya, maliyyələşmənin genişlənməsi və zəif torpaq idarəetmə sistemləri torpaq qiymətlərinin yüksəlməsinə, əmlak spekulyasiyasına, məkan bərabərsizliyinə və yaşayış hüququnun qeyri-sabitliyinə səbəb olur. Biz torpaq bazarlarının uyğun şəkildə tənzimlənməsi, spekulyasiyanın qarşısının alınması, əmlak vergisi, inklüziv mənzil siyasəti, inkişaf ödənişləri və torpaq dəyərinin ədalətli bölüşdürülməsi vasitəsilə torpaq sistemləri üzərində daha güclü dövlət və yerli nəzarətə çağırırıq ki, bu da xidmətlərlə təmin olunmuş və riskləri azaldılmış torpağa bərabər çıxışı təmin etsin. Biz parlamentləri və milli qurumları torpaq idarəçiliyinin yerli hakimiyyət orqanlarına həvalə edilməsinə çağırırıq. Yerli hökumətlər, torpaq institutları, icmalar və inkişaf tərəfdaşları inklüziv və hesabatlı torpaq idarəetmə sistemlərini inkişaf etdirməklə yanaşı, torpaqdan istifadə hüquqlarını və müdafiə mexanizmlərini gücləndirməlidirlər.

**11. Maliyyəni ehtiyac olan yerlərə yönəldin!**

Mənzil maliyyələşdirmə sistemləri hələ də parçalanmış, əlaqələndirilməmiş və əlçatmaz olaraq qalır, dövlət investisiyaları məhduddur, kreditlərə çıxış qeyri-bərabərdir və mövcud mexanizmlər aşağıgəlirli ailələrə və icmalara çatmır. Biz inklüzivliyi və genişmiqyaslı tətbiqi prioritetləşdirən mənzil maliyyələşdirmə zəncirinin yenidən nəzərdən keçirilməsinə çağırırıq. Bu məqsədlə fiskal muxtariyyət və gəlir formalaşdırma strategiyalarına xüsusi diqqət yetirməklə bələdiyyə maliyyəsinin gücləndirilməsi vacibdir. Biz inkişaf banklarını və özəl sektoru kreditlərə çıxışı prioritetləşdirməyə, ərazi xüsusiyyətlərinə uyğun, uzunmüddətli və proqnozlaşdırılabilən maliyyələşdirmə mexanizmləri yaratmağa çağırırıq ki, bu imkanlar xüsusilə ən çox ehtiyacı olan insanlar üçün əlçatan olsun.

Biz özəl sektoru milli və yerli hökumətlərlə, mərkəzi banklarla, maliyyə institutları və təşkilatlanmış icma yığım sistemləri ilə əməkdaşlığa çağırırıq ki, risklərin hesablanması və idarə olunması, məqsədyönlü subsidiyaların tətbiqi, kreditlərə çıxışın genişləndirilməsi və qarışıq maliyyələşdirmə sahəsində yeni yanaşmalar formalaşdırılsın. Biz parlament üzvlərini və milli maliyyə qurumlarını dövlət subsidiyalarını şaxələndirməyə, bununla da özəl və icmaəsaslı yığım sistemlərini də əhatə edən müxtəlif mənzil yanaşmalarını dəstəkləməyə çağırırıq.

**12. Çoxsektorlu və çoxtərəfli yanaşmanı təşviq edin!**

Parçalanmış planlaşdırma sistemləri mənzili torpaq, infrastruktur, nəqliyyat, dolanışıq vasitələri və əsas xidmətlərdən ayıraraq sosial təcridi, məkan bərabərsizliyini və qeyri-səmərəli şəhər inkişafını daha da gücləndirir. Biz mənzilin daha geniş ərazi və şəhər inkişaf çərçivələrinə inteqrasiya olunduğu, eyni zamanda, bərabərliyi, inklüzivliyi, məkan ədalətini və şəhər hüququnu təşviq edən inteqrasiya olunmuş və sisteməsaslı planlaşdırma yanaşmalarına çağırırıq. Biz bu prosesin nəticələrinin birgə formalaşdırılması üçün yerli hökumətlərin, vətəndaş cəmiyyəti təşkilatlarının, ictimai hərəkatların və özəl sektor nümayəndələrinin səlahiyyətlərinin genişləndirilməsi yolu ilə həyata keçirilməsini vacib hesab edirik.

**13. Çoxsəviyyəli və iştirakçılığa əsaslanan idarəetməni gücləndirin!**

Səmərəli mənzil sistemləri hökumətin bütün səviyyələri, eləcə də ictimai hərəkatlar, vətəndaş cəmiyyəti, peşəkarlar və inkişaf tərəfdaşları arasında güclü əməkdaşlıq, tərəfdaşlıq və koordinasiya tələb edir. Ortaölçülü şəhərlərdən meqapolislərə qədər yerli və regional hökumətlər çox vaxt lazımi səlahiyyət, maliyyə və institusional dəstək olmadan icra vəzifəsini yerinə yetirməyə məcbur olurlar. Biz üzv dövlətləri məsuliyyət bölgüsünü dəqiqləşdirən, institutlar, sektorlar və maraqlı tərəflər arasında koordinasiyanı yaxşılaşdıran, həmçinin mərkəzsizləşdirilmiş maliyyələşdirmə, iştirakçı planlaşdırma alətləri, gücləndirilmiş institusional və icra potensialı vasitəsilə yerli və regional hökumətlərin imkanlarını artıran struktur islahatlar həyata keçirməyə çağırırıq. Milli hökumətlər, yerli və regional hakimiyyət orqanları, icmalar, peşəkarlar, inkişaf tərəfdaşları və vətəndaş cəmiyyəti inklüziv mənzil təminatını, şəhər miqyasında qeyri-formal yaşayış məntəqələrinin yaxşılaşdırılmasını və yerliəsaslı şəhər transformasiyasını dəstəkləyən metropoliten və regional miqyaslı çoxsəviyyəli və çoxtərəfli idarəetmə mexanizmlərini gücləndirməlidirlər.

**14. İcra, hesabatlılıq və öhdəliklərin yerinə yetirilməsinə sadiq olun!**

Mənzil sahəsində öhdəliklər kifayət qədərdir, lakin zəif əlaqələndirmə, məhdud potensial və qeyri-səmərəli sistemlər səbəbindən onların icrası hələ də gözlənilən səviyyədən aşağıdır. Biz aydın fəaliyyət istiqamətləri, ölçüləbilən hədəflər, güclü monitorinq və hesabatlılıq mexanizmləri ilə müşayiət olunan milli mənzil strategiyalarının həyata keçirilməsinə çağırırıq. Bununla yanaşı, icra potensialını gücləndirən təhsil, təlim və peşəkar inkişaf sistemlərinə davamlı investisiyanın artırılması vacibdir.

Biz vətəndaş cəmiyyətini, yerli və milli hökumətləri tərəfdaşlıqlar qurmağa, güclü milli məskunlaşma forumları və birgə komitələr yaratmağa təşviq edirik ki, bu da potensialın artırılmasına, əlaqələndirmənin gücləndirilməsinə, uğurlu təcrübələrin sənədləşdirilməsinə və tərəqqinin monitorinqinə xidmət etsin. Qlobal səviyyədə isə BMT-nin Məskunlaşma Proqramını Yeni Şəhər Gündəliyinin icrasını izləmək və uğurlu mənzil təcrübələrinin genişləndirilməsi üçün əsas platforma kimi Ümumdünya Şəhərsalma Forumundan istifadə etməyə çağırırıq.

**15. Bilik və məlumatlardan ictimai maraqlar naminə istifadə edin!**

Mənzil sistemləri çox vaxt zəif torpaq qeydiyyatı, qeyri-kafi mənzil və bazar araşdırmaları, qeyri-dəqiq siyahıyaalma və detallaşdırılmamış demoqrafik məlumatlar, məhdud iqtisadi göstəricilər və köhnəlmiş informasiyalarla fəaliyyət göstərir ki, bu da sürətlə dəyişən ehtiyaclara, təbii fəlakətlərə və uzunmüddətli planlaşdırmaya adekvat cavab verməyi çətinləşdirir. Biz yerli və icmaəsaslı məlumatları elmi və akademik biliklərlə birləşdirən sübuta əsaslanan yanaşmaya güclü sadiqliyə çağırırıq. Biz akademik institutları, tədqiqat tərəfdaşlarını və praktik mütəxəssisləri bilik və potensial boşluqlarını aradan qaldırmağa, eyni zamanda, süni intellektin imkanlarını inteqrasiya etməyə çağırırıq ki, daha güclü analitik və empirik çərçivələr formalaşdırılsın. Biz beynəlxalq təşkilatları, hökumətləri və akademik icmanı xüsusilə Qlobal Cənubda tədqiqatları sürətləndirmək üçün daha çox resurs cəlb etməyə təşviq edirik. Buraya iştirakçılığa əsaslanan planlaşdırma prosesləri üçün peşəkarların, dövlət rəsmilərinin, vətəndaş cəmiyyətinin və ictimai hərəkatların potensialının artırılmasına yönəlmiş məqsədyönlü proqramların hazırlanması da daxildir.

Sonda biz səmimi qonaqpərvərliyə görə Azərbaycan Hökumətinə və xalqına minnətdarlığımızı bildiririk. “Bakı Fəaliyyətə Çağırış” sənədi mənzil böhranını onun köklərində həll etməyə yönəlmiş iddialı bir çağırışdır. Biz birlikdə bu çağırışları heç kəsi kənarda qoymadan həll etməliyik.

**Qeyd:** “Bakı Fəaliyyətə Çağırış” məsləhətləşmələrə və müzakirələrə əsaslanaraq WUF13-lə bağlı maraqlı tərəflərin tələbatlarını nəzərə alan yekun sənəddir. Bu sənəd hökumətlərarası razılaşdırılmış nəticə deyil, üzv dövlətlərin, yaxud Birləşmiş Millətlər Təşkilatının Katibliyinin fikirlərini və ya rəsmi mövqelərini mütləq əks etdirmir.

Sabir Rüstəmxanlı – 80

# Taleyini vətənləşdirən istiqlal nəğməkarı

**Bugünlərdə görkəmli ictimai-siyasi xadim, Xalq şairi, Türk dünyasının sevimli sənətkarı, Milli Məclisin bir neçə çağırış deputatı seçilmiş Sabir Rüstəmxanlının anadan olmasının 80 illiyi ölkəmizdə və qardaş məmləkətlərdə təntənə və qədrbilənliklə qeyd edilir.**



Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə “Şərəf” ordeninə (daha əvvəl “Şöhrət” ordeninə) layiq görülən Sabir Xudu oğlu Rüstəmxanlı 1946-cı il mayın 20-də Yardımlı rayonunun Hamarkənd obasında doğulub. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. “Cəlil Məmmədquluzadə və folklor” mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. Dünya Azərbaycanlıları Konqresinin həmsədridir.

Çoxsaylı və dəyərli kitabların müəllifi olan Sabir Rüstəmxanlı əsərlərinə oxucuların hər zaman maraq və sevgi ilə üz tutduqları qələm sahiblərindəndir. Məhsuldar fəaliyyəti ilə seçilən Xalq şairimiz bu gün də bir-birindən gözəl əsərlər yazıb-yaratmaqdadır. Böyük istedadı, dönməz əqidəsi və sağlam siyasi təfəkkürü hər zaman onun yol bələdçiləri olub.

Yubiley günlərində Xalq şairi ilə görüşmək çətin idi. Bir neçə dəfə telefonla danışdıq, vədələşdik. Onun rəhbərlik etdiyi VHP-nin sədr müavini, İcra Aparatının rəhbəri Samir Əsədli də müsahibəmizin alınması üçün əlindən gələni etdi. Nəhayət, Kulis.az saytının müxbiri Sevinc Mürvətqızı ilə birlikdə şairi sual “yağış”ına tuta bildik və cavablarını qələmə aldıq. Həmin müsahibəni oxuculara təqdim edirik:

**– Sabir müəllim, şanlı yubileyinizi təbrik edirik! Birbaşa suallara keçək. Siz çoxdan Vətən obrazına, yurd simvoluna çevrilmiş bir sənətkarsınız. Azərbaycan sevdası, yurd məhəbbəti, qan yaddaşında yaşayan türkün bütövlüyünə və bu bütövlüyün qayıdışına inam fəlsəfəsi bütün zamanlarda yaradıcılığınızın əsas qayəsini, məramını təşkil edib, sizi milli Azərbaycan şairindən böyük Türk dünyası şairi səviyyəsinə yüksəldib. Maraqlıdır, ən böyük həyat dərsini kimlərdən almısınız?**

– Gözəl sözlərə görə sağ olun. Həyat dərsimə gəlincə isə, onu öncə atamdan, babamdan almışam. O dərs düzlükdür, imandır, dünyanın gəlimli-gedimli olduğunu dərk etməkdir, kimsəyə pislik etməməkdir, imkan daxilində əl tutmaqdır, çətinliyin önündə əyilməməkdir. Sonra böyük bir ailəni öz halal zəhmətilə dolandırmaqdır, qapısından içəri haram buraxmamaqdır; Tanrıya inam və keçmişlərin xatirəsini uca tutmaqdır... Mən bunu yazmışam “Atamın ruhu” kitabında.

Bizim evlərimizdə hər axşam neçə nəslin xatirəsi yad edilərdi. O məhz kişilik söhbəti idi ki, filan babamız belə kişi olub, bu cür yaşayıb. Bu, yaddaşdır. Yaddaşını itirən millət ölür. Yaddaş nəsilləri bir-birinə bağlayır. Yaddaş tarixdir, illər və nəsillər arasında körpüdür. O vaxt kənd yeri idi, radio, televiziya yox idi, amma böyük bir yaddaş vardı. Məsələn, kənddə istənilən bir ağsaqqalı dindirsən, 20-30 nağıl, neçə dastan danışa bilərdi, onlarla bayatı deyərdi.

İndi gedib soruşun, görün, nə deyəcəklər? Təbii ki, başqa şeylər bilirlər, mən onları inkar etmirəm, pis də baxmıram. Amma mənim dediyim tamam ayrı bir mühit idi, mən o mühitdən çıxmışam...

**– Düzlükdən danışdınız, sizcə, düz düzdə qalır, yoxsa düz elə düz də qalır?**

– Düz əyrini yüz yerdən kəsir, belə deyirlər. Bilmirəm, bəlkə də bu gün düzlükdən, halallıqdan danışmaq kimlərəsə sadəlövhlük kimi görünə bilər. Amma hərənin bir həyat prinsipi var. Mənim yolum o ənənələrə, kökə bağlılıqdır. Belə tərbiyə almışıq. İndi 80 yaşında bundan danışmaq bir az qəribədir, çünki sən artıq özün babasan, ağsaqqalsan. Köhnə ağsaqqallardan danışmaq bəzən yersiz görünə bilər. Amma hər kəs bir yol tutub gəlir, o yolu da istəyir ki, övladları davam etdirsinlər.

Bizim yolumuz belə olub. İki cür yaşamaq var: Bir, sənə qədər olan hər şeyi inkar edirsən, onları əhəmiyyətsiz, köhnəlmiş, keçmiş, bu gün heç kimə lazım olmayan sayırsan... Bir də var o keçmişi sən torpaq kimi, öz ailən kimi, hava kimi, içdiyin su kimi həyatının təbii təməli sayırsan. Yaxşıdır, pisdir, hər nə cürdürsə, onu dəyərləndirirsən. Mən həm həyatımda, həm də yazılarımda keçmişi bəzən ideallaşdırmışam, bəzən olduğundan da böyük göstərməyə çalışmışam. Bu mənim yolumdur.

Məsələn, “Ömür kitabı”m Azərbaycanın tarixini və keçmişini böyük görmək istəyimdən doğulub. Və əslində də belədir. Əlbəttə, həyatımıza və xalqımıza dahi böyüklərimiz Sabir kimi, Mirzə Cəlil kimi baxmaq da var. Onlar çar Rusiyasında millətin çəkdiyi əzabları qəbul etmir və buna dözə bilmirdilər. Ona görə də o cür – qeyri-adi bir qəzəblə, təbii ki, daha yaxşı görmək istəyi ilə yazırdılar. O baxış da sevgidən doğulurdu.

Kök birdir, mən onların ruh övladıyam. Onlar o cür görürdü və qamçılayırdı. Amma mən qamçılamıram, tarixlə bağlı yazdığım “Göy Tanrı”, “Ölüm zirvəsi”, “Difai fədailəri”, “Şair və Şər”, “Akademikin son əsəri”, nəhayət, “Xətai yurdu, xalq meydanı” silsilə romanlarımda tarixin faciələri ilə yanaşı, pozitiv, işıqlı, qəhrəmanlıqla dolu olan, yeni nəslə örnək, müsbət enerji ilə çağlayan tərəfini göstərməyə çalışmışam. Qəhrəmanlarım tarixin təkərini fırladan adamlardır.

**– Təbii ki, dünəndən öyrənməli çox şey var. Siz də daim bu yolla getmisiniz...**

– Elədir. Kim mənə deyə bilər ki, Tanrıçılıq, Oğuz xan dönəmini olduğu kimi, Dədə Qorqud ruhuna yaxın bir ruhda, göstərmək özünü aldatmaqdır? Əksinə, bu həqiqətə yaxınlaşmaqdır. Bizim çox böyük bir tariximiz var, Azərbaycanın və bütövlükdə türklərin böyük tarixi var. Param-parça olublar, niyə? Hansı güclərin qarşısında? Sonra hansı faciəli yolları keçiblər? Keçmişin dilinə, folkloruna dərindən nüfuz eləyəndə görürsən ki, orda söyülməli, inkar olunmalı, aşağılanmalı heç nə yoxdur.

Əgər biz bu gün o ənənələrdən qopmuşuqsa, özümüz özümüzü söyməliyik, o tarixə toxunmaq olmaz. O tarix böyük tarixdir. Buna görə də mənim vətən sevgim elə-belə dəb xatirinə olan, yaxud da dərsliklərdən gələn, kiminsə öyrətdiyi bir şey deyil. Bu, ruhumun diktəsindən, daxili inamdan, qan yaddaşımdan gəlir:

*Bu Vətən deyilən dünyam sirlidir,*
*Bir paytaxtı sevinc, bir paytaxtı qəm.*
*Bu Vətən torpağı çox qəribədir,*
*Hələ sərhədini tapammıram mən.*

*… Arzu da beləcə sərhədsiz olur,*
*Ümman da beləcə, göy də beləcə.*
*Ruhumuz sərhədsiz olduğu üçün*
*Payımız gəlibdi göydən beləcə!..*

**– Meydan hərəkatında öndə olmağınızın səbəbi də, yəqin ki, elə o ruhun diktəsi idi…**

– Mən meydan hərəkatına doğru uzun bir yol gəlmişdim. Gəncə adının yasaq olduğu dövrdə “Gəncə qapısı” kitabımı buraxdım və çox geniş müzakirələri keçirildi, gənclər arasında geniş yayıldı. Ardınca “Sağ ol, ana dilim” kitabım nəşr olundu. O vaxt Bakı küçələrində hamı rusca danışırdı və o şeir də elə bütün auditoriyanın rusca danışdığı bir yerdə oxunmuşdu. Sonra “Qan yaddaşı” kitabım gəldi. Yazmışdım ki, “görünür, tarixin də unutduğu həqiqət çıxmır qan yaddaşından”.

Tarix kitablarımız ayrı cür yazırdı, amma uşaqlarımız qan yaddaşı ilə bağlanırdılar torpaqlarına. Bunun dalınca “Ömür kitabı”nı yazdım. O kitab əldən-ələ gəzirdi, qızlara cehiz kimi verilirdi. Bu barədə çox yazılıb, təkrar edirəm. Ona görə də oxucunun belə bir inamı var idi ki, bu kitabları yazan adam millətinə yalan deməz.

Xalq meydanda məni o cür qəbul edirdi. Onda tribunada siyasətçilər yox idi, daha çox ədəbiyyatçılar – Xəlil Rza Ulutürk, Bəxtiyar Vahabzadə, mən və bir neçə başqa qələm dostum vardı. Bir şeirimdə yazmışdım: “Bəlkə mən son dayağam, sınsam Vətən də sınar”.

Məni siyasətə 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycanın yaşadığı faciələr gətirib. Namərd qonşularımız torpaqlarımıza göz dikmişdilər, Qarabağı zorla Ermənistana birləşdirmək istəyirdilər. Təəssüf ki, Moskva da, bəzi dünya ölkələri də onları müdafiə edirdilər. Belə bir vəziyyətdə Azərbaycanın rəsmi dairələrinin müqavimət göstərmək ixtiyarı yox idi. Sadəcə, ümid edirdilər ki, Moskva məsələyə baxacaq və obyektiv şəkildə həll edərək Ermənistanı yerində oturdacaq. Amma bu, olmadı. Əksinə, Ermənistanı silahlandırdılar, Azərbaycanda isə hətta ov silahlarını da yığışdırdılar.

Azərbaycan boş əllə qaldı düşmən qarşısında. Lakin xalq kortəbii şəkildə olsa da, müqavimət göstərirdi, öz el-obasını qorumaq istəyirdi. O vaxt biz – sadə adamlar və ziyalılar, fikir adamları – Vətəni sevən insanlar hamısı rəhbərliyin zəifliyinə, müqavimətsizliyinə, Moskvaya inanmasına və onun qulu olmasına etiraz edirdik və küçələrə, meydanlara çıxırdıq.

Mən də o vaxt həmin hadisələrin önündə olanlardan biri idim. Sonra proseslər getdi, Azərbaycan faciələrdən keçdi və dəfələrlə – 88-ci ildə, 90-cı ildə Bakıya ordu yeridildi, Yanvar qırğını oldu, amma millət geri çəkilmədi. 1991-ci ilin yazında referendum da keçirildi ki, Azərbaycan SSRİ-dən qopsun, ya qopmasın. Onda cəmi 43 deputat Azərbaycanın müstəqilliyinə qol çəkmişdi. Əsl istiqlalçılar onlar idi.

Nəhayət, avqustda Müstəqillik Bəyannaməsi, oktyabrda xalqın tələbi ilə Müstəqillik haqqında Konstitusiya Aktı qəbul edildi və mən də istiqlalımız uğrunda proseslərdə yaxından iştirak etməyimə çox sevindim. Hakimiyyət dəyişdi, amma çox böyük çətinliklər də oldu, qarışıqlıqlar törədildi, vətəndaş müharibəsi təhlükəsi yarandı. Ermənilər də bir yandan müharibəyə başlamışdılar. Ölkə bütün bu oyunlardan xilas olsun deyə, o vaxt Naxçıvanda yaşayan təcrübəli siyasi xadim Heydər Əliyev hakimiyyətə dəvət edildi. Təbii ki, dövlət idarəçiliyi sahəsində tanınan siyasi xadim olan Heydər Əliyev ölkədaxili sabitliyi qoruyub saxladı, cəbhədə atəşkəsə nail oldu.

Həmin ərəfələrdə biz də artıq Vətəndaş Həmrəyliyi Partiyasını yaratmışdıq. Bu gün çox qürur duyuram ki, Azərbaycan üçün çox zəruri olan həmrəylik ideyasının yayılmasında bizim partiyanın da rolu böyükdür. Ötən 34 ildə biz daim birlik, həmrəylik uğrunda çalışmışıq, iqtidar-müxalifət münasibətlərinin ölkənin mənafeləri naminə sabit axarda formalaşmasını, qütblərin bir-biri ilə dil tapa bilməsini istəmişik.

**– Siyasətdə təmiz qala bilmək asandırmı?**

– Siyasətə xalqın iradəsilə gəldiyimə görə burada darıxmamışam və özümü heç vaxt tək hiss etməmişəm, hətta Milli Məclisin deputatı olanda bir məsələ haqda tək mən danışsam da, bilmişəm ki, milyonlarla insan mənim kimi fikirləşir. Belə olanda cəsarət tapırsan. İnsan biləndə ki, dediyi düzdür, millətin mənafeyinə, milli dəyərlərə, dünyanın qəbul etdiyi prinsiplərə uyğundur, onda daha cəsarətli olur. Çətindir, amma mümkündür.

**– Sabir müəllim, mühüm vəzifələrdə çalışmısınız. Hər zaman da başlıca şüarınız “Vətən, xalq” olub. Qələmi də heç vaxt yerə qoymamısınız. Zamanın çağırışları və ürəyin hökmü vəhdətdə olub. Bütün bunları necə çatdırmısınız?**

– Çalışmışam ki, çatdırım. O vaxt biz ilk müstəqil demokratik qəzetimizi – “Azərbaycanı”ı buraxdıq. Mətbuat Komitəsini çevirib Mətbuat və İnformasiya Nazirliyi elədik, beynəlxalq qurumlarda bu nazirliyi təmsil elədik, qəzetlər və informasiya agentliklərinin lisenziya almasının qarşısındakı bütün əngəlləri aradan qaldırdıq; senzuranın ləğvi, latın qrafikasına keçid, yeni ideologiya ilə dərsliklərin nəşri, Şahmat Federasiyasının prezidentliyi və Dil Qurumunun yaranması, Dünya Azərbaycanlıları Konqresinə rəhbərlik, “Vətəndaş Həmrəyliyi” partiyası və qəzetinin təsis edilməsi, “Qarabağın səsi”, ”Bakı–Təbriz”, “Türk dünyası” jurnallarını nəşr etməyim... Bunlar mənim ömrümün ayrı-ayrı fəsilləridir. Bunlar, məncə, lazımlı işlərdir, lakin ədəbi taleyimin böyük bir parçasını əlimdən aldı.

Təbii ki, çox vaxtım getdi. Əvvəllər cavan idim, hiss etmirdim, səhərdən axşama kimi danışırdım, gəzirdim, görüşlər, çıxışlar… Amma axşam gəlib oturub 20–25 səhifə də yazı yazırdım. Sonra 1988-ci ildə meydan hərəkatı başladı, elə həmin ildən 1995-ci ilə kimi – 7 il ərzində bir kitab belə çap etdirə bilmədim. O illərdə müstəqillik eşqi bizi elə havalandırmışdı ki, kitab yada düşmürdü. Yəni bir növ, ədəbi taleyimiz millətin taleyinə qurban getdi. Peşman deyiləm, ancaq, hər halda, daha çox yaza bilərdim. Bu barədə bir şeirimdə demişəm:

*Neçə yazılmamış şeirlərimi*
*Atdım meydanların izdihamına,*
*Qatdım millətimin gur ilhamına,*
*Bircə söz saxladım – Azadlıq sözü,*
*Dönüb, yumruq olmaq öyrətdim ona.*

Kağıza yazılmalı sözlərimi yumruğa çevirdim. Vaxt gəlir, yumruqlar açılır, amma söz qalır, şübhəsiz…

**– Keçən il “Seçilmiş əsərlər”inizin nəşri yekunlaşdı. AMEA Mərkəzi Elmi Kitabxanasında izdihamlı təqdimatı keçirildi. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, AYB-nin sədri, Xalq yazıçısı Anar, akademiklər Nizami Cəfərov və Rafael Hüseynov, Milli Məclisin deputatı, professor Fəzail İbrahimli, Xalq yazıçıları Çingiz Abdullayev və Elmira Axundova, görkəmli ictimai-siyasi xadim Həsən Həsənov, Əməkdar elm xadimi Qəzənfər Paşayev və başqaları dəyərli çıxışlar etdilər. “Seçilmiş əsərləri”nizin 15 cildliyinin sizin Azərbaycan ədəbiyyatındakı böyük yerinizi, bütün janrların inkişafındakı xidmətlərinizi əks etdirdiyi vurğulandı. Sonra da qələmi yerə qoymadınız. Hazırda hansı əsər üzərində işləyirsiniz?**

– Əvvəlki sürətlə olmasa da, işləyirəm. Araya gözlənilməz işlər girir. Bir işi başlayıram, başqa bir iş çıxır. Bir neçə il əvvəl şərti adı “Dağların qisası” olan roman yazmışam, bitib əslində, amma ora vacib bir epizod əlavə etməliyəm, vaxt tapa bilmirəm. Uşaqlar üçün müəyyən şeylər yazmışam, tamamlanmayıb. İdeyalar var, amma tam reallaşdıra bilmirəm.

Bir də ki, yazdıqlarımızın nəşri məsələsi var. Təəssüf ki, bununla da özümüz məşğul olmalıyıq. Məsələn, “Ömür kitabı” rus dilinə çevrilmişdi, Rusiyanın türklər yaşayan hər yerində ondan xəbərləri vardı, elektron variantını oxuyublar. Sonra ingilis dilində Londonda, daha sonra Bosniya və Herseqovinadakı səfirimiz, görkəmli ədəbiyyatşünas alim, professor Vilayət Quliyevin köməyi ilə Sarayevoda çap olundu. Bu yaxınlarda tərcümə edilib Polşada da işıq üzü görəcək.

Mənim “Göy Tanrı”m Türkiyədə dəfələrlə, Özbəkistanda və bir sıra ölkələrdə nəşr edildi, Almaniyada 3 kitabım çıxdı, “Ölüm zirvəsi” gürcü dilində nəşr edildi. Bütün bu proseslər, çox vaxt aparır. Azərbaycana qarşı informasiya blokadasını yaran, tariximizi öyrədən əsərlərin tərcümə və nəşr işi rəsmi səviyyədə aparılmalı, bundan ötrü müəyyən mənbə və ya fond yaradılmalı, təbliğatı aparılmalıdır ki, şair və yazıçı vaxtını sırf yaradıcılığa daha çox sərf etsin.

**– Bu yaxınlarda Bakıda da yeni bir kitabınız çıxıb: “Azərbaycan adından”. Haqqınızda yazılan təzə bir kitab da var...**

– Elədir. Bu kitab mənim gənclik illərimdən başlayaraq, Türk dünyasına və müxtəlif ölkələrə səyahətlərimdən qalan qeydlərdir. İştirak etdiyim beynəlxalq ədəbi və siyasi tədbirlərlə, keçirdiyim görüşlərlə bağlı düşüncələrimin məcmusudur. Yollarda keçən ömrün tarixidir bu kitabda toplananlar.

O ki qaldı haqqımda yazılan “Dil, kimlik, Vətən” kitabına, bu, mənim üçün bir sürpriz oldu. Bu kitabı istedadlı gənc xanım Şəhla Aslan yazıb. Türkiyədə Azərbaycan Mədəniyyət Mərkəzinin Qazi Universitetindəki Azərbaycan Türkcəsi Tədris Ocağının rəhbəri, ciddi araşdırmaçı olan müəllif, sən demə, mənim yaradıcılığımı da yaxından izləyirmiş və yubileyim ərəfəsində bu kitabı yazaraq nəşr etdirib. Bu, mənim üçün çox sevindirici bir hadisədir. Ümumiyyətlə, yaradıcılığıma dəyər verən hər kəsə ürəkdən minnətdaram.

* * *

*Sabir Rüstəmxanlının 80 illik yubileyi münasibətilə ondan aldığımız müsahibəni şairin bir şeiri ilə tamamlamaq istəyirik.*

## Ad günüm

Bəlkə min il yaşlı, on min il yaşlı
Sirli bir mahnının ardınca bu gün.
Dağlara gəlmişəm yalqız, kimsəsiz
Öz doğum günümü qutlamaq üçün!

Ürək oxuyanın işləri müşkül,
Gözlərdə göz alan dərinlik qalmır.
Onsuz da seyrəlir dost məclisləri,
Sözlərdə əvvəlki şirinlik qalmır.

Tənha zirvələrlə verim baş-başa,
Məni onlar atdı burdan həyata.
Görüm ucaların halı necədi,
Dözə bilirlərmi bu gedişata!..

Adımı köksünə həkk eləmişdim,
Bilmirəm ağrısı dərindədirmi?
Salam çinar qardaş, nəğməm darıxır,
Sənin mahnıların yerindədirmi?

Əgər yerindəsə bir ağız oxu
Ya da sağlıq söylə köklər eşqinə,
Sən də badəyə dön, ay əlçim bulud
Qaldırım başıma göylər eşqinə!

O göl qədəhini qaldır, qoca dağ,
Nuş elə, lap nəfəs kəsəsi olsun.
Mən ömrüm uzunu səni öymüşəm,
Sən də bir ağız de, əvəzi olsun!

Bu meşə, bu çəmən, bu bulaq, bu yol,
Köhnə dostlərımdı məclisimdə cəm.
Şəhərin səhəri ayıltdı məni
Şəkər bulaqlardan keflənəcəyəm!

Elə sehir var ki, bu ucalıqda
Ürəyi dəyişir, vaxtı çaşdırır.
Dağlar ad günümə hədiyyə kimi
Ruhumu yenidən cavanlaşdırır.

***Hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

# Türkiyəli qonaqlar Ədəbiyyat Muzeyində

**Bakı şəhərində keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində təşkil olunan tədbirlərdə iştirak etmək məqsədilə ölkəmizə gələn Türkiyə nümayəndə heyəti Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyini ziyarət edib.**

Nümayəndə heyətinin tərkibində Gaziantep Böyükşəhər Bələdiyyə Başçısı Fatma Şahin, baş katibin müavini Mehmet Abdullah Aksoy, Ahmet Ertürk, Xarici əlaqələr və beynəlxalq layihələr idarəsinin rəisi Hasan Emre Bitgin, eləcə də tərcüməçi Bilge Kahramanyol yer alıb.

Muzeyin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Sevinc Heydərova qonaqlara ekskursiya zamanı nümayəndə heyətinə muzeyin yaranma tarixi, burada qorunan zəngin ədəbi-mədəni irs nümunələri, Azərbaycan ədəbiyyatının görkəmli şəxsiyyətlərinin həyat və yaradıcılığı barədə ətraflı məlumat verib.

Qonaqlar muzeyin ekspozisiya zallarında nümayiş olunan rəsm əsərlərinə, klassik Azərbaycan ədəbiyyatını əks etdirən bədii kompozisiyalara və qədim xalça nümunələrinə xüsusi maraq göstəriblər. Azərbaycan milli ornamentlərini, ənənəvi rəng harmoniyasını və tarixi-estetik xüsusiyyətləri özündə əks etdirən xalçalar nümayəndə heyətinin diqqətini xüsusilə cəlb edib. Onlar muzeydə sərgilənən sənət nümunələrinin Azərbaycan xalqının zəngin mədəni yaddaşını və estetik dünyagörüşünü əks etdirdiyini vurğulayıblar.

Nümayəndə heyəti, həmçinin muzeydə qorunan nadir eksponatlar, miniatür sənəti nümunələri və klassik ədiblərin obrazlarını əks etdirən monumental rəsm əsərləri ilə yaxından tanış olub. Qonaqlar Azərbaycan mədəniyyətinin müxtəlif sahələrinin bir arada təqdim edilməsini yüksək qiymətləndirərək muzeyin yalnız ədəbiyyat deyil, bütövlükdə, milli-mədəni irsin qorunması və təbliği baxımından mühüm əhəmiyyət daşıdığını qeyd ediblər.

Sonda eksponatların yüksək peşəkarlıqla qorunduğunu və təqdim olunduğunu xüsusi vurğulayan türkiyəli qonaqlar Nizami Gəncəvinin adını daşıyan bu mötəbər elm və mədəniyyət ocağından xoş təəssüratlarla ayrılıblar.

***Q.YUSİFOĞLU***
***XQ***



*Akif Cabbarlı – 75*

# Sözünün və özünün nüfuzunu yüksəldən jurnalist

**Əksər peşələrin təmsilçilərinin necə işləmələri yalnız çalışdıqları kollektivə bəlli olur. Jurnalistlər isə elə bir nadir peşə sahibləridir ki, onların qələminin kəsəri, sözünün dəyəri bütün cəmiyyətdə əks-səda yaradır. Jurnalistikanın bu özəlliyi və gözəlliyi həyat aynası olaraq əks etdirdiyi gerçəkliklərə yanaşı, onu sözə çevirən qələm sahibinin də peşə bacarığından xəbər verir.**

75 illik ömrünün 6 onilliyini milli mediamızın müxtəlif sahələrində məhsuldar yaradıcılığa həsr etmiş istedadlı jurnalist Akif Cabbarlı bu peşənin uzmanlarındandır. Onun fərdi yazı manerası, özəl üslubu, şirin təhkiyəsi ilk cümləsindən aydın seçilir, müəllifinin yüksək peşəkarlığını ifadə edir.

Əməkdar jurnalist Rəhim Hüseynzadənin fikrincə, Akif Cabbarlı son onilliklər ərzində ictimai-siyasi mövzularda ən sanballı yazıların, aktual mövzularda baxımlı televiziya verilişlərinin müəllifi kimi tanınan ustad jurnalistlərdəndir. Həmkarımızla BDU-nun jurnalistika fakültəsində bir qrupda oxumuş Rəhim müəllim dedi:

– O, sadə, lakonik, dolğun və mənalı yazır, istər qəzet, istərsə də radio-televiziya janrlarının özəlliklərini əla bilir, yazılarında meyarlara əməl edir. Mediamızda belələri indi çox azdır. Akif müəllimin çox sadə, mütəvazi bir insan olaraq qəlbinin saflığı, səmimiyyəti və iddiasızlığı yazılarının ruhuna da hopub.

Peşə fəaliyyətinə 1973-cü ildə Azərbaycan Dövlət Radiosunun müxbiri kimi başlayan Akif Cabbarlı əvvəlcə ana radiomuzda, sonra da Azərbaycan Dövlət Televiziyasında öz istedadı və əməksevərliyi sayəsində pillə-pillə yüksəlib. 1987-ci ildən ölkənin 1 nömrəli qəzeti sayılan "Kommunist"də (indiki "Xalq qəzeti") çalışdığı 4 il ərzində müxtəlif mövzularda bir-birindən maraqlı reportajlar, oçerklər, zarisovkalar, tənqidi və araşdırma yazıları dərc etdirib. Bu yazılarda müəllif cəmiyyətdə çeşidli problemlərin yaranması səbəblərini dərindən araşdırıb, onların həlli yollarını göstərib və heç vaxt tənqid etdiyi subyekti aşağılamayıb.

...1988-ci ildə "Kommunist"in Sumqayıt şəhəri də daxil olmaqla, Abşeron-Xızı zonası üzrə xüsusi müxbiri vəzifəsində çalışarkən Akif Cabbarlının "Dəryada gəmim var" adlı felyetonu dərc olunub. Burada yeni salınan Sumqayıt bulvarının gözəllikləri fonunda dənizin sahilə yaxın ərazisində haçansa batıb qalmış, uzun illər boyu hiss-pas içində suda çürüyən böyük bir gəminin bulvarın ümumi mənzərəsinə xələl gətirdiyi təsvir olunur və cavabdeh qurumların rəhbərlərindən həmin gəminin nə üçün utilizə edilməməsinin səbəbi soruşulur.



Bu yazı təkcə Sumqayıt sakinlərinin deyil, redaksiyada da dərin rəğbətlə qarşılanıb. Baş redaktorun müavini, kəskin felyetonları ilə o illərdə bütün ölkədə tanınan istedadlı jurnalist Rafael Nağıyev qəzetin müvafiq şöbə müdirlərinə tapşırıb ki, xüsusi müxbir Akif Cabbarlının yazılarını bundan sonra əziyyət çəkib çapa imzalatmaq üçün ona təqdim etməsinlər: "Nə özünüzə, nə də mənə əlavə əziyyət verməyin. Onun yazılarını birbaşa mətbəəyə göndərin. Akif Cabbarlı nə yazdığını və necə yazmaq lazım olduğunu yaxşı bilir!"

Ekoloji fəlakət şəhərinin xüsusi müxbiri ətraf mühitin problemlərini də tez-tez qabardır, üstəlik, onların bir çoxunun ədalətli həllinə nail olurdu. Onun atmosferi zəhərləyən kimyəvi sexlərlə bağlı kəskin tənqidi yazıları zavod direktorlarını narazı salırdı, amma ipə-sapa yatmayan müxbiri heç cür "dinə-imana" gətirə bilmirdilər. Akif Cabbarlı ömrü boyu sevimli peşəsinə xəyanət etmədiyi kimi, şəxsi ləyaqətini də daim qoruyub. Bunu hamı bilir ki, o, vəzifəli şəxslərin qapısında boynunu bükənlərdən olmayıb. Buna görə də hər zaman sayılıb-seçilib və sevilib.

Həmkarımız o illərdə Sumqayıta, o vaxtkı məsul şəxslərin iddia etdikləri kimi, heç də "qara eynək"dən baxmırdı, əksinə, şəhərin coşqun əmək həyatını, zavod və fabriklərdə maşın və dəzgahların ahəngdar ritmini, tər tökərək çalışan sadə əmək adamlarının saf, səmimi duyğularını da oçerk və zarisovkalarda təsvir edirdi. Ötən ilin sonunda həyatını dəyişmiş istedadlı və təcrübəli jurnalist, sumqayıtlı tələbə dostum Eyruz Məmmədovun bu sözləri heç vaxt yadımdan çıxmır: "Son 50 ildə heç bir jurnalist Akif Cabbarlının Sumqayıtda xüsusi müxbir kimi çalışdığı 4 il ərzində olduğu qədər faydalı yaradıcılıq işi ortaya qoya bilməyib. O bu fəhlə şəhərinin qaynar həyatına bütün varlığı ilə vurulmuşdu və onun uğurlarını, ağrı-acılarını, bir sözlə, ruhunu mətbuata gətirmişdi".

Akif Cabbarlı istedadlı qələm əhli olduğu qədər sadə, mehriban, necə deyərlər, üzüyola insandır. İndiki "Xalq qəzeti"ndə işlədiyi dövrdə 3 baş redaktorla – Ramiz Əhmədov, Cəmil Əlibəyov və Tofiq Rüstəmov ilə çalışıb və etiraf edir ki, onların hər birindən özünə qarşı diqqət və qayğı görüb: "İnanın mənə, bu kişilər yaddaşımda yüksək insani keyfiyyətlərə malik şəxsiyyətlər kimi qalıblar. Onların hər biri mənə hörmətlə yanaşır, istedad və qabiliyyətimə inanır və yaradıcılıq imkanlarımın üzə çıxması üçün hər cür şərait yaradırdılar. Mən onlara bütün ömrüm boyu minnətdar olacağam".

Yeri gəlmişkən, "Xalq qəzeti" ilə onu qırılmaz tellərlə bağlayan amillərdən biri də hələ 1968-1973-cü illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində bir qrupda oxuduğu tələbə dostu, istedadlı jurnalist mərhum Əlipənah Bayramovla olan son dərəcə saf və səmimi dostluq münasibətləri idi. Bu barədə söz düşəndə səsində kövrək notlar yarandı: "Əlipənah Bayramovun sənaye mövzusunda qələmə aldığı yazıları hər qələm əhli araya-ərsəyə gətirə bilməzdi. O, bu çətin mövzuda zərif və incə dillə, gözəl, oxunaqlı məqalələr yazırdı. Mən onun yaradıcılıq mətbəxindən özüm üçün çox şey əxz etmişəm. Biz çox yaxın dost idik, Əlipənahın yoxluğuna bu gün də inana bilmirəm".

Təcrübəli və nüfuzlu qələm sahibi Akif Cabbarlı ömrü boyu belə bir əqidədə olub və bu gün də bu fikirdədir ki, jurnalistikada təkcə istedad azdır, bu peşənin sahibləri cəmiyyətdə həm də yüksək şəxsi keyfiyyətləri ilə seçilib-sevilməyi bacarmalıdırlar. O, söhbət əsnasında "Sizin kumirləriniz kimlər olub?" sualına böyük həvəslə cavab verərək dedi ki, qəzet jurnalistlərindən Rafael Nağıyev, Əşrəf Hacıyev, Əhməd İsayev, eləcə də Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində işlədiyi illərdə birgə çalışdıqları Mailə Muradxanlı, Nahid Hacızadə, Gəray Fəzli, Ələkbər Abbasov, Valid Sənani, diktor Sabutay Quliyev və digərləri onun yaradıcılığına və həyata baxışına böyük təsir göstəriblər. Onlar çox istedadlı, ləyaqətli insanlar olublar, jurnalist peşəsinə başucalığı gətiriblər!"

Bir neçə ildir ki, Azərbaycan Kinematoqrafçılar İttifaqında redaktor vəzifəsində çalışan Akif müəllim bildirdi ki, bu səmimi və mehriban kollektivdə bu yaşda belə işləmək xoş və qürurvericidir. Akif Cabbarlı, təbii ki, burada da qələmi yerə qoymur, onun milli kinomuzun uğurları, bu sahədə dərin iz qoymuş böyük sənətkarlar barədə yazıları dövri mətbuatda, eləcə də onun bu gün də çox doğma olan, baş redaktor Əflatun Amaşovdan başlamış reklamçı dostu Ruslan Rəfizadəyə qədər hər kəsdən xoş üz gördüyü "Xalq qəzeti"nin səhifələrində işıq üzü görür.

Akif Cabbarlının yaradıcı fəaliyyəti kifayət qədər yüksək dəyərləndirilib. O, media sahəsində nüfuzlu "Həsən bəy Zərdabi" və "Qızıl qələm" mükafatları laureatıdır. Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin, Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvüdür. Prezident İlham Əliyevin sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi" yubiley medalına layiq görülüb. 2025-ci ildə Azərbaycan Milli Mətbuatının 150 illiyi ilə də bağlı yubiley medalı ilə təltif olunub. Akif Cabbarlı müxtəlif illərdə parlaq publisistik yazılarını, hekayə və ssenarilərini, səfər təəssüratlarını toplayaraq 6 kitab nəşr etdirib.

Bugünlərdə əziz dostumuz və həmkarımız Akif Cabbarlı sadə, halal zəhməti və ləyaqətlə yaşadığı ömrünün 75-ci zirvəsinə yaxınlaşır. Dostları, doğmaları, yaxınları onu bu əlamətdar yubiley münasibətilə səmimi-qəlbdən təbrik edir və möhkəm cansağlığı arzulayırlar. XQ-nin kollektivi olaraq biz də bu təbriklərə qoşuluruq və keçmiş iş yoldaşımızı, istedadlı və təcrübəli qələm sahibini təbrik edərək ürəkdən deyirik: Hörmətli Akif müəllim, qoy bundan sonra da nə mövzularınız, nə də ömrünüz tükənsin. Mətbuatımızın cəfakeş və məhsuldar qələm sahibi olaraq sizə yazıb-yaratmaq çox yaraşır!

***Məsaim ABDULLAYEV,***
***Əməkdar mədəniyyət işçisi***

*Epidemioloji durum*

# "Hantavirus" uşaqlardan və yaşlılardan yan keçir

## *"Andes" tipli virus mutasiyaya uğrayaraq insanlara uyğunlaşıb*

**Fransada ötən həftənin əvvəlindən FFP2 tipli maskaların satışında ciddi artım müşahidə olunub. Buna səbəb Atlantik okeanında keçirilən kruiz səfərindən sonra hantavirusa yoluxma halları ilə bağlı narahatlıqlar olub. Bəzi apteklərdə müvəqqəti məhsul çatışmazlığı, topdansatış mərkəzlərində isə rekord satış qeydə alınıb. 3 gündə 15 min qutu maska satılıb. Halbuki adi vaxt həftədə, təxminən, 2 min 400 qutu maska satılırmış. Bu kütləvi həyəcan və təşviş baxmayaraq, səhiyyə qurumları ölkədə hər hansı epidemiyanın olmadığını vurğulayıblar. Çünki xəstəxanaya yerləşdirilmiş 26 nəfərin test nəticələri mənfi çıxıb və son günlər yeni yoluxma faktı təsdiqlənməyib. Rəsmi qurumlar nəzarət və tibbi müşahidə mexanizmlərinin fəaliyyətini davam etdirdiyini, vəziyyətin diqqətdə saxlanıldığını bildiriblər.**



Rusiya Elmlər Akademiyasının akademiki, epidemioloq və Rusiya Təhsil Akademiyasının vitse-prezidenti Gennadi Onişçenko isə deyib ki, "Hondius" kruiz gəmisində qeydə alınan "Andes" tipli hantavirus mutasiyaya uğrayır və insanlara uyğunlaşmağa başlayır. Bu fakt fəlakət deyil, lakin ştamların uyğunlaşdığını, ardıcıllığın hər il dəyişdiyini və insan immun sistemindən yayınmağın yeni yollarını tapdığını təsdiqləyir. Hazırda hantavirusların virulentliyi və yoluxuculuğu aşağıdır, baxmayaraq ki, onlar artıq yavaş-yavaş insandan insana keçməyə başlayıb. Akademik qeyd edib ki, 2018-ci ildə Argentinada And dağlarında yayılan epidemiyada, təxminən, 35 faiz ölüm hadisəsi qeydə alınıb. Gəmidə aşkarlanan hantavirus isə Rusiya iqlimi əlverişsizdir və bu da virusun ölkədə yayılma riskini azaldır.

**– Bəs Azərbaycanda vəziyyət necədir? Bizi yeni bir virus pandemiyası, yəni hantavirus faciəsi gözləyirmi? Bu sualla səhiyyə eksperti, tibb elmləri doktoru, professor Musa Qəniyevə müraciət etdik.**

**Müsahibimiz öncə yarana biləcək təhlükə ilə bağlı yayılan fikirlərə münasibət bildirdi:**

– Son günlər Hollandiyaya məxsus MV Hondius sərnişin gəmisində hantavirusa kütləvi yoluxma ilə bağlı yayılan məlumatlar, insanlar arasında ciddi narahatlığa səbəb olub. Ən arzuolunmaz hal mövcud vəziyyətə yanaşmanın yenə də qeyri-düzgün olmasıdır. Göründüyü kimi, biz COVID-19 pandemiyasından lazımi nəticələri çıxarmamışıq. Hətta rəsmi mənbələrdə Azərbaycanda bu virusa yoluxma qeydə alınmayıb, epidemioloji vəziyyət nəzarət altındadır kimi fikirlər səslənir. Bunlar zamanında bu sahəyə məsul olan bəzi şəxslərin COVID-19-un Azərbaycanda aşkarlanmadığını və bu virusa yoluxmanın olmayacağı kimi bəsit və mənasız düşüncə tərzini xatırladır. Odur ki, dəfələrlə söylədiklərimi bir daha təkrar edirəm: qloballaşan dünyada virus infeksiyası artıq sərhəd tanımır. Odur ki, "epidemiya" sözü artıq tarixi keçmişdir, aktual olan yalnız "pandemiya" terminidir. Çox istərdim ki, bu fikrim diqqətə alınsın.

**Professor daha sonra virus haqqında dəqiq, faktlara əsaslanan elmi məlumatlar verdi:**

– Virus haqqında mövcud həqiqətləri demək lazımdır, çünki internet dövründə yaşadığımızdan cəmiyyəti qorumağın yeganə yolu budur. Hantavirus ailəsinə aid olan 50-dən çox növ mövcuddur. Bunların arasında insandan insana ötürülə bilən yeganə növ Andes adlandırılanıdır. İlk dəfə 1995-ci ildə Cənubi Amerikada And dağlarının ətəyində yaşayan virus yoluxmuş insanlarda tapılıb. Hantavirusların ən qorxulu və təhlükəli növü sayılır. MV Hondius gəmisində tapılan və hazırda dünya gündəmində böyük narahatlığa səbəb olan məhz bu ştammdır.

Bu virusun genomu, COVID-19 kimi təkzəncirli RNT-dən təşkil olunmuşdur və şərti olaraq, L (böyük), M (orta) və S (kiçik) adlandırılan 3 seqmentdən ibarətdir. Virus yoluxdurduğu hüceyrəyə M-seqmenti vasitəsilə daxil olur. Yəni infeksiya RNT-sinin bu hissəsi virusun hüceyrəyə giriş qapısının "açarı" rolunu oynayır. Bu seqmentin kodlaşdırdığı vahid poliprotein virusun formalaşması prosesində şərti olaraq Gn və Gc adlandırılan iki fərqli qlikoproteinə ayrılır. Gn virusun hədəf hüceyrə səthindəki reseptorları tanımasını, Gc isə bu reseptora bağlanan virusun hüceyrənin daxilinə keçməsini təmin edir.



"Andes" virusunun bağlandığı reseptor β3 (xüsusən, αIIβ3) inteqrin reseptorlarıdır. Bu reseptorlar əsasən damar endotel hüceyrələri və trombositlərin səthində yerləşir. Odur ki, bu virus bilavasitə damar və trombosit sistemini hədəfləyir. Nəticədə ağ ciyər çatışmazlığı və laxtalanma sisteminin çox ağır, əksər hallarda geridönüşsüz pozulması ilə müşahidə olunan kardiopulmonal sindroma (HPS/HCPS) səbəb olur. Nəzərə almaq lazımdır ki, virusun bağlandığı reseptorlar normal halda qan damarlarının bütövlüyünü təmin edir. Yoluxma halında virus onlara bağlanaraq geridönüşsüz disfunksiya törətdiyindən bu reseptorlar öz fizioloji funksiyalarını yerinə yetirə bilmir. Nəticədə, dediyim kimi, damarlar ciddi zədələnir, ağ ciyər ödəmi baş verir.

Təzad ondadır ki, normada qanda dövr edən və vəzifəsi orqanizmə düşmüş virus və mikrobları məhv etmək olan komplement sistem (qan plazmasında və hüceyrə səthlərində dövr edən, bir-birini aktivləşdirən 20-dən çox zülaldan ibarət mürəkkəb müdafiə mexanizmidir. İmmunitet sisteminin ayrılmaz hissəsi olan bu sistem bədənə daxil olan bakteriyaları, virusları və digər yad cisimləri məhv etməyə xidmət edir.) reseptorları Andes virusuna yoluxma zamanı əksinə olaraq, virusun bu reseptora daha da möhkəm bağlanmasını təmin edir. Düzdür, bu virusun yoluxdurma əmsalı Ro indeksi 0,5–0,8-dir. Halbuki bu rəqəm qripdə 1,2–1,8 qızılcada isə, hətta 12–15-dir. Lakin onun letallıq, yəni ölüm törətmə əmsalı çox yüksək, 35 – 50 faiz arasındadır. Halbuki, fəsli qrip və qızılcada bu göstərici 0,01– 0,1 faiz arasında dəyişir.

**– Digər yoluxucu xəstəliklər kimi, yenə hədəfdə kiçik yaşlı uşaqlar və əhalinin ahıl təbəqəsi durur? Yoluxma yolları eynidirmi?**

– Yoluxma yolları, təxminən, eynidir. Virusun orqanizmə əsas daxilolma yolu, aerogen (tüpürcək, öskürək zamanı damcılar və s.), yəni tənəffüs yoludur. Eyni zamanda, infeksiya insandan insana toxunma (dəri – sifətin-sifətə toxunması, selikli qişa və s.) yolu ilə də keçir.

Bu virusa yoluxmada da yaş faktoru əsas rol oynayır. Amma necə? Həmişə əhalinin yaşlı təbəqəsi və kiçik yaşlı uşaqların virusa həssaslığı qeyd olunur. Hantavirusa yoluxmada isə fərqlidir. Uşaqlarda immun sistemi labil, virusun bağlandığı reseptorlar tam formalaşmadığından onlar bu xəstəliyə, demək olar ki, tutulmurlar. Eləcə də yaşlı insanlar. Çünki onların immun sistemi susqun, müvafiq reseptorlar isə, supressiya halında olur.

Bu virusa daha həssas yaş qrupu 20–50 yaş arasında olan insanlardır. Çünki yoluxma halında onların güclü immun sistemi damar keçiriciliyini məhv edən aqressiv vasitəyə çevrilir.

Çox istərdim ki, bu yaş qrupunda olanlar da stresə düşməsinlər. Çünki beta 3 inteqrin reseptoru polimorfizmə məruz qalan (33-cü yerləşmədə leysin amin turşusunun prolinlə əvəz olunması) müəyyən faiz insanların, bu virusa yoluxma ehtimalı yoxdur. Sadəcə, insanlarla ünsiyyət zamanı diqqətli olsunlar. Qorunmaq infeksiyaya yoluxub müalicə almaqdan daha asandır.

**Professor söhbətin sonunda əhalinin yoluxmadan qorunmaq üçün zəruri məsələlərə də toxundu:**

– Bəli, "Andes" virusu çox təhlükəli və qorxulu virusdur. Ondan 100 faizli qorunmanın yeganə və ən sadə yolu görüşmə – öpüşmə kimi ünsiyyət formalarına yol verməməkdir. Doğrudur, biz sərhədlərin şəffaflaşdığı bir zamanda yaşayırıq. Virus, mikrob və sair infeksiyalar haqqında dövri olaraq, müxtəlif məlumatlar yayılacaq. Düşünürəm ki, gələcəkdə bu kimi hadisələrə görə, əhalinin narahatlığına son qoymaq üçün, Səhiyyə Nazirliyi və TƏBİB-in nəzdində mövcud vəziyyətin elmi əsasa istinad edən təhlilini verib, əhalini düzgün məlumatlandırma bilən elm adamlarından ibarət bir bölmə və ya işçi qrup (bu, ictimai əsaslarla da ola bilər) yaradılmalıdır. İndiki zamanda bu, zərurətdir.

***Söhbəti hazırladı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Azərbaycanın sağlamlıq turizminin coğrafiyası və kurort şəbəkəsi




**Azərbaycan zəngin təbii müalicə resursları ilə sağlamlıq turizmi sahəsində böyük potensialı olan ölkələrdəndir. Əsas təbii müalicə ehtiyatlarımıza mineral sular, Naftalan nefti, yodlu-bromlu və duzlu göllər, əlverişli iqlim və landşaft xüsusiyyətləri, eləcə də qumlu çimərliklər daxildir.**

Balneoloji ehtiyatlar ölkənin sağlamlıq turizmi sistemində əsas komponentlərdən biri hesab olunur. İstisu, Badamlı, Turşsu, İlisu, Xaltan və digər mənbələr profilaktika və müalicə-sağlamlaşdırma xidmətlərinin inkişafı üçün baza yaradır. Kəlbəcər və Laçın rayonları isə zəngin mineral bulaqları, dağ iqlimi ilə gələcək strateji sağlamlıq turizmi zonaları kimi qiymətləndirilir.

## Dövlət siyasəti və davamlı dəstək

Sağlamlıq turizminin inkişafı Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu sahənin institusional, normativ və infrastruktur baxımından gücləndirilməsi məqsədilə ardıcıl və sistemli dəstək tədbirləri həyata keçirilir. Naftalan nefti isə ölkəmizin unikal sağlamlıq turizmi resursu kimi çıxış edir.

Ümummilli lider Heydər Əliyevin SSRİ dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə Naftalan kurortunun inkişafı dövlət səviyyəsində xüsusi diqqət mərkəzində olmuşdur. Onun təşəbbüsü ilə şəhərin kurort kimi formalaşması sürətlənmiş, maddi-texniki bazası gücləndirilmiş, yeni sanatoriyalar, müalicə müəssisələri və sosial infrastruktur obyektləri tikilərək istifadəyə verilmişdir. Görülən işlər Naftalanın SSRİ əhəmiyyətli kurort kimi tanınmasına və geniş şöhrət qazanmasına şərait yaratmışdır. Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə də bu sahəyə xüsusi diqqət və qayğı ilə yanaşmışdır.









## Ardıcıl inkişaf dinamikası

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət nəticəsində sağlamlıq turizmi və kurort infrastrukturu ölkənin prioritet inkişaf istiqamətlərindən birinə çevrilmişdir. Qəbul olunmuş dövlət proqramları və qanunvericilik bazası əsasında Naftalan şəhərində genişmiqyaslı yenidənqurma və abadlıq işləri aparılmış, mühəndis-kommunikasiya sistemləri tam yenilənmiş, müasir hotel və müalicə kompleksləri yaradılmışdır.

Prezidentin 2008-ci il tarixli sərəncamı ilə Naftalan şəhərinin sanatoriya-kurort kompleksinin inkişafına dair tədbirlərin hazırlanması istiqamətində tapşırıq verilmiş, regional inkişaf proqramları çərçivəsində 2013-2014-cü illərdə Naftalanda genişmiqyaslı infrastruktur layihələri icra olunmuşdur. Bu çərçivədə "Çinar" sanatoriyası əsaslı təmir edilmiş, 5 yeni səhiyyə-kurort müəssisəsi, "Qaşaltı", "Qarabağ" sanatoriyaları inşa edilmiş və istifadəyə verilmişdir. Ardıcıl inkişaf dinamikası Azərbaycanda sağlamlıq turizminin, xüsusilə Naftalan neftinin ölkənin ali rəhbərliyinin diqqət mərkəzində olduğunu göstərir.

## Sağlamlıq turizmi axtarışları

Ölkənin sağlamlıq turizmi bazarında rəqabətqabiliyyətli məkan olaraq tanıdılması uğurlu dövlət siyasətinin bariz nümunəsidir. Bu siyasətin məntiqi davamı kimi Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyində 2019-2023-cü illər ərzində sağlamlıq turizmi istiqamətində tədqiqatlar aparılmışdır. Nəticədə, ölkənin sağlamlıq turizmi resursları sistemli şəkildə siyahıya alınmış, mövcud normativ və institusional boşluqlar müəyyən edilmiş, eyni zamanda, beynəlxalq müqayisəli təhlil əsasında inkişaf istiqamətləri formalaşdırılmışdır.

Respublikanın sağlamlıq turizmi potensialı nəzərə alınaraq Prezident İlham Əliyev 28 sentyabr 2024-cü il tarixli "Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalamış və bu sahədə görüləcək işlərin əsas istiqamətləri müəyyən edilmişdir.

Bu mühüm sənədin icrası məqsədilə 2024-cü ildə Naftalan şəhərinə Nazirlər Kabinetinin Qərarı ilə rəsmi olaraq "kurort" statusunun verilməsi bu ərazinin sağlamlıq turizmi mərkəzi kimi əhəmiyyətini daha da artırmışdır. Növbəti mərhələlərdə isə Nazirlər Kabineti 9 oktyabr 2025-ci il tarixli "Naftalan neftinin çıxarılması, emalı, saxlanılması və sanatoriya-kurort müəssisələrinə paylanılması Qaydaları"nın təsdiqi barədə qərar qəbul etmişdir.

## Sağlamlıq turizminin xarici qonaqları

Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılması məqsədilə yeni tibbi araşdırmaların aparılması və bu məhsulların tibbi məqsədlər üçün daha geniş istifadəsini nəzərdə tutan Tədbirlər Planı təsdiq edilmişdir. Ardıcıl həyata keçirilən tədbirlər Naftalanın beynəlxalq səviyyəli sağlamlıq turizmi mərkəzinə çevrilməsini təmin etmiş, şəhərin turizm potensialını əhəmiyyətli dərəcədə artırmışdır.

Tibbi turizm istiqamətində ixtisaslaşmış klinikaların sayının artırılması, müasir və yüksək texnologiyalı tibbi avadanlıqların tətbiqi, eləcə də beynəlxalq akkreditasiya proqramlarında iştirak ölkənin bu sahədə rəqabət qabiliyyətinin gücləndirilməsinə xidmət edir. Məlumat üçün qeyd edək ki, 2025-ci ildə sağlamlıq turizmi məqsədilə Azərbaycana 20 min 135 xarici vətəndaş səfər etmişdir. Onların 85,4 faizi MDB ölkələrinin payına düşmüşdür. Əsas bazarlar Rusiya, Qazaxıstan, Gürcüstan, Özbəkistan və Türkiyə olmuşdur.

## Nadir sağlamlıq turizmi ünvanı – Naftalan

Uzun illərdir müxtəlif xəstəliklərin müalicəsində xüsusi balneoterapiya üsulu kimi istifadə olunan Naftalan nefti ilə müalicə həm yerli, həm də xarici turistlərin diqqətini cəlb edir. Kiçik Qafqaz dağlarının ətəklərində yerləşən bu yataq dünyada müalicəvi xüsusiyyətlərə malik yeganə neft yatağı olaraq Azərbaycanın sağlamlıq turizmi potensialının formalaşmasında mühüm rol oynayır. Tarixi mənbələr göstərir ki, bu neftin tibbi məqsədlərlə istifadəsi hələ orta əsrlərdən məlum olmuşdur. Səyyahların qeydlərində müalicəvi təsirindən bəhs olunan bu resurs Naftalan şəhərinin sanatoriya-kurort mərkəzinə çevrilməsində əhəmiyyətli təsirə malik olmuşdur.

Azərbaycanda sağlamlıq turizminin inkişaf tarixi XII əsrdə Naftalan müalicəvi neftindən istifadə ilə başlayır. Naftalan nefti barədə məlumatlar, xüsusilə Marko Polonun səfər qeydlərində yer alır. XIX əsrin sonlarında alman mühəndisi A.İ.Yeger burada ilk ödənişli müalicəxana quraraq Naftalan neftinin sənaye-kurort tətbiqinin əsasını qoymuşdur. Hətta 1904–1905-ci illərdə baş vermiş Rusiya-Yaponiya müharibəsi zamanı yapon əsgərlərinin tibbi çantalarında Naftalan mazının aşkar edilməsi bu müalicə vasitəsinin həmin dövrdə artıq beynəlxalq miqyasda tanındığını göstərən faktlardan biridir. 1899-cu ildə "Pharm Zeitung" jurnalı Naftalan yağının istifadəsi ilə bağlı 65 formul çap etmişdir. Naftalan yağı təkcə tibbi məqsədlər üçün deyil, həmçinin kosmetologiya sahəsində də istifadə edilirdi. 1900-cü ildə Parisin gözəllik mağazalarında Naftalan yağından müxtəlif preparatlar hazırlanırdı.

## Möcüzəli neftin sirri

Professor Tağı Hacı oğlu Paşayev "Naftalan nefti, onun xassələri və müalicə təsiri" adlı kitabında qeyd edir ki, 1939-cu il may ayında Bakı şəhərində Naftalan haqqında ilk konfrans keçirilmişdir. Burada Naftalan neftinin müalicəvi əhəmiyyəti müəyyən olunmuşdur. Naftalan neftinin kimyəvi tərkibinin və müalicəvi xüsusiyyətlərinin elmi əsaslarla öyrənilməsi isə XX əsrin ortalarından etibarən sistemli xarakter almışdır. 1943-cü ildən başlayaraq görkəmli alim, akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə aparılan fundamental tədqiqatlar nəticəsində neftin struktur-komponent tərkibi kompleks şəkildə araşdırılmışdır. Araşdırmaların nəticələri 1946-cı ildə SSRİ Elmlər Akademiyasının "Xəbərlər" jurnalında dərc edilmiş və Naftalan neftinin fiziki-kimyəvi xüsusiyyətləri barədə ilk sistemli elmi məlumatların formalaşmasına zəmin yaratmışdır.

Qeyd edilən istiqamətdə aparılan tədqiqatlar bu gün də davam etdirilir. Hazırda Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda Naftalan neftinin tərkibi və müalicəvi təsiri üzərində fundamental və tətbiqi xarakterli elmi işlər davam etdirilir. Bu araşdırmaların əsas məqsədi müalicəvi neftin daha effektiv təmizlənmə texnologiyalarının hazırlanması, tibbi tətbiq imkanlarının genişləndirilməsi və beynəlxalq ictimaiyyətə daha geniş şəkildə təqdim olunmasıdır.



Naftalan neftinin tibbi xüsusiyyətləri və onun insan orqanizminə təsir mexanizmi ilə bağlı məsələlərə mütəxəssislər də aydınlıq gətirirlər. Uzun illər Naftalanda çalışmış, Naftalan nefti ilə müalicə sahəsində ekspert, fizioterapevt Gültəkin Süleymanovanın sözlərinə görə, Naftalan neftinin terapevtik təsiri əsasən onun tərkibindəki naften karbohidrogenləri ilə bağlıdır. Onun fikrincə, bu birləşmələr insan orqanizmindəki bəzi steroid hormonların strukturuna bənzər təsir göstərərək iltihabi və allergik proseslərin səngiməsinə kömək edir.

## Dünyada analoqu olmayan təbii məlhəm

Bu fikirləri alimlər elmi tədqiqatlarla təsdiqləyirlər. Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik Vaqif Abbasov qeyd edir ki, müalicəvi Naftalan nefti dünyada analoqu olmayan təbii mənbədir və onun tibbi məqsədlərlə istifadəsi qədim tarixə malikdir. Alimin sözlərinə görə, Naftalan neftinin müalicəvi təsiri əsasən çoxhəlqəli, qısa yan zəncirli naften karbohidrogenləri ilə bağlıdır. Bu maddələr insan orqanizmi ilə təmas zamanı fermentativ reaksiyalar nəticəsində bioloji aktiv birləşmələrə çevrilərək müalicə prosesinə müsbət təsir göstərir. Vaqif Abbasov həmçinin qeyd edir ki, Naftalan neftinin tərkibi və fiziki-kimyəvi xüsusiyyətlərinin sistemli şəkildə öyrənilməsinə hələ 1943-cü ildən akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə başlanılmış və bu istiqamətdə tədqiqatlar bu gün də institutda davam etdirilir.

Mütəxəssislərin qənaətlərinə görə, Naftalan terapiyası, xüsusilə dayaq-hərəkət sistemi və dermatoloji xəstəliklərin müalicəsində geniş tətbiq olunur. Fizioterapevt Gültəkin Süleymanova bildirir ki, revmatoid artrit, osteoxondroz, osteoartroz, nevritlər, periferik damar patologiyaları, eləcə də psoriaz və ekzema kimi dəri xəstəliklərində Naftalan prosedurlarının müsbət nəticələri müşahidə edilir. Akademik Vaqif Abbasov da vurğulayır ki, Naftalan neftindən osteoxondroz, deformasiyaedici osteoartroz, periferik sinir zədələnmələri, damar xəstəlikləri, stomatoloji problemlər, eləcə də müxtəlif dermatoloji xəstəliklərin müalicəsində uğurla istifadə olunur. Alimin fikrincə, Naftalan neftinin tərkibindəki naften karbohidrogenləri həm də antimikrob və antibakterial təsirə malikdir və bu xüsusiyyətlər də müalicə prosesində mühüm rol oynayır.

## Naftalanın neft terapiyası

Naftalan nefti terapiyasının tətbiqi müəyyən tibbi qaydalar və nəzarət mexanizmləri əsasında həyata keçirilir. Mütəxəssislərin sözlərinə görə, ən geniş yayılmış müalicə üsullarından biri xüsusi Naftalan nefti vannalarıdır. Bu prosedurlar, adətən, 38 dərəcə temperaturda 8-10 dəqiqə davam edir və müalicə kursu, təxminən, 15-20 gündür. Bu müddətdə pasiyentlər həkim nəzarəti altında bir neçə seans qəbul edirlər. Bununla yanaşı, bəzi hallarda Naftalan yağının lokal tətbiqi və digər fizioterapiya üsulları ilə birlikdə kompleks müalicə proqramları da tətbiq edilir.

Mütəxəssislər onu da vurğulayırlar ki, Naftalan müalicəsi yalnız tibbi göstərişlər əsasında və ciddi nəzarət altında aparılmalıdır. Ağır ürək və böyrək çatışmazlığı, onkoloji xəstəliklər və bəzi damar patologiyaları zamanı xüsusi müalicə üsulları istifadə olunmalıdır. Bu baxımdan, Naftalan prosedurlarının standartlaşdırılmış tibbi protokollar əsasında həyata keçirilməsi vacib hesab olunur.

## Azərbaycanın sağlamlıq turizmi potensialı

Naftalan nefti həm tibbi praktikada tətbiq olunan spesifik balneoloji vasitə, həm də Azərbaycanın sağlamlıq turizmi sistemində mühüm yer tutan unikal təbii mənbədir. Mütəxəssislərin fikrincə, bu müalicə üsulunun effektivliyi mərhələli terapiya və ciddi tibbi nəzarət prinsiplərinə riayət edildiyi halda daha aydın şəkildə özünü göstərir. Akademik Vaqif Abbasovun sözlərinə görə, Naftalan nefti ilə bağlı zaman-zaman yayılan bəzi mənfi məlumatlar elmi əsaslara söykənmir və tibbi protokollara uyğun şəkildə tətbiq edildikdə bu müalicə üsulunun mənfi yan təsirləri müşahidə olunmur.

Bu baxımdan, Naftalan nefti yalnız müalicə vasitəsi kimi deyil, həm də Azərbaycanın sağlamlıq turizmi potensialını gücləndirən strateji mənbə kimi qiymətləndirilir. Eyni zamanda, bu sahədə elmi tədqiqatların genişləndirilməsi, Naftalan əsasında yeni tibbi və kosmetik məhsulların hazırlanması və beynəlxalq əməkdaşlığın artırılması gələcək inkişaf üçün əsas istiqamətlərdən biri hesab olunur.

Naftalan şəhərində yerləşən, Naftalan nefti ilə müalicə həyata keçirən müəssisələrdən birinin təsisçi direktoru Surxay Ələkbərov bildirir ki, Naftalana turist axını əsasən turizm agentlikləri vasitəsilə formalaşır. Bununla yanaşı, "walk-in" qonaqlar da müşahidə olunur. Əsas bazarlar Qazaxıstan, Rusiya və Özbəkistandır. Mövsümi dinamika nəzərə çarpır: yay aylarında doluluq 85-90 faizə qədər yüksəlir.

## Gələcək inkişaf istiqamətləri

Dövlət Turizm Agentliyinin (DTA) Mədəni irs və regional turizm şöbəsinin müdiri Elgün Cavadov bildirir ki, Naftalan kurortunun gələcək inkişafı onun unikal təbii resursunun elmi əsaslarla daha geniş tətbiqi, beynəlxalq səviyyədə tanıdılması və yüksək keyfiyyətli kurort xidmətlərinin inkişafı ilə birbaşa bağlıdır. 2024-cü ildə Azərbaycan Respublikası Prezidentinin imzaladığı müvafiq sərəncama uyğun olaraq, perspektiv inkişaf istiqamətləri sırasında Naftalan neftinin tibbi təsirinin beynəlxalq standartlara uyğun şəkildə daha dərindən tədqiq olunması, klinik sübut bazasının gücləndirilməsi və bu əsasda müalicə protokollarının yenilənməsi xüsusi yer tutur. Bununla yanaşı, kurort infrastrukturunun modernləşdirilməsi, rəqəmsal xidmətlərin tətbiqi və inteqrasiya olunmuş sağlamlıq turizmi paketlərinin hazırlanması Naftalanın rəqabət qabiliyyətini artıracaq əsas amillər kimi qiymətləndirilir.

Agentliyin şöbə müdirinin sözlərinə görə, müasir yanaşmada sağlamlıq turizmi artıq yalnız müalicə ilə məhdudlaşmır. Belə ki, sağlamlıq turizmi dedikdə profilaktika, həyat keyfiyyətinin artırılması, reabilitasiya və uzunmüddətli rifah anlayışları əhatə olunur və bu sahədə ictimai maarifləndirmə mühüm rol oynayır. Elgün Cavadov qeyd edir ki, insanların düzgün məlumatlandırılması həm müalicə üsullarına daha rasional yanaşmanı təşviq edir, həm də sağlam həyat tərzinə cəmiyyətdə marağı artırır. Xüsusilə Naftalan nefti kimi spesifik müalicə üsulları üzrə göstərişlər və əks-göstərişlər barədə dəqiq məlumatlılığın təmin edilməsi bu sahədə etimadın formalaşdırılması baxımından vacibdir.

## Dayanıqlı inkişaf bazası

Naftalanın yalnız müalicə məkanı kimi deyil, həm də beynəlxalq sağlamlıq turizmi brendi kimi formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Həyata keçirilən tədbirlər və qəbul edilən normativ qərarlar Naftalanın uzunmüddətli və dayanıqlı inkişafı üçün institusional baza yaradır.

Dünya, xüsusilə də Şərqi Avropa təcrübələri göstərir ki, sağlamlıq turizminin təşviqi baxımından beynəlxalq tədbirlərdə iştirak da əsas mexanizmlərdən biridir. Bu fikirlə bağlı agentliyin şöbə müdiri qeyd etmişdir ki, sərgilər, forumlar və ixtisaslaşmış konfranslar yalnız təqdimat platforması deyil, həm də real əməkdaşlıqların qurulduğu, investisiya imkanlarının müzakirə edildiyi və təcrübə mübadiləsinin aparıldığı peşəkar mühitdir.

DTA rəsmisi Elgün Cavadov deyir ki, Azərbaycan son illərdə bu istiqamətdə aktiv iştirak etməklə yeni və mövcud potensial bazarlara çıxış imkanlarını genişləndirmiş, tibbi turizm operatorları və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq perspektivlərini artırmışdır. Şöbə müdirinin sözlərinə görə, Avropa və Asiya ölkələrinin uğurlu modellərinin öyrənilməsi və yerli kontekstə uyğunlaşdırılması Azərbaycanın sağlamlıq turizmi məhsulunun beynəlxalq bazarda rəqabətqabiliyyətli və etibarlı brend kimi formalaşdırılmasına töhfə verir.

## Yeni əməkdaşlıq imkanları

Sonda onu da vurğulamaq yerinə düşər ki, Dövlət Turizm Agentliyi tərəfindən sağlamlıq turizmi sahəsinə həsr olunmuş beynəlxalq konfranslar sağlamlıq turizmi destinasiyası kimi xarici bazarlara çıxış üçün xüsusi əhəmiyyət daşıyır. 2024-cü ildə Şuşada, 2025-ci ildə isə Bakıda keçirilmiş konfranslar çərçivəsində yerli və xarici mütəxəssislər, dövlət qurumları, özəl sektor nümayəndələri və beynəlxalq təşkilatlar arasında fikir mübadiləsi aparılmış, yeni əməkdaşlıq imkanları müzakirə olunmuş və tərəfdaşlıqların formalaşdırılması üçün platforma yaradılmışdır.

Beləliklə, Azərbaycan zəngin təbii müalicə resursları və ardıcıl dövlət siyasəti ilə sağlamlıq turizmi sahəsində öz mövqeyini getdikcə gücləndirir. Xüsusilə Naftalan nefti kimi unikal sərvət ölkənin bu istiqamətdə beynəlxalq arenada tanınmasını sürətləndirərək onu cəlbedici sağlamlıq turizmi mərkəzlərindən birinə çevirəcək.

*Hazırladı:*
***T.RÜSTƏMLİ***
***XQ***

# Körfəz müharibəsi: neft, yoxsa su?

## *Bəşəriyyətin gələcəyi bunların hansından daha çox asılıdır?*

**ABŞ və İsrail alyansının İrana qarşı hərbi əməliyyatların başlamasından bəri analitiklər ənənəvi olaraq əmtəə bazarlarına - karbohidrogenlər, alüminium və ya gübrələrə daha çox diqqət yetirirlər. Lakin bir amili unudurlar ki, hücum altında olan əsl strateji resurs şirin sudur.**

Ümumiyyətlə, şirin su çatışmazlığı dövrümüzün ən aktual problemlərindən biridir, lakin bu məsələ çox nadir hallarda mövcud silahlı münaqişələr kontekstində müzakirə olunur. Bu il fevralın 28-də ABŞ və İsrail tərəfindən başladılan təcavüz hərbi əməliyyatların su təhlükəsizliyinə dağıdıcı təsirinin bariz nümunəsinə çevrilib. "Fortune" jurnalının qeyd etdiyi kimi, İranla müharibədə müəyyənedici amil neft deyil, sudur. Bu yanaşma nə qədər doğrudur?

Təmiz su çatışmazlığı Fars körfəzi dövlətləri üçün əsas zəif yerlərdəndir və bu cür hücumlar bu ölkələri humanitar fəlakətin astanasına apara bilər. Mənbələr göstərir ki, yalnız böyük çayları və gölləri olan İran və İraqda bərpaolunan şirin su mənbələri mövcuddur. Bununla belə, hətta bu ölkələrdə də quraqlıq və artan su istehlakı səbəbindən su çatışmazlığı artmaqdadır. Fars körfəzinin digər dövlətləri dəniz suyunun emalından daha çox asılıdırlarr: Səudiyyə Ərəbistanında



sutəmizləmə zavodları içməli suyun 70 faizini, Omanda 86 faizini, BƏƏ-də və Küveytdə 90 faizini təmin edir. Hətta İsrail əhalisinin əksəriyyətini içməli su ilə təmin etmək və qonşu ölkələrə satmaq, eləcə də daxili şirin su mənbəyi olan getdikcə dayazlaşan Qalileya dənizini bərpa etmək üçün beş böyük sahil sutəmizləmə zavodunun imkanlarından istifadə edir.

Bu səbəbdən də hələ 2010-cu ildə ABŞ kəşfiyyatı hərbi əməliyyatlar başlanacağı təqdirdə Yaxın Şərqdə kritik susaflaşdırma infrastrukturuna risklər barədə xəbərdarlıq etmişdi. Qurğuların təhlükəsizliyini təmin etmək çətindir: dəniz suyu və elektrik enerjisinə çıxışı təmin etmək üçün zavodlar sahildə yerləşir. Ona görə də bu yerlər sutəmizləyici zavodları hücum üçün asan hədəfə çevirir.

Aydın məsələdir ki, yanacaq ehtiyatlarından fərqli olaraq, su Fars körfəzi ölkələri üçün mühüm əhəmiyyət kəsb edir, çünki defisiti əvəz etməyin başqa yolu yoxdur. Region artıq təkcə içməli su deyil, həm də istehsalı böyük resurs tələb edən kənd təsərrüfatı məhsulları idxal edir. Buna görə də sutəmizləmə zavodlarına endirilən zərbə, xüsusən də Hörmüz boğazının faktiki olaraq bağlandığını və qida idxalının dayandırıldığını nəzərə alsaq, Körfəz ölkələrinin ərzaq təhlükəsizliyinə də zərbədir.

Daha vacib bir sahə enerji obyektləri ilə bağlıdır. Çünki enerji obyektlərinə edilən hücumlar da nəticədə sutəmizləməyə təsir göstərir. Yaxın Şərqdə dəniz suyunu içməli suya çevirmək üçün iki texnologiyadan istifadə olunur: suyu yüksək temperatura qədər qızdırmaq və kondensat toplamaq, sonra suyun çirkləri saxlayan membran vasitəsilə təzyiq altında tərs axını. Hər iki variant da enerji tələb edir: Səudiyyə Ərəbistanında, təxminən, 30 sutəmizləmə qurğusu gündə 300 min barel xam neft istehlak edir.

Beləliklə, alyansın başladığı müharibə həm birbaşa məhv, həm də dolayısıyla – iqtisadi və iqlim mexanizmləri vasitəsilə, su ehtiyatları çatışmazlığına kəskin mənfi təsir göstərir. Problemin regional miqyası aydındır. Söhbət vacib infrastrukturun birbaşa məhv edilməsini əhatə edir. Münaqişənin ən aşkar və həyəcanverici aspektlərindən biri su təchizatı qurğularına hədəflənmiş hücumlar olub. Çünki bu məqamda dünyanın ən çox su çatışmazlığı olan Fars körfəzi ölkələrinin sutəmizləmə qurğularına arxayınlaşması bu məqamda strateji zəifliyə çevrilir. Problemin ciddiliyi ondadır ki, dünyanın saflaşdırılmış suyunun, təxminən, 40 faizini istehsal edən region sahilləri boyunca 400-dən çox sutəmizləyici zavod işlədir. Aydın görünür ki, Körfəz ölkələrinin ən məhsuldarları sahil boyunca yerləşən minlərlə sutəmizləyici qurğuya güvənirlər. Bu da onları raket və pilotsuz aparatların hücumlarına qarşı həssas edir. Belə olan halda su infrastrukturuna hər hansı ciddi ziyan humanitar fəlakətə bərabərdir.

İrana gəldikdə isə, ölkə sutəmizləyici qurğuların gücünə daha az güvənsə də, mənbələr ölkədə su çatışmazlığının hələ də olduqca ciddi problem olduğunu bildirirlər. Onilliklər boyu bənd tikintisi və kütləvi su çıxarılması təbii ehtiyatları tükəndirib. İranlıların təxminən üçdəbiri su çatışmazlığı ilə üzləşir. Mövcud vəziyyəti nəzərə alsaq, müharibənin Tehranın qonşu ölkələrlə su məsələləri üzrə onsuz da təvazökar əməkdaşlığına kömək etməsi ehtimalı azdır. Münaqişə davam etdikcə, İran Fars körfəzi qonşularının su təchizatını dayandıra bilər. Lakin "The Economist" jurnalının qənaətinə görə, İranın özünün də susuz qalma ehtimalı böyükdür.

Mülki su infrastrukturuna hücumlar ənənəvi olaraq müharibə cinayətləri hesab olunur. Artıq hazırkı münaqişə zamanı sutəmizləmə zavodlarına zərbələr qeydə alınıb. Martın 7-də İran Xarici İşlər Nazirliyi ABŞ-ın Qeşm adasında sutəmizləmə zavoduna zərbə endirməklə presedent yaratdığını və nəticədə 30 kəndin susuz qaldığını bildirib. Vaşinqton bu məlumatı nə təsdiq, nə də təkzib edib: ABŞ Prezidenti Donald Tramp "sutəmizləmə zavodu haqqında heç nə bilmədiyini" söyləyib. İsrail infrastruktura zərbənin BƏƏ tərəfindən həyata keçirildiyini iddia edib.

Martın 8-də isə Bəhreyn İranın zərbəsi nəticəsində ərazisindəki sutəmizləmə zavoduna ziyan dəydiyini bildirib. Ölkənin Xarici İşlər Nazirliyi maddi ziyan barədə məlumat verib, lakin zavodun yerini və ya zərərin miqyasını dəqiqləşdirməyib. İran Bəhreynə hücumla bağlı şərh verməyib.

Yaxın tarixdə sutəmizləmə zavodlarına hücum presedentləri olub, həm də Fars körfəzi ölkələrində. Belə ki, 1991-ci il Körfəz müharibəsi zamanı Küveyti işğal edən İraq hərbi qüvvələri ölkədəki bir neçə sutəmizləmə zavodunu məhv edib. Hərbi əməliyyatlar zamanı İraq həmçinin Fars körfəzinə 816 min ton xam neft töküb və 700-dən çox neft quyusunu yandırıb. Əlbəttə, bu təkcə neftə həssas olan sutəmizləmə zavodlarını dayandırmayıb, həmçinin bölgədəki çirklənmiş yeraltı suları da sıradan çıxarıb.

Doğrudur, münaqişə zamanı sutəmizləmə infrastrukturuna edilən zərbələr az ziyan vurub və ziyan görən ölkələr vəziyyəti gərginləşdirməmək yolu seçiblər. Sutəmizləmə qurğularının təhlükəsizliyi region üçün olduqca həssas bir məsələdir, çünki zərər humanitar fəlakətə səbəb ola bilər və zavodların bərpası aylarla uzanar. Dağıntıya məruz qalan ölkənin qarşılıqlı hərəkətləri bölgəni sutəmizləmə qabiliyyətindən məhrum edəcək və sülh bərpa edildikdən sonra içməli su çatışmazlığını həll etmək üçün qonşu ölkələrin resurslarından istifadə etmək mümkün olmayacaq.

Avstriyanın "Macquarie" investisiya qrupunun analitikləri sutəmizləmə qurğuları kimi əsas obyektlərə zərbə endirməyin kəskin eskalasiyaya səbəb olacağı ilə bağlı ciddi xəbərdarlıq edirlər. Bununla bağlı ciddi hesablamalar da var: bir neçə il əvvəl dərc edilmiş bir analitik hesabatda qeyd edilir ki, əgər Səudiyyə Ərəbistanının su infrastrukturu sıradan çıxarılarsa, 8,5 milyon əhalisi olan paytaxt Ər-Riyad bir həftə ərzində təxliyə edilməli olacaq. Tək bir qurğudan asılılığın miqyası heyrətamizdir: Cübeyl kompleksi gündə 1,6 milyon kubmetr təmiz su istehsal edir. Krallıqdakı Amerika səfirliyi hətta bir dəfə Cübeyl qurğusu olmasa, Səudiyyə hökumətinin sadəcə fəaliyyətini dayandıracağını bildirmişdi.

Demək doğru olmaz ki, İranın regiondakı Amerikapərəst ölkələrin su infrastrukturuna hücum etməkdən imtina etməsi zəiflikdir, əksinə, bu daha çox düşünülmüş diplomatik addımdır. Tehran qonşularının infrastrukturundakı ən həssas halqaya hücumlardan yayınmaqla onlara birmənalı siqnal göndərir: "Biz vəziyyəti kəskin şəkildə gərginləşdirməyə qadirik, amma hələlik bunu şüurlu şəkildə etmirik. Biz bu xətti keçməzdən əvvəl siz ABŞ-a təzyiq göstərməli və gərginliyin azaldılmasını tələb etməlisiniz".

Bu arada, birbaşa məhvdən əlavə, münaqişə su ehtiyatlarına təsiri gecikən, lakin heç də az dağıdıcı olmayan mexanizmləri işə saldı. Bu mexanizmlər qlobal xarakter daşıyır və regional müharibəni qlobal su qeyri-sabitliyi amilinə çevirir.

Amma münaqişə nəticəsində qlobal karbamid və kükürd ixracının, təxminən, 50 faizinin keçdiyi Hörmüz boğazının bağlanması gübrə bazarının çökməsinə də səbəb olub. FAO vəziyyəti "son dövrlərdə qlobal ticarət axınlarında ən sürətli və ciddi pozuntulardan biri" kimi qeyd edir. Karbamidin qiymətləri 2026-cı ilin fevral-mart ayları arasında, təxminən, 46 faiz artdı. Bu, kənd təsərrüfatına birbaşa təsir göstərir: dünya üzrə fermerlər gübrə ala bilməməklə üzləşirlər və bu da məhsuldarlığın azalmasına səbəb olur.

Gübrələrlə su ehtiyatları arasındakı əlaqə ikiqatdır. Bir tərəfdən, məhsuldarlığın azalması fermerləri kompensasiya etmək üçün əkin sahələrini genişləndirməyə və ya suvarma suyunun çəkilməsini artırmağa məcbur edir ki, bu da tükənmiş su hövzələrinə təzyiqi artırır. Digər tərəfdən, uzunmüddətli perspektivdə ərzaq böhranı dövlətlərin qeyri-sabitliyinə və nəticədə onların suya qənaət edən texnologiyalara investisiya qoymaq və su infrastrukturunu saxlamaq qabiliyyətinin zəifləməsinə gətirib çıxarır.

Hadisələrin gedişi göstərir ki, suya çıxış kənd təsərrüfatı üçün yeni qaydalar diktə edir. Məhsuldarlığın artması torpaq sahəsindən və kənd təsərrüfatı təcrübələrindən elə də ciddi asılı olmayacaq, çünki su, demək olar ki, həlledici amilə çevrilir. Dünya Bankının mütəxəssisləri hesablayıblar ki, planetin ekoloji məhdudiyyətləri daxilində biz yalnız 3,4 milyard insanı doyura bilərik. Qalan ərzaq təchizatı resursların amansızcasına tükənməsinin nəticəsidir. Əsas problem nə qədər suyun istehlak edilməsi deyil, ölkələr və sektorlar arasında son dərəcə qeyri-bərabər paylanmadır. Bank mütəxəssisləri əmindirlər ki, həm kənd təsərrüfatı sektorunun arxitekturası, həm də büdcə siyasəti bu amili nəzərə almır. Nəticədə, istehsal həcmləri artır, lakin bununla bərabər, sistem məhdudiyyətləri də böyüyür.

Münaqişənin siyasi nəticələri beynəlxalq su əməkdaşlığı sistemi üçün də son dərəcə mənfi ola bilər. Cenevrə konvensiyalarının pozulması kimi təsnif edilən mülki su infrastrukturuna edilən hücumlar cəzasızlığın təhlükəli bir presedentini yaradır. Sərhədlərarası su mübahisələrinin gücləndiyi bir dünyada beynəlxalq hüquq normalarının aşınması su mənbələrinə nəzarət üzərində münaqişələrin artmasına səbəb ola bilər. Analitiklər vurğulayırlar ki, sutəmizləmə zavodlarına davamlı hücumlar təxminən 100 milyon insanın həyat təminatı sistemlərini sıradan çıxarmaq təhlükəsi yaradır. Tək bir zavodun məhv edilməsi alternativ mənbələrin demək olar ki, mövcud olmadığı ölkələrdə bütün şəhərləri susuz qoya bilər.

Belə olan halda, qarşıya sual çıxır: Sutəmizləmə infrastrukturlarına hücum kimə sərfəlidir?

Bir müddət əvvəl Vaşinqtonun Hörmüz boğazı 48 saat ərzində açılmadığı təqdirdə İranın elektrik stansiyalarını məhv etmək təhdidinə cavab olaraq, Tehran martın 22-də sutəmizləmə zavodları da daxil olmaqla, bölgədəki bütün ABŞ enerji və rabitə obyektlərinə zərbələrlə cavab verəcəyi ilə hədələdi. Xarici analitiklər İranın daxili gərginliyi pozmaq və əhalini bölgədə atəşi dayandırmaq üçün hökumətlərə təzyiq göstərməyə məcbur etmək üçün sutəmizləmə zavodlarına hücum edə biləcəyini istisna etmirlər. Lakin bu cür hücumların həyata keçirilməsinin İran üçün əhəmiyyətli risk yaradacağı ehtimalı daha böyükdür. Çünki ölkənin bölgədə az sayda müttəfiqi var və qonşuları ilə münasibətlərin gərginləşməsi Yaxın Şərq dövlətlərinin Tehranın hərəkətlərini ekzistensial riski kimi qəbul etməsinə səbəb ola bilər. Belə olan halda, Fars körfəzi ölkələri İrana qarşı vahid cəbhə yarada bilərlər ki, bu da ABŞ və İsrailin xeyrinə işləyəcək. Bu, İran üçün arzuolunmazdır. Ona görə də analitiklər Tehranın sutəmizləmə zavodlarına mümkün zərbələr endirə biləcəyi ilə bağlı təhdidlərini daha çox siyasi şantaj hesab edirlər.

Diqqətçəkən bir məqam da ondan ibarətdir ki, İsrail və ABŞ sutəmizləmə infrastrukturuna hücum etsələr belə, formal olaraq beynəlxalq hüququ pozmurlar, çünki hər iki ölkə 1977-ci il Cenevrə konvensiyalarına Əlavə Protokolunu imzalayıb, lakin ratifikasiya etməyiblər. Bu sənəd aclığı müharibə üsulu kimi və mülki əhalinin yaşaması üçün vacib olan obyektlərin məhv edilməsini qadağan edir. Təl-Əviv artıq regionda sutəmizləmə zavodlarına hücum təcrübəsinə malikdir. Belə ki, 2023-cü ilin oktyabrında HƏMAS-ın hücumuna cavab olaraq İsrail Fələstinin su infrastrukturuna hücum etdi və bu da, sutəmizləmə zavodları da daxil olmaqla, Qəzzanın su təchizatının əksəriyyətinin dayandırılmasına səbəb oldu.

Bütün bunlardan çıxış edən analitiklər və politoloqlar hesab edirlər ki, İrana qarşı Amerika–İsrail müharibəsi, su təhlükəsizliyi probleminin qlobal sabitliyin ayrılmaz hissəsi kimi tanınmasında dönüş nöqtəsi ola bilər. Çünki münaqişə artıq su infrastrukturunun ictimai xidmətlərin passiv elementindən strateji hədəfə və təzyiq alətinə çevrildiyini açıq şəkildə göstərir. Yaxın Şərqdəki regional böhran, ərzaq və gübrə təchizatı zəncirlərinin pozulması, iqlim ziyanı və beynəlxalq hüququn aşınması yolu ilə – dünya miqyasında su siyasətinə güclü mənfi təsir göstərir.

ABŞ, İsrail və İran arasındakı münaqişədə qlobal ictimaiyyətin əsas diqqəti birbaşa itkilərə və geosiyasi nəticələrə yönəlib. Lakin su ehtiyatlarına və infrastruktura dəyən ziyan nəzərə alınmamış kimi görünür. Lakin son Körfəz müharibəsi yalnız quraq Yaxın Şərqdə su sistemlərinin kritik zəifliyini üzə çıxarmadı, həm də planetin böyük bir hissəsində onsuz da gərgin olan su vəziyyətini daha da ağırlaşdıra biləcək bir sıra qlobal nəticələrə səbəb oldu.

Suyun Yer səthinin 70 faizini əhatə etməsinə baxmayaraq, kim düşünərdi ki, onun yalnız 3 faizi içməyə yararlıdır. İndi siz deyin, dünyaya daha çox lazım olan nədir: NEFT, yoxsa SU?

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) əsas binasının önündəki parkda VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının (VI LitBookFest) açılışı olub.**

# Bakıda VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı



AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açılış nitqində VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalını Azərbaycanın Türk dünyası ilə əlaqələrinin ardıcıl şəkildə qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərin məntiqi nəticəsi kimi dəyərləndirib. Bildirib ki, bu festival Türk dünyası ölkələri arasında inteqrasiya proseslərinin dərinləşməsinə, elmi, ədəbi və mədəni əməkdaşlığın coğrafiyasının genişlənməsinə mühüm töhfə verməkdədir.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Birinci Türk Dünyası Ədəbiyyat və Kitab Festivalından ötən dövr ərzində aparılan müşahidələr festivalın əhatə dairəsinin ildən-ilə genişləndiyini, iştirakçı ölkələrin sayının artdığını və Türk dünyasının intellektual, yaradıcı potensialının daha geniş platformada bir araya gəldiyini göstərir: "İlk dəfə Bakıda əsası qoyulan və artıq 6-cı dəfə Azərbaycanda təşkil edilən bu mötəbər mədəniyyət hadisəsi bu il qardaş Türkiyə Cümhuriyyətində də eyni ruh və yüksək təşkilati səviyyə ilə keçirilib və uğurla davam etdirilib".

Bu festivalı kitabın, elmin və mədəniyyətin təntənəsi olmaqla yanaşı, Türk dünyasında birlik və həmrəyliyin rəmzi kimi dəyərləndirən AMEA rəhbəri İnternetin, süni intellektin və rəqəmsal cəmiyyətdə artan informasiya rəqabəti fonunda bu festivalın kitabın rolunun gücləndirilməsi, oxu mədəniyyətinə marağın artırılması baxımından xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Daha sonra Azərbaycan Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgün, millət vəkili Elçin Mirzəbəyli, Şimali Kipr Türk Cümhuriyyətinin Bakı təmsilçisi Ufuk Turqaner, Beynəlxalq Türk Akademiyasının təmsilçisi, professor Əbülfəz Süleymanlı, Özbəkistan Asiya Texniki Universitetinin rektoru Laçın Rəhmanov, Beynəlxalq Türk Müəllifləri Birliyinin sədri Xəyal Rza və digərləri çıxış edərək Türk dünyasının sarsılmaz birliyinə, türk dövlətləri arasındakı əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcək VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının əhəmiyyətindən danışıblar.

Festival ədəbi-bədii kompozisiyalarla davam etdirilib.

Festivalın ilk günü Azərbaycan–Türkiyə, ikinci günü Özbəkistan–Türkmənistan, üçüncü günü Qazaxıstan–Qırğızıstan, dördüncü günü Macarıstan–Şimali Kipr Türk Respublikası, sonuncu günü isə Türk Dünyası – Yunus Əmrə günü adlandırılıb.

Festival mayın 26-dək davam edəcək.

***Ə.QABİL***
***XQ***


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Azərbaycan Texnologiya Universiteti

*aşağıda adı göstərilən vakant vəzifənin tutulması üçün*

## müsabiqə elan edir

– "Turizm sənayesinin təşkili" kafedrası - kafedra müdiri.

Sənədlərin təqdim olunması bu elan dərc edildiyi tarixdən 1 ay müddətindədir.

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları" haqqında 5 fevral 2018-ci il tarixli F-100 nömrəli əmrə əsasən elan olunduğu gündən başlayaraq 1 ay müddətində qəbul edilir.

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Əlaqə telefonu:** 022-268-66-22.

**Ünvan:** AZ 2011, Gəncə şəhəri, Ş.İ.Xətai prospekti 103.

## "Avrora-çay" ASC səhmdarlarının nəzərinə!

"Avrora-çay" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 26 iyun 2026-cı il saat 11.00-da cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər.**

**1.** 2025-ci ilin təsərrüfat fəaliyyətinin hesabatı.

**2.** Müşahidə şurasının, idarə heyətinin və təftiş komissiyasının yeni tərkibinin seçilməsi.

**3.** Digər məsələlər.

**Ünvan:** Lənkəran rayonunun Hirkan qəsəbəsi.

## BİLDİRİŞ

2026-cı il iyulun 20-də "Ağsu Sutikinti" ASC-nin ümumi yığıncağı keçiriləcəkdir.

**Ünvan:** Ağsu rayonu, Melioratorlar qəsəbəsi.

